Xalqın qəzeti!

# Xalq qəzeti

№ 242 (30936) 14 noyabr 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Tolerantlıq Azərbaycan xalqının həyat tərzidir

## Prezident İlham Əliyev ABŞ-ın İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də ABŞ-ın İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin nümayəndə heyətini qəbul edib.**

Nümayəndə heyətinə "On İki Həvari Kvorumu"nun üzvü Deyvid Bednar, Yetmişlər Komitəsinin üzvü və Avropa Mərkəzi Ərazi İdarəsinin birinci məsləhətçisi Cek Gerard, Stirlinq Fondunun prezidenti və İdarə Heyətinin sədri Mayls Hansen və Yetmişlər Komitəsinin Mərkəzi Avropa və Avrasiya üzrə kvorumunun üzvü Pol Pikard daxildir.

Söhbət zamanı Prezident İlham Əliyevlə ABŞ-ın İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin nümayəndə heyətinin əvvəlki görüşləri məmnunluqla xatırlandı.

Qonaqlar ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə təbriklərini çatdırdılar.

Təbriklərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı Vaşinqtonda Azərbaycan və Ermənistan arasında əldə olunmuş razılaşmaların tarixi əhəmiyyət daşıdığını deyərək, onların regionun inkişafı üçün mühüm rol oynadığını vurğuladı. Donald Trampın yenidən Prezident seçilməsindən sonra Azərbaycan–ABŞ əlaqələrinin yeni mərhələyə keçdiyini bildirən Prezident İlham Əliyev bu ilin avqustunda Vaşinqtona səfəri çərçivəsində ikitərəfli münasibətlərimizin inkişafı ilə bağlı mühüm sənədlərin imzalandığını xatırladı.

Qonaqlar Azərbaycan hökumətinin Amerika Birləşmiş Ştatlarının İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsini rəsmi qeydiyyata almasına görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirərək, bu kilsənin Bakı ofisinin açılışında iştirak edəcəklərini dedilər və bunu ölkəmizdə bütün dinlərin nümayəndələrinə göstərilən qayğının təcəssümü kimi qiymətləndirdilər.

Görüşdə Azərbaycanda mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi ilə bağlı dövlət səviyyəsində həyata keçirilən işlərdən söhbət açıldı, bu istiqamətdə ölkəmizdə bir çox mühüm beynəlxalq tədbirin təşkil edildiyi vurğulandı.

Tolerantlığın xalqımızın həyat tərzi olduğu bildirildi, tarixən ölkəmizdə müxtəlif dinlərin və xalqların nümayəndələrinin bir ailə kimi dinc və sülh şəraitində yaşadığı qeyd edildi.

## Dövlətçilik tariximizin Zəfər erası



Səhifə ⇨ 7

## İki lider – iki fərqli siyasət

### Trampın realizmi Makronun multilateralizminə qarşı qlobal mübarizəyə başlayır

**Donald Trampın Ağ Evə qayıdışı ilə beynəlxalq siyasət səhnəsi diplomatik pıçıltıların və üstüörtülü mesajların yerini açıq, bəzən də sərt reallıqların aldığı yeni dövrə qədəm qoydu. Prezidentin yaxın zamanlarda verdiyi müsahibə zamanı səsləndirdiyi fikirlər onun siyasətinin təsadüfi emosional partlayışlardan ibarət olmadığını, əksinə, Amerika Birləşmiş Ştatlarının milli maraqlarını hər şeydən üstün tutan dərin köklərə malik strateji realizmə söykəndiyini bir daha təsdiqlədi.**

Aparıcının Çinin casusluq fəaliyyəti və intellektual mülkiyyət oğurluğuna istinad edərək "çinlilər fransızlar deyil" şəklindəki müqayisəsinə cavab olaraq Trampın "Sizcə fransızlar daha yaxşıdır? Doğrudanmı? Mən bu barədə o qədər də əmin olmazdım" deməsi və dərhal Fransanın Amerika texnoloji şirkətlərinə tətbiq etdiyi diskriminasiya xarakterli vergiləri gündəmə gətirməsi, əslində, İkinci Dünya müharibəsindən sonra formalaşmış, lakin zamanla ABŞ üçün əlverişsiz yükə çevrilmiş transatlantik münasibətlər sisteminin mühüm şəkildə yenidən qiymətləndirilməsi prosesinin başlanğıcıdır.

*(ardı 8-ci səhifədə)*

## Dövlət vəzifəsi xalqa xidmət üçün etimaddır



Səhifə ⇨ 10

## Ana dilimiz milli kimliyimizi, mənəvi varlığımızı yaşadan ən güclü vasitədir



Səhifə ⇨ 11

***Prezident İlham ƏLİYEV:***

## Özbəkistan Azərbaycan üçün qardaş ölkə, etibarlı müttəfiqdir



Səhifə ⇨ 2

## Geosiyasi strategiya və yeni diplomatik tələblər



Səhifə ⇨ 4

## Delimitasiya sülhə aparan yoldur



Səhifə ⇨ 5

## Kor məğlubların revanş xülyası



Səhifə ⇨ 6

## Pentaqon ədaləti bərpa etməyə çağırıb



Səhifə ⇨ 8

## Əhməd Baytursunov və ortaq türk əlifbası ideyası



Səhifə ⇨ 13

## Sarı dənizin zümrüdü – Tsindao



Səhifə ⇨ 15

*Prezident İlham ƏLİYEV:*

# Özbəkistan Azərbaycan üçün qardaş ölkə, etibarlı müttəfiqdir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.**



**– Hörmətli cənab Prezident, Siz tezliklə Daşkənddə keçiriləcək Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşündə iştirak etməyə hazırlaşırsınız. Siz regional əməkdaşlığın bu formatı barədə nə deyə bilərsiniz? Azərbaycanın bu regionla əlaqələri necə inkişaf edir və əməkdaşlığın indiki səviyyəsi Sizi qane edirmi?**

– Əvvəlcə qeyd etmək istəyirəm ki, bu, mənim Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşündə sayca üçüncü iştirakım olacaq. Dəvət aldığım ilk görüş 2023-cü ildə Düşənbədə, ikincisi isə 2024-cü ildə Astanada keçirilib və qarşıdakı görüşün Daşkənddə keçirilməsi gözlənilir. Mən dəvətə, həmçinin Azərbaycanın bu mühüm tədbirdə iştirakına göstərilən dəstəyə görə bütün həmkarlarıma, ilk növbədə isə qardaşım Şavkat Mirziyoyevə səmimi təşəkkürümü bildirirəm.

Azərbaycan və Mərkəzi Asiya ölkələri artan strateji əhəmiyyətə malik vahid tarixi, mədəni, coğrafi və geosiyasi məkanı formalaşdırır. İlk baxışda Azərbaycanı Mərkəzi Asiya ölkələrindən fiziki olaraq ayırsa da, Xəzər dənizi, əslində, mühüm birləşdirici amildir. Bu gün Xəzər dənizi, sadəcə, coğrafi anlayış deyil, o, hər şeydən əvvəl xalqlarımızın strateji birliyinin, iqtisadi potensialının və tarixi əməkdaşlığının rəmzidir.

Ölkələrimizi təkcə coğrafiya deyil, həm də tarixi-mədəni əlaqələr, ortaq dini və mənəvi dəyərlər, adət-ənənələr birləşdirir.

Azərbaycan regiondakı bütün ölkələrlə ən yüksək səviyyədə əməkdaşlığın hərtərəfli inkişafına xüsusi əhəmiyyət verir. Hesab edirəm ki, Mərkəzi Asiya ölkələri ilə Azərbaycan arasında ikitərəfli əsasda qurulan strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri, həmçinin fəal siyasi dialoqumuz və qarşılıqlı səfərlərimiz bu əməkdaşlıq formatının uğurunda mühüm rol oynayır.

Son bir neçə ildə dövlət başçıları arasında qarşılıqlı səfərlərin və təmasların dinamikası münasibətlərimizin yüksək səviyyəsini əyani şəkildə nümayiş etdirir. Belə ki, son üç ildə Mərkəzi Asiya dövlətlərinin başçıları Azərbaycana təxminən 30 səfər ediblər və mən özüm də həmin müddətdə qardaş ölkələrdə 13 dəfə səfərdə olmuşam.

Orta Dəhlizin artan əhəmiyyəti əməkdaşlığımızın genişləndirilməsi üçün əhəmiyyətli imkanlar yaradır.

Əminəm ki, Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət görüşü qardaş xalqlarımız arasında əsrlər boyu davam edən dostluğun möhkəmləndirilməsində, siyasi, iqtisadi, nəqliyyat, investisiya, enerji, mədəni, humanitar və rəqəmsal transformasiya sahələrində çoxsəviyyəli əməkdaşlığın genişləndirilməsində əhəmiyyətli mərhələ olacaq.

**– Hörmətli cənab Prezident, Siz Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında qarşılıqlı səfərlərin intensivliyini, fəal siyasi dialoqu və yüksəksəviyyəli qarşılıqlı anlaşmanı vurğuladınız. Diqqət yetirdik ki, son bir il yarım ərzində Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycana beş dəfə səfər edib. Bundan başqa, Siz il ərzində müxtəlif beynəlxalq məkanlarda bir neçə dəfə görüşmüsünüz. Azərbaycan ilə Özbəkistan arasında diplomatik münasibətlərin qurulmasının hazırkı 30-cu ildönümündə ikitərəfli əlaqələrin vəziyyətini necə xarakterizə edərdiniz?**

– Özbəkistan Azərbaycan üçün qardaş ölkə və etibarlı müttəfiqdir. Bizi ortaq köklər, mənəvi dəyərlər, dil, etnik yaxınlıq, zəngin tarixi və mədəni irs birləşdirir. Əsrlər boyu qardaş xalqlarımız bir-birinə dərin rəğbət və hörmət bəsləyiblər. Sevindirici haldır ki, dövlətlərarası münasibətlərimiz bu möhkəm təməl üzərində uğurla inkişaf edir.

Bu gün Azərbaycan ilə Özbəkistan arasında münasibətlər ən yüksək - müttəfiqlik səviyyəsindədir.

Münasibətlərimizin inkişafına təsir edən digər, əhəmiyyəti heç də az olmayan amil Özbəkistan Prezidenti Şavkat Miromonoviç Mirziyoyev ilə aramızda yaranan şəxsi etimad və dostluq münasibətləridir. Prezidentin dövlətlərarası münasibətlərimizin inkişafına şəxsi töhfəsini, onun çoxşaxəli əməkdaşlığımızın ardıcıl olaraq gücləndirilməsinə daim diqqət yetirməsini xüsusi vurğulamaq istərdim.

Qardaş Özbəkistanın lideri, görkəmli dövlət xadimi və Azərbaycanın böyük dostu Prezident Şavkat Mirziyoyevi ölkəmizdə salamlamaq bizim üçün həmişə böyük şərəf və məmnuniyyətdir. Qeyd etdiyiniz kimi, son bir il yarım ərzində beş belə səfər olub. Bütün bunlar münasibətlərimizin yüksək dinamikasını əyani şəkildə göstərir.

Keçən ilin avqustunda mənim Özbəkistana dövlət səfərim oldu, bu ilin iyulunda isə Özbəkistan Prezidenti Azərbaycana dövlət səfəri etdi. Bu tarixi səfərlər zamanı onlarla mühüm sənəd, o cümlədən Strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında Bəyannamə, Müttəfiqlik münasibətləri haqqında Müqavilə, "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilənin həyata keçirilməsi üzrə 2025-2029-cu illər üçün "Yol Xəritəsi" və digər sənədlər imzalandı. Qısa müddət ərzində çox böyük işlər görüldü. Bütün bu qarşılıqlı səfərlər Azərbaycan-Özbəkistan münasibətlərinin həm ikitərəfli əsasda, həm də Mərkəzi Asiya və Xəzər regionu da daxil olmaqla, vahid coğrafi məkanda yeni tərəfdaşlıq imkanlarının reallaşdırılması baxımından bütün sahələrdə möhkəmləndirilməsinə əhəmiyyətli təkan verib.

Həmçinin 2023-cü ilin avqustunda təsis edilmiş Ali Dövlətlərarası Şura da münasibətlərimizin inkişaf strategiyasının müəyyənləşdirilməsində xüsusi rol oynayır. Şura artıq qarşılıqlı dövlət səfərləri çərçivəsində 2024-cü il avqustun 22-də Daşkənddə və 2025-ci il iyulun 2-də Bakıda iki iclas keçirib.

Özbəkistan Azərbaycanın ərazi bütövlüyünü dəyişməz olaraq dəstəkləyib. Fürsətdən istifadə edərək, qardaş Özbəkistana Qarabağın bərpasına verdiyi töhfəyə, xüsusən də azad edilmiş Füzulidə böyük özbək alimi Mirzə Uluqbəyin adını daşıyan və hazırda təxminən 600 şagirdin təhsil aldığı məktəbin tikintisinə görə minnətdarlığımı bildirirəm. Özbəkistan Qarabağ bölgəsinin yenidən qurulmasına yardım göstərmək təşəbbüsünü irəli sürən ilk ölkə, Prezident Mirziyoyev isə dünyada ilk lider olub. Biz bunu həmişə xatırlayacaq, ölkələrimiz və xalqlarımız arasında həmrəylik, dostluq və qardaşlıq jesti kimi qəbul edəcəyik.

Qardaş ölkəyə qarşıdakı səfəri səbirsizliklə gözləyirəm. Hər dəfə Özbəkistanın dinamik inkişafını və özbək xalqının əldə etdiyi heyranedici nailiyyətləri böyük məmnunluqla müşahidə edirəm. Həyata keçirilən genişmiqyaslı islahatlar və cəmiyyətin bütün sahələrinin ardıcıl müasirləşdirilməsi ölkənin nüfuzunun davamlı artmasına və beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə kömək edir. Bu nailiyyətlər dostum və qardaşım Prezident Şavkat Mirziyoyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və düşünülmüş dövlət siyasətinin göstəricisidir.

Ölkələrimiz arasında əməkdaşlıq təkcə ikitərəfli formatda deyil, həm də beynəlxalq platformalarda uğurla inkişaf edir. Azərbaycan və Özbəkistan Türk Dövlətləri Təşkilatının fəal üzvləridir və türk birliyinin möhkəmləndirilməsinə mühüm töhfələr verirlər. Bundan əlavə, münasibətlərimiz BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, AQEM və digər beynəlxalq təşkilatlar çərçivəsində uğurla inkişaf edir.

**– Azərbaycan ilə Özbəkistan arasında iqtisadi-ticari əməkdaşlığın hazırkı səviyyəsini necə qiymətləndirirsiniz?**

– İqtisadi-ticari əməkdaşlığın dinamikası tam məmnunluq doğurur və onun səviyyəsinin daha da artmasına kömək edir. Hər iki tərəf qarşılıqlı əməkdaşlığı genişləndirmək üçün əhəmiyyətli səylər göstərir, yeni layihələr irəli sürür və birgə təşəbbüslərin həyata keçirilməsinə xüsusi əhəmiyyət verir. Bu gün Azərbaycanda təxminən 120 Özbəkistan investisiyalı kommersiya təşkilatı qeydiyyatdan keçib və iqtisadiyyatın müxtəlif istiqamətlərində - sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat və xidmət sahələrində uğurla fəaliyyət göstərir.

Azərbaycanla Özbəkistan arasında ticarət sürətli templə inkişaf edir. Belə ki, 2024-cü ildə əmtəə dövriyyəsi 252 milyon ABŞ dolları təşkil edib və 2025-ci ilin yanvar-sentyabr aylarında bu göstərici keçən ilin eyni dövrü ilə müqayisədə 87,5 faiz artaraq 319 milyon ABŞ dollarına çatıb.

Sərmayələr sahəsində əməkdaşlıq da möhkəmlənməyə davam edir. Bu günədək Özbəkistan Azərbaycan iqtisadiyyatına 21,8 milyon ABŞ dolları, həmçinin Azərbaycan Özbəkistan iqtisadiyyatına 183,5 milyon ABŞ dolları sərmayə qoyub. 2023-cü ildə həm ölkələrimizin daxilində, həm də üçüncü ölkələrdə sərmayə qoyuluşunu nəzərdə tutan ümumi kapitalı 500 milyon ABŞ dolları olan Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti yaradılıb.

Yüngül sənayenin inkişafı üçün yeni imkanlar açan, ənənəvi dostluq və qardaşlıq münasibətlərini möhkəmləndirən birgə müəssisə - Xankəndidə tikiş fabriki xüsusilə diqqətəlayiqdir.

Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlığa dair Hökumətlərarası Komissiyanın iqtisadi əlaqələrin inkişafı və perspektivli işbirliyi istiqamətlərinin müəyyənləşdirilməsi sahəsindəki aktiv fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Artıq mütəmadi olaraq keçirilən Azərbaycan-Özbəkistan Regional Forumu bu istiqamətdə əməkdaşlığın təşviqi üçün səmərəli platformadır.

Azərbaycan qardaş Özbəkistan ilə iqtisadiyyatın bütün sahələrində əməkdaşlığı daha da genişləndirməkdə maraqlıdır. Bunun üçün güclü siyasi iradə və əhəmiyyətli potensial mövcuddur. Bu günədək iqtisadi münasibətlərimizin daha da inkişafı üçün etibarlı hüquqi baza yaradan təxminən 200 sənəd imzalanıb. Azərbaycan hər iki tərəfin maraqlarına uyğun olan və xalqlarımız arasında dostluğun, tərəfdaşlığın möhkəmlənməsinə töhfə verən qarşılıqlı faydalı əməkdaşlığı bundan sonra da dəstəkləyəcək.

**– Nəqliyyat, logistika və energetika sahələrində ikitərəfli əməkdaşlığın hansı perspektivlərini görürsünüz?**

– Ölkələrimiz arasında əməkdaşlığın əsas istiqamətlərindən biri şaxələndirilmiş nəqliyyat və logistika infrastrukturunun inkişafı, tranzit imkanlarının genişləndirilməsidir. Bu sahədə ölkələrimizin Orta Dəhliz Beynəlxalq Nəqliyyat Marşrutunda iştirakı xüsusi əhəmiyyətə malikdir və onun çərçivəsində Azərbaycan Özbəkistan və Mərkəzi Asiya dövlətləri üçün mühüm tranzit ölkə qismində çıxış edir. Son illərdə Orta Dəhliz vasitəsilə ixrac imkanlarının və daşımaların artması xüsusi strateji əhəmiyyətə malikdir.

2024-cü ildə ölkələrimiz arasında tranzit daşımaların həcmi 2023-cü illə müqayisədə 18 faizdən çox artaraq 1,3 milyon tonu keçib. 2025-ci ilin ilk doqquz ayında bu rəqəm təxminən bir milyon tona çatıb ki, bu da nəqliyyat mübadilələrində dinamik artımı nümayiş etdirir.

Azərbaycanda yaradılan müasir nəqliyyat infrastrukturu, o cümlədən ticarət donanması, yaxın illərdə gücü 25 milyon tona çatacaq Ələt Beynəlxalq Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu və ölkənin doqquz beynəlxalq hava limanı da daxil olmaqla, bütün bunlar Azərbaycanın qlobal nəqliyyat və logistika qovşağı kimi rolunu gücləndirən amillərdir. Bundan əlavə, Zəngəzur dəhlizinin açılması bütün Mərkəzi Asiya ölkələrinə fayda gətirəcək.

Hava nəqliyyatının inkişafı və şəhərlərimiz arasında uçuşların intensivliyi xüsusi əhəmiyyət kəsb edir. AZAL müntəzəm sərnişin reysləri - Bakı-Daşkənd-Bakı (həftədə 7 uçuş), Bakı-Səmərqənd-Bakı (həftədə 2 uçuş) və Bakı-Ürgənc-Bakı (həftədə 2 uçuş) həyata keçirir. Öz növbəsində, "Uzbekistan Airways" Daşkənd-Bakı-Daşkənd marşrutu üzrə həftədə üç, "Centrum" isə həftədə iki uçuş yerinə yetirir.

Energetika sektorunda əməkdaşlıq və yaşıl enerjinin inkişafı da prioritet istiqamət olaraq qalır. SOCAR Özbəkistana Azərbaycanın neft məhsullarını və neft-kimya məhsullarını ixrac edir. 2016-cı ildən bəri "OZLITINEFTGAZ" İnstitutunun və "SOCAR NIPI Nefteqaz"ın bazasında yaradılan "Neftegaztexnologiya" birgə müəssisəsi uğurla fəaliyyət göstərir.

2024-cü ildə Azərbaycan, Qazaxıstan və Özbəkistan enerji sistemlərinin inteqrasiyasına və bərpaolunan enerji mənbələrinin təşviqinə yönəlmiş bir sıra strateji sazişlər, memorandumlar imzalayıblar ki, bu da regionun davamlı inkişafı və enerji əməkdaşlığını gücləndirmək üçün yeni perspektivlər açır.

**– Azərbaycan ilə Özbəkistan arasında mədəni və humanitar sahələrdə əməkdaşlıq barədə nə deyə bilərsiniz?**

– Mədəni və humanitar əməkdaşlıq ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin möhkəmləndirilməsində, həmçinin xalqlarımızın birbaşa əlaqələrinin genişləndirilməsində mühüm rol oynayır. Biz ortaq tarixi və mədəni dəyərləri qorumaq, bütün səviyyələrdə sıx əməkdaşlıq etmək üçün birgə səylər göstəririk.

Belə ki, 2023-cü ildə Azərbaycanda Özbəkistan Mədəniyyəti Günləri, 2024-cü ildə isə Özbəkistan Elm və Mədəniyyət Günləri keçirilib. Elə həmin il Özbəkistanda Azərbaycan Mədəniyyəti Günləri, Xivə şəhərində isə "Şuşa günləri" təşkil olunub. Bu tədbirlər xalqlarımızın zəngin mədəni irslərini bölüşmək, qarşılıqlı anlaşmanı dərinləşdirmək və bir-birinin mənəvi məkanını qarşılıqlı şəkildə zənginləşdirmək istəyini əks etdirir.

Ölkələrimizin regionları arasında əməkdaşlığa xüsusi diqqət yetirilir. İsmayıllı-Riştan, Şuşa-Xivə, Lənkəran-Buxara, Şəki-Kokand, Biləsuvar-Termez, Mingəçevir-Namanqan, Füzuli-Gülüstan, Quba-Cizak və Beyləqan-Şəhrisəbz şəhərləri arasında qardaşlaşma və tərəfdaşlıq münasibətləri qurulub. Bu cür regionlararası əlaqələrin fəallaşması xalqların yaxınlaşmasına, təcrübə mübadiləsinin aparılmasına və əməkdaşlığın mədəni-humanitar gündəliyinin möhkəmləndirilməsinə kömək edir.

Ölkələrimiz arasında dostluğun rəmzi ifadəsi mədəni əhəmiyyəti olan obyektlərdir: Daşkənddə Heydər Əliyev meydanı var və bu ilin iyulunda Bakıda "Özbəkistan" parkının təməli qoyulub.

Fürsətdən istifadə edərək, həmçinin Azərbaycan xalqının Ümummilli Lideri, özbək xalqına həmişə böyük sevgi hissləri bəsləyən Heydər Əliyevin xatirəsinə göstərilən ehtiram və həqiqətən qardaşlıq münasibətinə görə Özbəkistan rəhbərliyinə, bütün qardaş xalqa minnətdarlığımı bildirmək istəyirəm.

Həmçinin idman sahəsində əməkdaşlıqda yaxşı nəticələr var. İki ölkənin birgə səyləri sayəsində FIFA İcraiyyə Komitəsi 2027-ci ildə keçiriləcək futbol üzrə U-20 Dünya çempionatının final mərhələsini Azərbaycanda və Özbəkistanda təşkil etmək qərarına gəlib. Bu, Avropa ilə Asiyanı birləşdirəcək ortaq tarixi nailiyyətdir.

Media və qeyri-hökumət təşkilatları sahələrində əməkdaşlıq da məhsuldar inkişaf edir. 2024-cü il sentyabrın 23-dən 25-dək Daşkənddə Birinci Özbəkistan-Azərbaycan Media Forumu, 2025-ci il sentyabrın 29-da isə Bakıda İkinci Azərbaycan-Özbəkistan Media Forumu keçirilib. Bundan əlavə, 2024-cü ilin dekabr ayında Daşkənddə ilk dəfə Özbəkistan-Azərbaycan Qeyri-Hökumət Təşkilatları Forumu təşkil olunub.

Bütün bu tədbirlər və həyata keçirilən layihələr Azərbaycan ilə Özbəkistanın mədəni, humanitar sahələrdə güclü qardaşlıq münasibətlərini əyani şəkildə nümayiş etdirir, xalqlarımız arasında dostluğun möhkəmlənməsinə, mənəvi və mədəni qarşılıqlı əlaqələrin daha da inkişafına xidmət göstərir.

**– Cənab Prezident, sıx iş cədvəlinizdə bu məzmunlu müsahibəyə vaxt ayırdığınıza görə Sizə minnətdarıq.**

– Özbəkistan cəmiyyətinin həm Azərbaycan-Özbəkistan gündəliyində, həm də bütövlükdə regionda baş verən proseslərə artan marağını qeyd etməkdən çox məmnunam. Qoy, əsrlər boyu qardaş xalqlarımızı və ölkələrimizi birləşdirən dostluq və əməkdaşlıq əlaqələri daha da möhkəmlənsin.

# Prezident Administrasiyasının rəhbəri Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsini ictimaiyyətə təqdim edib



**Noyabrın 13-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi vəzifəsinə təyin olunmuş Ceyhun Ramiz oğlu Cəlilovu muxtar respublikanın ictimaiyyətinə təqdim edib.**

Tədbirdən əvvəl Naxçıvan şəhərində Ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyulub.

Təqdimat mərasimində çıxış edən Samir Nuriyev bildirib ki, Azərbaycan



Respublikasının Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasının sosial, iqtisadi və mədəni inkişafı məsələlərini daim diqqət mərkəzində saxlayır.

Ölkəmizdə aparılan quruculuq işlərinin tərkib hissəsi kimi Naxçıvanın inkişafı istiqamətində mühüm tədbirlərin həyata keçirildiyini qeyd edən Prezident Administrasiyasının rəhbəri "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın qəbul edildiyini, davamlı iqtisadi və sosial artıma nail olmaqla muxtar respublikanın inkişafının sürətləndirilməsinin və ölkə iqtisadiyyatına tam inteqrasiyasının əsas hədəf olduğunu qeyd edib.

Bildirilib ki, Dövlət Proqramının həyata keçirilməsinə dair Tədbirlər Planına uyğun olaraq əlverişli biznes mühitinin yaradılması, ticarətin, ixracyönümlü sənayenin, kənd təsərrüfatının, turizmin, infrastruktur təminatının, sosial sferanın, insan kapitalının və digər sahələrin inkişafı ilə bağlı qarşıda duran vəzifələrin vaxtında və keyfiyyətlə icrası üçün mövcud imkanlardan daha səmərəli istifadə olunmalı və bütün qüvvələr səfərbər edilməlidir.

Azərbaycan Prezidentinin noyabrın 12-də yeni təyinatlarla əlaqədar qəbulda səsləndirdiyi fikirlərə toxunan Prezident Administrasiyasının rəhbəri dövlətimizin başçısının xalqa xidməti, təvazökarlığı, vəzifə borcuna məsuliyyətli yanaşmanı əsas iş prinsipləri hesab etdiyini və hər bir məmurun öz fəaliyyətində bu prinsipləri rəhbər tutmalı olduğunu deyib.

Samir Nuriyev Azərbaycan Prezidentinin tapşırıq və tövsiyələrini muxtar respublikanın yeni rəhbərliyinə çatdıraraq dövlətimizin başçısının göstərdiyi etimadın doğruldulacağına ümid etdiyini bildirib.

Ceyhun Cəlilov yüksək etimada görə dövlətimizin başçısına dərin təşəkkürünü bildirib və göstərilmiş etimadı doğruldacağını qeyd edib.

*XQ*

# Rayon İcra Hakimiyyətinin başçılarının təqdimatı

## Göyçay





**Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Göyçay Rayon İcra Hakimiyyətinin başçısı təyin olunan Orxan Çingiz oğlu Mürsəlov bu gün Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev tərəfindən rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə kollektivə təqdim olunub.**

Təqdimatda çıxış edən Zeynal Nağdəliyev dövlətimizin başçısının tapşırıq və tövsiyələrini çatdırıb.

O.Mürsəlov ona göstərilən etimada görə minnətdarlıq edib.

## Kürdəmir

**Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı təyin olunan Elşən Nazim oğlu Həsənli bu gün Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev tərəfindən rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə kollektivə təqdim olunub.**

Təqdimatda Zeynal Nağdəliyev çıxış edərək dövlətimizin başçısının tapşırıq və tövsiyələrini çatdırıb.

E.Həsənli ona göstərilən etimada görə minnətdarlıq edib.





## Qax

**Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Qax Rayon İcra Hakimiyyətinin başçısı təyin olunan Elvin Nazim oğlu Paşayev noyabrın 13-də Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev tərəfindən rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə kollektivə təqdim olunub.**

Zeynal Nağdəliyev təqdimatda çıxış edərək, dövlətimizin başçısının tapşırıq və tövsiyələrini çatdırıb.

E.Paşayev ona göstərilən etimada görə minnətdarlıq edib.

*XQ*



# Pakistanın federal ombudsmanı XİN-də

**Noyabrın 13-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan Asiya Ombudsmanlar Assosiasiyasının prezidenti, Pakistanın federal ombudsmanı Ecaz Əhməd Qureşinlə görüşüb.**



Görüş zamanı Azərbaycan-Pakistan münasibətlərinin dostluq və qardaşlıq prinsipləri əsasında dinamik inkişafından məmnunluq ifadə edilib, dövlətlərarası strateji tərəfdaşlığın təşəkkülündə iki ölkənin liderləri arasında yüksəksəviyyəli təmasların müstəsna rolu vurğulanıb.

Azərbaycan ilə Pakistan arasında iqtisadi əməkdaşlıq və qarşılıqlı investisiyaların artan dinamikası qeyd olunub, bunun digər sahələrdə əlaqələrin inkişafına müsbət təsir göstərdiyi diqqətə çatdırılıb.

İki ölkənin Ombudsman aparatları arasında əməkdaşlığın öz növbəsində ikitərəfli münasibətlərimizin dərinləşdirilməsi və genişləndirilməsinə əlavə dəyər qatdığı bildirilib.

*XQ*

# İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin Bakı ofisi açılıb



**Noyabrın 13-də ABŞ-ın İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin Bakı ofisinin açılış mərasimi keçirilib.**



Mərasimdə ABŞ-ın İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin nümayəndə heyəti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov, Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov iştirak ediblər.

Mərasimdə "On İki Həvari Kvorumu"nun üzvü Deyvid Bednar, Yetmişlər Komitəsinin üzvü və Avropa Mərkəzi Ərazi İdarəsinin birinci məsləhətçisi Cek Gerard, Stirlinq Fondunun prezidenti və İdarə Heyətinin sədri Mayls Hansen, həmçinin Yetmişlər Komitəsinin Mərkəzi Avropa və Avrasiya üzrə kvorumunun üzvü Pol Pikard nümayəndə heyəti üzvü kimi iştirak ediblər.

Qeyd edək ki, İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsi 2024-cü il iyulun 10-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən Azərbaycanda rəsmi dövlət qeydiyyatına alınıb. İcmanın sədri Quliyeva Olqa Kimovnadır.

Mərasim zamanı kilsənin Bakı ofisinin açılması iki ölkə arasında dini əməkdaşlığın inkişafına, həmçinin Azərbaycanın multikultural dəyərlərinin və dini dözümlülüyünün təşviqinə töhfə verəcək əhəmiyyətli hadisə kimi qiymətləndirilib.

Xatırladaq ki, İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsi (Mormon kilsəsi) xristian köklərinə əsaslanan, lakin bəzi doktrinal xüsusiyyətlərinə görə ənənəvi xristian məzhəblərindən fərqlənən dini mərkəzdir.

*XQ*

# Azərbaycanın əqli mülkiyyət siyasəti örnək göstərilib

**Moskvada Rusiya Prezidenti yanında Xalq Təsərrüfatı və Dövlət İdarəçiliyi Akademiyasında "Rusiyanın dövlət idarəçiliyi üçün elm" mövzusunda II beynəlxalq konfrans keçirilib.**



Konfransda Avrasiya məkanında əqli mülkiyyətin dövlət idarəçiliyində rolu haqqında məruzələr edilib və Azərbaycan Respublikasının əqli mülkiyyət sahəsindəki dövlət siyasəti xüsusilə örnək göstərilib.

Tədbirdə çıxış edən Rusiya Federasiyasının Əməkdar hüquqşünası, birinci dərəcəli dövlət müşaviri, Əqli Mülkiyyət üzrə Federal Xidmətin (Rospatent) sabiq rəhbəri, hazırda Avrasiya Patent İdarəsinin prezidenti Qriqori İvliyev Azərbaycanın uğurlu təcrübəsindən yararlanmağı tövsiyə edib.

"Avrasiya məkanında əqli mülkiyyət məsələlərinin regional tənzimlənməsi" adlı məruzəsində o, Azərbaycan Respublikası nümunə göstərərək, 2018-ci ildə Azərbaycanda yaradılan Əqli Mülkiyyət Agentliyinin əqli mülkiyyətin bütün sahələrində uğurlu idarəetmə təcrübəsindən söz açıb. Qriqori İvliyev Azərbaycan Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovun nüfuzlu beynəlxalq "Promışlennaya sobstvennost" ("Sənaye mülkiyyəti") jurnalında dərc olunan "Müasir əqli mülkiyyət idarəsinin formalaşdırılması və fəaliyyəti haqqında" məqaləsinə istinad edərək bildirib ki, Azərbaycan dövlətinin başçısı İlham Əliyev tərəfindən həyata keçirilən genişmiqyaslı institusional islahatlar çərçivəsində əqli mülkiyyət fəaliyyətinin səmərəliliyini artırmaq və innovasiya prosesinə daxil etmək məqsədilə 2018-ci ildə ləğv olunan Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin nəzdindəki Patent mərkəzi ilə Müəllif Hüquqları Agentliyinin birləşdirilməsi nəticəsində Azərbaycan Əqli Mülkiyyət Agentliyi yaradılıb. Beləliklə, əqli mülkiyyətin hər iki qolunu idarə etmək üçün vahid qurum təsis olunub və bu, icra hakimiyyəti orqanlarına bərabər müstəqil status alıb.

*XQ*

# Prezidentin ədalət tələbi: Kadrlar etimadı doğrultmalıdır!

## *Xarici siyasətin gücü daxili siyasətin uğurundan qaynaqlanır*

**Azərbaycan dövləti üçün xarici siyasət kimi, daxili siyasət də son dərəcə önəmlidir. Bunu Prezident İlham Əliyevin noyabrın 12-də Naxçıvanda Prezidentin yeni səlahiyyətli nümayəndəsini və bir sıra rayonların icra hakimiyyətlərinə təyin olunan başçıları qəbul edərkən bildirdiyi fikirlər də təsdiqləyir. Deməli, ölkəmizin daxilindəki mənzərə xarici siyasətdəki uğur paradiqmasına adekvatlılığını qorumalıdır. Yəni heç bir halda imkan verilə bilməz ki, Cənubi Qafqazın lider dövlətinin nüfuzu daxildəki hansısa məmurun şəxsi hegemoniyasının əsirinə çevrilsin.**



Dövlətimizin başçısının ifadə etdiyi kimi, bu gün Azərbaycanın bölgələri canlanmaqdadır. Ancaq bu, yetərli deyil. Çünki rayon, qəsəbə və kəndlərimiz təkcə canlanmamalı, eyni zamanda, ən yüksək standartlara cavab verməlidirlər: "Son illər ərzində aparılmış işlər nəticəsində bölgələrin canlanmasını hər bir Azərbaycan vətəndaşı əyani şəkildə görür. Doqquz beynəlxalq hava limanı, yenilənmiş, təmir edilmiş və yeni çəkilmiş dəmir yolları, magistral avtomobil yolları, elektrik infrastrukturu, suvarma ilə bağlı, içməli su ilə bağlı olan layihələr, qazlaşdırma. Yəni, bütün bu işləri biz son illər ərzində görmüşük ki, insanlar daha yaxşı yaşasınlar".

Deməli, subyektiv yanaşma, fərdi planda meydana çıxan xarakter görülmüş işlərə, əldə edilmiş nailiyyətlərə zərər vurmamalıdır. Prezident İlham Əliyevin noyabrın 12-də vəzifəyə yeni təyin olunmuş şəxslərə verdiyi başlıca mesajlardan biri də bu idi. Bəs onlar necə işləməlidirlər, dövlətimizin başçısının buna dair yol xəritəsi mahiyyəti daşıyan konkret göstərişi var: "İnsanlara diqqət göstərmək, onların qayğıları ilə yaşamaq, daim onların arasında olmaq lazımdır. Bütün kəndləri bir-bir gəzib orada - kəndlərdə insanlarla təmasda olmaq. Yəni, mənim tələblərim bundan ibarətdir. Hər təyinatda icra başçısı olsun, digər rəhbər şəxs olsun, mənim təlimatlarım bundan ibarətdir".

Əlbəttə, zaman-zaman işinin öhdəsindən gələ bilməyən, müxtəlif yollarla şəxsi mənfəət hərisliyini ödəmək istəyən vəzifəlilər olub. Belələrinin yarıtmaz fəaliyyəti nəticəsində narazılıqları da eşitmiş və görmüşük. Onlar dövlət başçısının etimadını əməli iş müstəvisində dəyərləndirməyənlərdir. Prezident İlham Əliyevin isə durumu təsvir etməsindəki çalarlar məxsusidir. Bu o deməkdir ki, ölkəmizin lideri vəzifəyə təyin olunmuş hər bir şəxsin hərəkət və davranışından, fəaliyyətindən, yaxud fəaliyyətsizliyindən xəbərdardır. "Amma əfsuslar olsun ki, yenə də deyirəm, göstərdiyim etimada rəğmən bəzi məmurlar bu göstərişləri yerinə yetirmək əvəzinə, ancaq öz ciblərini güdərək qanunsuz varlanmaya üstünlük verirlər. Əminəm ki, bu yüksək etimadı siz öz işinizlə doğruldacaqsınız", - deyən Prezident İlham Əliyevin fikirləri, əslində, təkcə yeni vəzifəyə təyin olunmuş şəxslərə deyil, eyni zamanda, hazırda məsul vəzifə tutanlara ciddi siqnal olmalıdır.

Bəli, məmurların əsas vəzifəsi xalqa xidmətdir. Söhbət qüsursuz xidmətdən gedir. Bunun başlıca meyarı isə dövlət başçısının bütün tapşırıqlarını vaxtında və vicdanla yerinə yetirməkdir. Elə səviyyədə yerinə yetirmək ki, irad, yaxud iradlar olmasın: "Mən hər dəfə bölgələrə rəhbər vəzifələrə şəxsləri təyin edəndə verdiyim tapşırıqlar onlar üçün əsas iş prinsipləri olmalıdır – ilk növbədə, xalqa xidmət etmək, xalqla bir yerdə olmaq. Rəhbər vəzifədə çalışan hər bir şəxs, hər bir məmur təvazökar olmalıdır. Həyatda, məişətdə özü, onun yaxın qohumları özlərini elə aparmalıdırlar ki, bizim ümumi işimizə heç bir irad tutulmasın".

Beləliklə, məmurlar, yeni vəzifəyə təyin olunmuş şəxslər dövlətimizin başçısının tapşırıqlarını o səviyyədə icra etməlidirlər ki, yerlərdə həm görülmüş işlərə zərər gəlməsin, həm də insanlara həssas münasibət olsun. Əlbəttə, həssas münasibətin ən böyük göstəricisi bir yandan qoyulmuş tapşırıqları düzgün icra etməkdirsə, digər tərəfdən şəxsi xarakter amili də ön plandadır.

Prezident dövlət idarəçiliyindəki vəziyyətin neqativ təzahürləri barədə də məlumatlıdır. Ona görə verdiyi tapşırıqlar, eyni zamanda, xəbərdarlıq mahiyyəti daşımaqdadır: "Əfsuslar olsun ki, bəzi hallarda məmurlar özlərini cəmiyyətdə düzgün apara bilmirlər, ifrat dərəcədə təkəbbürlülük göstərirlər, özlərini hamıdan üstün tutmağa çalışırlar və beləliklə, həm öz nüfuzlarını itirirlər, eyni zamanda, dövlətimizə, dövlətin siyasətinə də ləkə vurmuş olurlar. Bununla bərabər, bəzi hallarda korrupsiyaya, rüşvətxorluğa düçar olurlar. Azərbaycan ictimaiyyəti yaxşı bilir ki, əyri yola gedən hər bir dövlət məmuru nəticədə məhkəmə, qanun qarşısında cavab verməli olur və belə hallar əfsuslar olsun ki, bu gün də var".

"Kadr islahatları labüddür, bu, qaçılmazdır. Çünki mən bunu demişəm, biz XXI əsrdə köhnə təfəkkürlə uğurlara imza ata bilmərik. Əlbəttə, yeni, savadlı, bilikli, müasir kadrlar, ilk növbədə, Vətənə bağlı olmalıdırlar, hər hansı bir xarici təsirdən azad olmalıdırlar və vətənpərvər olmalıdırlar ki, Vətənin inkişafı üçün öz səylərini göstərə bilsinlər". Bu fikirləri Prezident İlham Əliyev 2019-cu il oktyabrın 23-də Mikayıl Cabbarovu iqtisadiyyat naziri vəzifəsinə təyin olunması ilə əlaqədar qəbul edərkən bildirmişdi.

Dövlətimizin başçısı həmin ilin dekabrında yerli mediaya müsahibəsində də kadr islahatlarının zəruriliyinə dair düşüncələrini bölüşmüş və daha dərin mətləblərdən söz açmışdı: "Kadr və struktur islahatları, əslində, bir-birini tamamlayan islahatlardır. Bu, ümumi islahatlar siyasətinin təzahürüdür. İslahatlar müxtəlif dövrlərdə, müxtəlif templə və səmərə ilə həyata keçirilib. Keçənilki prezident seçkilərindən sonra mənim andiçmə mərasimimdəki çıxışımda islahatların yeni mərhələsi elan edildi və biz bu islahatları ardıcıl şəkildə reallaşdırmağa başladıq, o cümlədən kadr islahatları ilə bağlı olan məsələlər öz həllini tapdı. Yeni hökumətdə müasir dünyagörüşünə malik olan gənc, eyni zamanda, təcrübəli kadrlar təmsil olundular və biz onların rəhbərlik etdikləri sahələrdə islahatların artıq yaxşı nəticələrini görməyə başladıq. Builki sosial-iqtisadi göstəricilərin artımı onu göstərir ki, Prezident tərəfindən verilən tapşırıqlar yerinə yetirilir".

Əlbəttə, Prezident İlham Əliyevin kadr islahatlarına dair digər fikir və düşüncələri də var. Ancaq hazırda diqqət çəkən meyil idarəçilik üçün seçilmiş kadrların özlərinin kadr seçiminə nə dərəcədə həssas yanaşmalarıdır. Dövlətimizin başçısının noyabrın 12-dəki qəbul zamanı dilə gətirdiyi başlıca məqamlardan biri budur. Ölkəmizin lideri mövzuya baxışını əsaslandırarkən cəmiyyətdə artıq formalaşmış olan mühüm stereotipə diqqət çəkərək, insanların heç bir qanunsuz hərəkətin nəticəsiz qalmayacağına inamının olduğunu qabardıb: "Ona görə sizdən tələbim, eyni zamanda, xoşagəlməz hallara qarşı ciddi mübarizə aparmaq, kadr siyasətində etibarlı, peşəkar və mənəvi cəhətdən təmiz kadrları seçmək, rəhbərlik edəcəyiniz bölgələrdə öz işinizlə mənim seçimimin düzgün olduğunu sübut etməkdir. Əks təqdirdə, əlbəttə ki, lazımi ölçülər götürüləcək".

Prezident İlham Əliyevin də açıqladığı kimi, kadr və struktur islahatlarının başlıca hədəfi sosial ədalətdir. Sosial ədalətə nail olmaq, habelə onu qorumaq hər bir məmurun ümdə vəzifəsidir. "Hər bir bölgədə, hər bir kənddə insanlar görməlidir və bilməlidir ki, ədalət hər zaman üstünlük təşkil edir", - deyən dövlətimizin başçısı yeni təyin etdiyi şəxslər qarşısında yerlərdə mövcud olan, insanları narahat edən məsələlərin həlli tapşırığını qoyduğunu da vurğulayıb. Deməli, qalır tapşırıqları düzgün və qüsursuz şəkildə icra etmək. Elə icra etmək ki, insanlarda, vətəndaşlarda Azərbaycan dövlətinin ədalətinə olan inam hissi sarsılmasın. İnam isə son dərəcə önəmlidir. Nəzərə alaq ki, vətəndaş inamı hər bir dövləti ayaqda saxlayan, ən əsası beynəlxalq arenada da güclü tutan son dərəcə müstəsna amildir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Geosiyasi strategiya və yeni diplomatik tələblər

**Azərbaycan Prezidenti İlham Əliyevin "Donald Tramp prezident seçildən sonra Azərbaycan–ABŞ münasibətləri yeni mərhələyə keçib" bəyanatının arxasında beynəlxalq münasibətlər sistemində dəyişən geosiyasi düzən, Ağ Evin Cənubi Qafqaza baxışındakı transformasiya və Azərbaycanın çoxvektorlu diplomatiyasının yetişmiş mərhələsi dayanır.**

Azərbaycan–ABŞ münasibətləri tarixən dalğavari inkişaf edib: 1990-cı illərin əvvəllərində formalaşan, bəzən soyuqluq, bəzən yaxınlaşma mərhələləri ilə müşayiət olunan bu münasibətlər yeni məzmun kəsb etməyə başladı. Donald Tramp administrasiyası dövründə baş verən dəyişikliklər münasibətlərin xarakterini ideoloji təsirdən çıxararaq praqmatik maraqların sintezinə yönəltdi. Əgər əvvəlki onilliklərdə ABŞ Cənubi Qafqaza daha çox demokratiya, insan haqları və siyasi islahat prizmasından baxırdısa, Tramp dövründə bu yanaşma tədricən iqtisadi və təhlükəsizlik əsaslı realizmə keçdi. Dəyişiklik təkcə ABŞ siyasətinin təzahürü deyildi. Azərbaycan artıq həmin dövrdə regionun aparıcı enerji, təhlükəsizlik və nəqliyyat mərkəzinə çevrilmişdi. Bakı balanslı və proaktiv diplomatiya ilə Qərb və Şərq, Rusiya və ABŞ, region və qlobal aktorlar arasında sabit körpü rolunu möhkəmləndirirdi. Belə bir reallıqda Vaşinqtonun Bakı ilə münasibətlərə baxışı obyektiv şəkildə dəyişdi: Azərbaycan sabitlik və əməkdaşlıq üçün zəruri tərəfdaşa çevrildi.



Mərhələnin "yeni" adlandırılması, əslində, siyasi kursun dəyişməsi ilə deyil, keyfiyyətcə fərqli strateji bərabərlik modelinin formalaşması ilə bağlıdır. Əgər 1990-cı illərin ortalarında Bakı ilə Vaşinqton arasında əsas körpü enerji diplomatiyası idisə, Tramp dövründə bu münasibətlər artıq təhlükəsizlik, regional sabitlik və çoxtərəfli əməkdaşlıq aspektləri ilə zənginləşdi. Azərbaycanın artan geosiyasi çəkisi, enerji dəhlizlərindəki rolu və balanslaşdırılmış xarici siyasəti ABŞ üçün regiondakı strateji balansın saxlanması baxımından əvəzolunmaz amilə çevrildi.

* * *

Azərbaycan–ABŞ münasibətlərinin bugünkü dinamikasını anlamaq üçün bu əlaqələrin başlanğıc mərhələsinə qayıtmaq vacibdir. 1991-ci ildə müstəqilliyini yenidən bərpa etmiş Azərbaycan beynəlxalq sistemdə hələ formalaşmamış statusa malik idi. Məhz bu dövrdə ABŞ-ın Azərbaycan siyasəti ziddiyyətli və birmənalı olmayan xəttlə xarakterizə olunurdu. Vaşinqton postsovet məkanında demokratik keçidi dəstəklədiyini bəyan etsə də, konkret addımlar regionun real geosiyasi balansına uyğun gəlmirdi. Bunun ən bariz nümunəsi 1992-ci ildə qəbul edilmiş "Azadlığa Dəstək Aktı"na əlavə kimi daxil edilən 907-ci düzəliş idi.

907-ci düzəliş mahiyyətcə ABŞ hökumətinə postsovet ölkələrinə yardım göstərməyi nəzərdə tutan qanunun məhz Azərbaycana tətbiqini qadağan edirdi. Formal əsas kimi Azərbaycanın "Ermənistana qarşı blokada və güc tətbiq etməsi" iddiası göstərilirdi. Amma bu hüquqi qərarın arxasında o dövrün ABŞ Konqresində güclü erməni diasporunun təsiri və regiondakı geosiyasi qütbləşməyə əsaslanan maraqlar dayanırdı. 907-ci düzəliş, faktiki olaraq, Azərbaycanın müstəqilliyinin ilk illərində Qərb ilə institusional əməkdaşlıq imkanlarını məhdudlaşdırdı və ABŞ–Azərbaycan münasibətlərinin psixoloji təməlinə uzunmüddətli etimad problemi yerləşdirdi.

Amma, eyni zamanda, bu hadisə Azərbaycan üçün mühüm siyasi dərs oldu. Bakı xarici siyasətdə emosional reaksiyalardan uzaq duraraq, rasional maraq əsasında çoxvektorlu yanaşmanı formalaşdırmağa başladı. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" bu yeni strategiyanın konkret təzahürü idi: ABŞ şirkətləri (xüsusən "Amoco", "Unocal", "Pennzoil") Xəzər hövzəsinin enerji resurslarında iştirak etməklə, Vaşinqtonun iqtisadi maraqlarını regiona qaytardı.

Beləliklə, paradoksal situasiya yarandı: bir tərəfdən, ABŞ-ın siyasi məhdudiyyətləri davam edirdi; digər tərəfdən, iqtisadi və enerji sahəsində əməkdaşlıq dərinləşirdi. 907-ci düzəlişin simvolik yükü uzun illər münasibətlərin üzərində qaldı. O, həm də ABŞ-ın region siyasətindəki ikili standartların göstəricisi kimi qəbul olundu. Yalnız



2002-ci ildə, 11 Sentyabr hadisələrindən sonra ABŞ-ın terrora qarşı qlobal mübarizə çərçivəsində Azərbaycanla əməkdaşlığın vacibliyini anlaması bu düzəlişin faktiki tətbiqini dayandırdı.

Tarixi retrospektdə bu qərar həm də Azərbaycanın gələcək diplomatik davranışını müəyyənləşdirdi. Bakı başa düşdü ki, beynəlxalq münasibətlərdə ədalət deyil, maraqlar sistemi işləyir. Elə buna görə də Azərbaycan 2000-ci illərdən etibarən öz xarici siyasətini "balanslaşdırılmış realizm" üzərində qurdu: bir tərəfdən Qərblə əməkdaşlıq, digər tərəfdən isə region gücləri ilə qarşılıqlı asılılıq siyasəti. 907-ci düzəlişin siyasi yükü bu gün artıq tarixi sənəd kimi qalır, amma onun yaratdığı təcrübə müasir Azərbaycan diplomatiyasının formalaşmasında dərin iz buraxıb. Prezident İlham Əliyevin "yeni mərhələ" ifadəsini işlədərkən vurğuladığı məhz bu təcrübənin aşılması, tarixi ədalətsizliyin yerini bərabərhüquqlu tərəfdaşlığın almasıdır.

* * *

2024-cü ildə Donald Trampın yenidən ABŞ prezidenti seçilməsi beynəlxalq münasibətlər sistemində yeni realist istiqamətin möhkəmlənməsi baxımından dönüş nöqtəsi oldu. Onun ilk administrasiyası dövründə ABŞ xarici siyasətində "Amerika maraqları hər şeydən öncə" prinsipi dominant idi, lakin ikinci dönəmdə bu siyasət daha sistemli və məqsədyönlü formaya keçdi. Əgər əvvəlki mərhələdə Tramp qlobal öhdəliklərin azaldılmasına və ABŞ-ın xarici müdaxilələrinin minimuma endirilməsinə üstünlük verirdisə, 2024-cü ildən sonra bu yanaşma qarşılıqlı fayda və bərabərhüquqlu tərəfdaşlıq üzərində qurulmağa başladı. Məhz bu kontekstdə Azərbaycan–ABŞ münasibətləri ikinci nəfəsini aldı. Cənubi Qafqaz artıq Vaşinqton üçün Avrasiya güc balansının formalaşdığı əsas məkana çevrilmişdi. Çin və Rusiya arasında rəqabətin dərinləşdiyi, Avropa İttifaqının enerji təhlükəsizliyi baxımından daha çox "alternativ marşrutlara" yönəldiyi bir mərhələdə Bakı Vaşinqtonun regional siyasətində strateji tərəfdaş statusunu praktik məzmunla doldurmağa başladı.

Tramp administrasiyası üçün Azərbaycan həm sabitlik amili, həm də Cənubi Qafqazda praqmatik siyasətin nümunəsi idi. 2020-ci il müharibəsindən sonra regionda yaranan yeni geosiyasi reallıqlar ABŞ-ın maraq xəritəsini dəyişdirdi. Vaşinqton bu dəfə birbaşa vasitəçilikdən çox, "sabitləşdirici təsir mexanizmləri" vasitəsilə proseslərə təsir etməyə üstünlük verdi. Həmin model Azərbaycana öz balanslı və çoxvektorlu diplomatiyasını daha rahat şəkildə həyata keçirməyə imkan yaratdı. Bakı nə Moskva ilə, nə də Qərb strukturları ilə münasibətləri ziddiyyətə gətirmədən, hər iki istiqamətdə əməkdaşlığı dərinləşdirdi.

Tramp administrasiyası dövründə münasibətlərin yeni dinamikası xüsusilə enerji və texnoloji əməkdaşlıq sahəsində özünü göstərdi. ABŞ şirkətləri Azərbaycanın bərpa-olunan enerji layihələrində – xüsusilə Xəzər dənizində külək enerjisi və yaşıl hidrogen təşəbbüslərində – daha aktiv şəkildə iştirak etməyə başladılar. Bununla yanaşı, rəqəmsal infrastruktur, kibertəhlükəsizlik və süni intellekt kimi istiqamətlərdə əməkdaşlıq diplomatik əlaqələrə yeni strateji məna verdi.

* * *

2020-ci il müharibəsindən sonra Cənubi Qafqazda yaranan yeni status-kvo uzun illərdən bəri davam edən geosiyasi tənasübü köklü şəkildə dəyişdi. Ermənistanın işğal siyasətinə son qoyulması və regionda yeni nəqliyyat-kommunikasiya dəhlizlərinin gündəmə gəlməsi təkcə regional tarazlığa deyil, həm də qlobal aktorların maraqlar xəritəsinə təsir göstərdi.

Vaşinqton xüsusilə 2024-cü ildən sonra Cənubi Qafqazda məhz bu praqmatik xətti seçdi. ABŞ artıq regionda "tənzimləyici" deyil, "təmas yaradan" aktor rolunda çıxış etməyə başladı. Bu modelin ən bariz təzahürü 8 avqustda Vaşinqtonda Azərbaycan və Ermənistan sülh sazişinin paraflanması idi. Prezident İlham Əliyevin həmin razılaşmaları "tarixi əhəmiyyətli" adlandırması, əslində, diplomatik prosesin məntiqini tam şəkildə ifadə edirdi: ABŞ-ın vasitəçiliyi bu dəfə qarşılıqlı maraqları uzlaşdıran platforma rolunu oynayırdı. Vaşinqton formatında aparılan danışıqlar Azərbaycanın mövqelərinin beynəlxalq legitimliyini daha da gücləndirdi. Vaşinqton görüşləri həm də diplomatiyada yeni ünsiyyət üslubunun yaranmasına təkan verdi. Əvvəllər regionla bağlı müzakirələrdə ABŞ daha çox "demokratik dəyərlər və insan haqları" kimi normativ aspektləri önə çıxarırdı. İndi isə diqqət konkret reallıqlara – enerji təhlükəsizliyinə, nəqliyyat xətlərinə, texnoloji inteqrasiyaya və sülh prosesinin davamlılığına yönəlib.

Əslində, Vaşinqton formatı ilə əldə edilən nəticələr bir sualı da ortaya çıxarır: ABŞ-ın vasitəçiliyi bu dəfə hansı məqsədə xidmət edir – Qafqazda yeni nizamın formalaşdırılmasına, yoxsa balanslı güc bölgüsünə? Cavab birmənalı deyil, amma bir fakt dəyişməzdir – Azərbaycan bu dəfə diplomatik gündəmi formalaşdıran əsas subyektlərdən biridir.

Beləliklə, bu gün Azərbaycan–ABŞ münasibətləri təkcə yeni dostluğun başlanğıcı deyil, keçmiş ziddiyyətlərin də xülasəsi deyil. Onlar qarşılıqlı hörmət, strateji rasional və uzunmüddətli perspektiv üzərində formalaşmış möhkəm tərəfdaşlıqdır. Əgər 1990-cı illərdə sual "Azərbaycan ABŞ üçün nə qədər önəmlidir?" idisə, indi ssenari dəyişib: ABŞ Cənubi Qafqazda balansı və enerji təhlükəsizliyini Azərbaycanın iştirakı olmadan qoruya ilməz – Bakı olmadan bu mənzərə tamamlanmaz.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Qalibiyyət şərəfinə paradda Prezidentin strateji mesajları



## II MƏQALƏ

### Qələbədən sonrakı seçim

Liderin hərb meydanında qələbədən sonra hansı siyasi kursu seçməsi dünya tarixində həmişə prinsipial an olmuşdur. Əsrlərin təcrübəsi göstərir ki, faktiki olaraq dövlətin və ölkənin taleyi qalib liderin seçimindən birbaşa asılıdır. Məsələ hətta müharibədən sonra dağıntıları aradan qaldırmaq və geniş quruculuq işlərini aparmaqla bağlı deyildir. Əsas məsələ liderin hansı strateji mahiyyətli paradiqmaya üstünlük verməsi ilə bağlıdır. Fəlsəfə və politologiyanın, sosiologiya, kulturologiya və psixologiyanın dərin biliciləri liderin qələbədən sonrakı seçiminin dövlət üçün həlledici dönüş nöqtəsi olduğuna əminlik ifadə etmişlər.

Bu seçim zamanı başlıca psixoloji məqam liderin qalibiyyəti hərb, yaxud sülh yolu ilə davam etmk niyyətinə düşməsi ilə bağlıdır. Ayrıca, sülh yolunu seçməyin böyük məsuliyyət olduğunu dərk etmək gərəkdir. 5-ci Qələbə Paradında izlədiyimiz hərbi-texniki nailiyyətlərlə yanaşı, tədbirin “ruhani dinamikası” bu baxımdan fövqəl vacib məqamdır. Fikrin aydınlaşması üçün Prezident İlham Əliyevin nitqindən iki fraqmentin mənaca müqayisələrinə baxaq.

### Təcavüzkarların niyyəti

Prezident İlham Əliyev nitqi zamanı belə bir fikir söyləmişdir: “Ermənistanın arxasında duran bəzi dövlətlər isə onlara siyasi, iqtisadi və hərbi dəstək göstərərək onlarla həmrəy idi. Onların fikri əzəli Qarabağ torpağımızı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək idi”.

Bu cümlələrin fəlsəfəsinin çox güclü tərəfi, ümumiyyətlə, “Ermənistan məsələsi”nin mahiyyətinin yığcam açılması ilə bağlıdır. İlham Əliyev Azərbaycana dost olmaq istəməyən dairələrin düşüncədəki niyyətlərinin şər qüvvəyə dəstəyinin daxili semantik xüsusiyyətlərə proyeksiya etmələrini (erməni təcavüzkarlarla həmrəyliyin psixoloji artefaktdan intellekt faktına keçid) və onu feili dəstəkdə məqsəd səviyyəsinə yüksəltmələrini (Azərbaycandan əzəli Qarabağ torpağının qoparılması) son məqsədləri kontekstində dəqiq ifadə etmişdir. Son məqsəd artıq siyasi və geosiyasi müstəvidə reallaşmalı olan konkret “təcavüzkar prosesdir” - qonşu dövlətin əzəli torpağını qondarma Ermənistana birləşdirmək!

Bu üç aspektin sinxron olaraq həyata keçməsi üçün qarşı tərəfin hansı mexanizmləri işə saldığını da dövlət başçısı dəqiq göstərmişdir: bəzi dövlətlər erməni təcavüzkarlığına siyasi, iqtisadi və hərbi dəstək göstərmişlər.

Cəmi iki cümlədə dərin məna yükünün olması, əlbəttə, məharətli diplomatik nitq mədəniyyəti tələb edir.

### Qalib tərəfin siyasəti və mənəviyyatı

Bu fikirlərin fonunda Azərbaycan liderinin Bakının seçimi ilə bağlı ifadə etdikləri son dərəcə maraqlıdır. İlham Əliyev fikirlərinə davam edərək nitqində vurğulamışdır: “Bizim isə siyasətimiz ərazi bütövlüyümüzü, suverenliyimizi tam bərpa etməkdən ibarət idi. Hələ 2003-cü ildə ilk dəfə Azərbaycan Prezidenti vəzifəsinə seçiləndə mən bəyan etmişdim ki, nəyin bahasına olursa-olsun biz öz doğma torpaqlarımızı azad edəcəyik. Biz güc toplayırdıq və aydan-aya, ildən-ilə gücümüz artırdı”.

Bu fikirlərin semantikası tərkibində “ikinci qat” beynəlxalq münasibətlər səviyyəsinə aiddir. Dövət başçısı fikirlərinə davam edir: “Biz beynəlxalq arenada öz səsimizi ucalda bildik. Bütün aparıcı beynəlxalq təşkilatlarda ölkəmizin münaqişə ilə bağlı mövqeyi üstünlük təşkil edirdi. Bir çox qərar və qətnamələr bizim Zəfərimizin hüquqi və siyasi əsasını təşkil edirdi”.

Diqqət edək: birinci qism fikirlərdə Azərbaycan Prezidenti qarşıya qoyduğu məqsədi açıq ifdə edir: torpaqlar azad olmalıdır (Ulu öndərin müəyyən etdiyi milli ideyanın başlıca mənası). Buna nail olmağın hüquqi və siyasi əsasının yaradılması isə daxili güclənmə ilə yanaşı, mütləq surətdə beynəlxalq miqyasda müsbət nəticə verən fəaliyyət sistemi ilə bağlıdır. Və bu məqamdan sonuncu “semantik qata” çox maraqlı keçid vardır. İlham Əliyev özünəxas diplomatik konseptual manevrlə fikrini yekunlaşdırır. Ölkə rəhbəri ifadə edir: “Biz güclü iqtisadiyyat qurmuşduq. Əgər bunu etməsəydik, bizim maliyyə imkanlarımız çox məhdud idi. Biz iqtisadi müstəqillik qazanmışdıq və bu gün Azərbaycan iqtisadi cəhətdən heç bir ölkədən asılı deyil. Bu, bizə daha böyük siyasi güc verirdi. Biz müstəqil siyasət aparan ölkə idik. Bu amillər digər amillərlə bərabər bizi şanlı Zəfərə yaxınlaşdırırdı”.

### Müstəqillik fəlsəfəsindən bir “yarpaq”

İlk və səthi baxışdan Prezidentin beynəlxalq münasibətlər səviyyəsindən niyə daxili iqtisadi güc faktoruna keçməsinin məntiqi və məqsədi dərk edilməyə bilər. Ancaq diqqətlə həmin keçidin daxili məntiqi xüsusiyyətinə baxanda tamamilə başqa mənzərə yaranır. Aydın olur ki, Azərbaycan lideri müstəqil siyasət yeritmənin əsas dayaq faktorunu ifadə etmişdir. Çünki istənilən dövlət lazımi səviyyədə iqtisadi gücə malik olmasa, həmin gücü müstəqil təmin etməyin qalıcı mexanizmlərini müəyyən etməsə, real müstəqil siyasət yeridə bilməz. Və deməli, həqiqi suveren ola bilməz, o cümlədən ərazi bütövlüyünü bərpa etməsinin gerçək hüquqi və siyasi təməlini hazırlaya bilməz!

Bunlar məntiqi aspektdə irəli sürülən tezislərin nəzəri əsaslandırmalarıdırsa, postmüharibə mərhələsində siyasi kursun fəlsəfəsi baxımından dəqiq sistemləşdirilmiş xəttin bir fraqmentidir. Həmin fraqment “müstəqil dövlət” anlayışının bütövlükdə açılışına aiddir.

### Paradın siyasi dalğası

Yuxarıda ifadə edilən tezislərin işığında Qələbənin 5-ci ildönümünə həsr olunmuş paradın hərbi ilə yanaşı, siyasi gücü haqqında fikir yürütmək mümkündür. Ancaq həmin siyasi gücü bütövlükdə son 5 ildə dövlət başçısının həyata keçirdiyi siyasi kursun başlıca müddəaları fonunda adekvat anlamı əsasında dərk etmək olar. Bu məqamın izahı yuxarıda Prezidentin nitqində yer almış iki tezisin müqayisəsi sayəsində maraqlıdır.

Birincisi, Azərbaycan 30 ildən çox müddətdə daim Ermənistanın havadarlarının müxtəlif qərəzli və hiyləgər planları, rəsmi İrəvanın bundan ruhlanaraq heç bir beynəlxalq hüquq normalarına əməl etməməsi ilə mübarizə aparmışdır. Ermənistanın təcavüzkarlığının bu aspekti Azərbaycanın xarici siyasəti vasitəsi ilə neytrallaşdırılmışdır. Bununla da Azərbaycan II Qarabağ müharibəsində belə qərəz, böhtan və təcavüzlə üz-üzə olmuşdur.

Postmüharibə mərhələsində əks tərəf bu mövqeyindən əl çəkməmişdir. Yəni hərb meydanındakı məğlubiyyətdən rəsmi İrəvan və havadarları yenə də savaş strategiyasını seçmişlər. Bu, məğlub tərəfin müharibə paradiqması “quyusu”ndan çıxa bilməməsinin konkret ifadəsidir.

İkincisi, rəqibin yenə müharibə psixologiyası ilə yaşamasına Azərbaycan dövləti emosional reaksiya verməmişdir. Prezident İlham Əliyevin fikirləri göstərir ki, rəsmi Bakı yenə də təcavüzkarı sülh naminə cilovlamağa üstünlük vermişdir. Buna görə də postmüharibə mərhələsində həm müdafiə qüdrətini, həm də xarici siyasətin prioritetlərini kimlərə qarşısa aqressiya üçün deyil, sülhü təmin etmək üçün səfərbər etmişdir. Paradda nümayiş etdirilən ən yeni hərbi texnika və güclü ordu nizamı məhz bunun siyasi əlamətidir. Hərbi gücdən siyasi gücə keçiddə sülhün başlıca yer tutmasının Azərbaycan nümunəsidir.

Parad göstərdi ki, Azərbaycan 5 illik postmüharibə mərhələsində ciddiyyət və dəqiqliklə hərbi potensialın artırılmasını regional miqyasda sülhün təmini istiqamətində qiymətləndirmiş və heç bir dövlətə qarşı aqressiya formalaşdırmamışdır. Əksinə, böyük hərbi güc nümayiş etdirməklə regionda kimsənin sabitliyi və əməkdaşlıq tendensiyasını poza bilməyəcəyinin işarəsini vermişdir. Azərbaycanın paraddakı hərbi potensialının möhtəşəmliyi məhz regionda sülh naminə müstəqil dövlətin atdığı addımların əyani təsdiqidir!

Eyni zamanda, parad iki mühüm istiqamətdə dünyaya rəsmi Bakının mesajını vermişdir.

### Xalqın liderə möhtəşəm dəstəyi

Parada on minlərlə vətəndaşın axın etməsi və hərbi texnikaları maraqla izləmələri çox məqamdan xəbər verir. Xarici KİV bu cəhətə ayrıca diqqət yetirmişdir. Onlar bu marağı bütövlükdə Azərbaycan xalqının dövlət başçısının siyasətinə dəstəyi kimi qiymətləndirirlər. Bu anlamda parad bir daha “dəmir yumruğun” qaldığını göstərmişdir. Cəmiyyət ordusunu çox sevir və onun qüdrətinə bələddir. Xalqın orduya inamının yüksək səviyyədə olması ciddi siyasi mesajdır. Buna görədir ki, dünyanın qüdrətli dövlətlərindən olan ABŞ prezidenti “Azərbaycan ordusu çox güclüdür” demişdir.

Bu ordu faktiki olaraq regionun ən güclüsüdür. Azərbaycan ordusu regional miqyasda qarşıya qoyulan istənilən vəzifənin öhdəsindən uğurla gələ bilər.

Bu gerçəklik regional geosiyasətə yeni istiqamət verir. Təhlükəsizliyin təminində yeni güc balansının meydana gəldiyini göstərir. Buradan tamamilə məntiqi bir nəticə çıxarmaq olar. Azərbaycan regional miqyasda geosiyasi arxitekturanın formalaşmasının aparıcı faktorudur. Bu da getdikcə tam aydın məzmun alacaq yeni geosiyasi konfiqurasiyanın meydana gəlməsi prosesinin növbəti mərhələyə qədəm qoyması deməkdir. Həmin kontekstdə ikinci mühüm istiqaməti vurğulamaq gərəkdir.

### Müttəfiqlik fəlsəfəsinin “5-ci səhifəsi”

Qələbənin 5-ci ildönümünə həsr olunmuş paradın mühüm siyasi mesajlarından biri Azərbaycanın müttəfiqlikdə çox uğurlu bir mərhələyə gəldiyinin nümayişi oldu. Bu müttəfiqliyin təməli II Qarabağ müharibəsində qoyulmuşdur. Həmin dövrdə Türkiyə və Pakistan Azərbaycana siyasi və mənəvi dəstək vermişdir. Keçən beş il müddətində dövlətlər arasında əlaqələr ciddi siyasi-hüquqi və geosiyasi forma almışdır. Azərbaycan öncə Türkiyə ilə Şuşa Bəyannaməsini imzalayaraq münasibətləri strateji müttəfiqlik səviyyəsində hüquqi təsbit etmişdir. 2025-ci ildə isə Laçında – Azərbaycan-Türkiyə-Pakistan strateji müttəfiqlik hüquqi təsbitini tapmışdır.

Bu baxımdan 2025-ci ilin may ayında Laçında keçirilən üçtərəfli görüş zamanı Türkiyə Prezidentinin ifadə etdiyi aşağıdakı fikirlər əlamətdardır. R.T.Ərdoğan demişdir: “Türkiyə, Azərbaycan və Pakistan olaraq, mütəmadi üçtərəfli Zirvə görüşləri və nazirlər səviyyəsində toplantılar təşkil etməklə əməkdaşlığımızı institusional səviyyəyə çatdıracağıq. Müdafiə sahəsində əməkdaşlığımızı dərinləşdirib terrorla mübarizə və transsərhəd təhdidlərə qarşı ortaq qətiyyətimizi davam etdirəcəyik. Ticarətin asanlaşdırılması, investisiyaların təşviqi və rəqəmsal transformasiya sahələrində müştərək addımlar atmağı hədəfləyirik”.

Məntiqi olaraq belə alınır ki, 2025-ci ildə Bakıda keçirilən hərbi parad faktiki olaraq Vətən müharibəsindən başlayan müttəfiqlik fəlsəfəsinin “5-ci səhifəsi”ni yazmışdır! Bu “səhifədə” Azərbaycan Prezidentinin, dövlətinin, xalqının və ordusunun şanı-şöhrəti ayrıca yer tutur! Azərbaycanın Türkiyə və Pakistan kimi iki güclü qardaş dövlətlə müttəfiqliyi isə əbədidir! Sonrakı paradlarımız yeni-yeni zirvələrə, qardaşlığa, dostluğa və qələbələrə aparacaqdır!

*(ardı var)*

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

---

**Ermənistan və Azərbaycan arasında sərhədlərin müəyyənləşdirilməsi istiqamətində proses yeni mərhələyə qədəm qoyur. İki ölkə arasında sərhədlərin demarkasiyası təkcə texniki məsələ deyil, regionun gələcək siyasi sabitliyinin, iqtisadi inkişafının və uzunmüddətli sülhün açarıdır. Son aylar bu istiqamətdə intensivləşən ikitərəfli danışıqlar, qarşılıqlı diplomatik təmaslar və “Tramp marşrutu” (TRIPP) kimi yeni regional infrastruktur layihəsinin gündəmə gəlməsi regionda yeni reallığın formalaşdığını göstərir. Bu, Ermənistan baş nazirinin müavini və delimitasiya komissiyasının sədri Mger Qriqoryanın parlamentdə keçirilən “Hökumət saatı”ndakı çıxışında da aydın görünür. O bildirib ki, Sünik bölgəsində (Zəngəzur) bəzi sahələrin növbədənkənar delimitasiyası planlaşdırılır və bu addım “Tramp marşrutu” layihəsinin reallaşdırılması üçün vacibdir: “Layihə-smeta işlərinə başlamaq üçün bizə işlək baza lazımdır. Ola bilsin ki, TRIPP layihəsinin inkişafı üçün növbədənkənar delimitasiya sahələri müəyyən edilsin”.**

# Delimitasiya sülhə aparan yoldur





Beləliklə, 8 avqust Vaşinqton Sammitindən sonra Azərbaycan və Ermənistan arasında demarkasiya prosesini davam etdirmək üçün qarşılıqlı stimul yaranıb, müzakirələr konkretləşib. Hazırda infrastrukturun hansı mövqedə olacağı, buna uyğun olaraq hansı sahələrin delimitasiya ediləcəyi və bu yöndə işlərin başlanması üçün hansı bazanın yaradılacağı müzakirə olunur. Növbədənkənar delimitasiya sahələrinin müəyyənləşdirilməsinin “Tramp marşrutu” layihəsinin infrastruktur inkişafına təkan verəcəyi şübhəsizdir. Bu, həm də marşrutun Ermənistan ərazisindən keçən hissəsinin tikintisini sürətləndirəcək. Artıq bununla bağlı müsbət xəbərlər gəlməkdədir. Baş nazir Nikol Paşinyan parlamentdəki çıxışında deyib ki, ilin sonuna qədər plan tərtib ediləcək və orada layihənin bütün təfərrüatları təsvir ediləcək: “Bunlar 2026-cı ilin birinci yarısında təsdiqlənəcək. “Tramp marşrutu”nun (TRIPP) tikintisi 2026-cı ilin ikinci yarısında başlanacaq”. Göründüyü kimi, Vaşinqton Sammitindən sonra regionda infrastrukturun qurulması sülhə aparan yolun təminatçısına çevrilir.

Mövzu ilə bağlı **politoloq Yeganə Hacıyeva** XQ-yə bildirdi ki, sərhədin delimitasiyası dövlət ərazisinin müəyyənləşdirilməsi və möhkəmləndirilməsinin əsas mərhələlərindən biridir: “Bu, milli və regional təhlükəsizlik, siyasi sabitlik və qonşu dövlətlərin davamlı inkişafına birbaşa təsir göstərir. Ərazi suverenliyini müəyyən edən proses konkret ərazi üzərində suverenliyi təsdiqləyir və bu, gələcək mübahisələri aradan qaldırır. Həmçinin ticarət, miqrasiya, sərhəd rejimi və təbii ehtiyatlardan istifadə kimi sahələrdə hüquqi baza yaradır.

Delimitasiya birbaşa sülh müqaviləsinin yerinə keçməsə də, onun üçün praktik zəmin yaradır. Dəqiq sərhədlər hərbi insidentlərin qarşısını almağa, sərhəd xəttində yerləşən yaşayış məntəqələrinin təhlükəsizliyini təmin etməyə və infrastruktur layihələrinin icrasına şərait yaratmağa imkan verir. Şərti sərhəd adlandırdığımız qeyri-müəyyən və ya mübahisəli sərhəd isə gərginliyin əsas mənbəyi olur, ərazi iddiaları və silahlı təxribatlara əsas verir.

Əminəm ki, regional təhlükəsizliyin möhkəmləndirilməsi məqsədilə həyata keçirilən proses proqnozlaşdırıla bilən və etibarlı münasibətlər formalaşdıracaq. Eləcə də iki ölkə arasında sərhəd mühafizəsi, terrorizm, qaçaqmalçılıq və qeyri-qanuni miqrasiyaya qarşı əməkdaşlığı gücləndirəcək”.

Politoloqun sözlərinə görə, delimitasiya həm də qarşılıqlı etimadın bərpası deməkdir: “Etimad olmadan sülh müqaviləsi yalnız formal sənəd olaraq qalır. Sərhədlərin dəqiq müəyyənləşdirilməsi, diplomatik və inzibati əməkdaşlığın güclənməsi sülhü reallığa çevirir. Ermənistan və Azərbaycan bu prosesi qarşılıqlı anlayış və praqmatizm çərçivəsində davam etdirərsə, Cənubi Qafqaz uzun illərin gərginliyindən sonra sabitliyin və əməkdaşlığın məkanına çevrilə bilər.

Onu da deyim ki, sülh təkcə sənəd üzərində imzalanmır. O, konkret addımlarla, iqtisadi əlaqələrlə və sərhədlərin aydınlaşdırılması ilə möhkəmlənir. Delimitasiya və “Tramp marşrutu” bu baxımdan sülhə gedən yolun başlanğıcıdır. Bu yol bəzən mürəkkəb, bəzən dolanbac ola bilər, amma sonunda Cənubi Qafqaz üçün yeni bir reallıq – sabitlik, əməkdaşlıq və rifah dövrü dayanır. Bu proses yalnız gərginliyin və münaqişələrin qarşısını almağa deyil, eyni zamanda, regionun geosiyasi və geoiqtisadi gələcəyinin formalaşmasına, tranzit yolların təhlükəsizliyinin təmin olunmasına, sərmayələrin artmasına və iqtisadi əlaqələrin genişlənməsinə töhfə verir. Sərhədlərin delimitasiyası və “Tramp marşrutu”nun reallaşması istiqamətində atılan addımlar da bu məqsədə xidmət edir. Ən başlıcası, bu proses uzun illər pozulmuş beynəlxalq hüququn və tarixi ədalətin bərpasına xidmət edir. Cənubi Qafqazın gələcəyi üçün əsaslı və davamlı sülh məhz bu prinsiplər üzərində qurulmalıdır”.

* * *

**İqtisadiyyat İnstitutunun şöbə müdiri Mahir Zeynalov** hesab edir ki, 8 avqust Vaşinqton görüşündə əldə olunan nəticə tezliklə öz müsbət təsirini göstərəcək: “Sərhədlərin müəyyənləşdirilməsi və TRIPP layihəsinin həyata keçirilməsi həm Ermənistan, həm də Azərbaycan üçün ciddi iqtisadi dividendlər yaradır. Məsələn, Hayastan nəqliyyat sistemini bərpa etmək imkanı əldə edir, ölkə iqtisadiyyatı üçün illərlə bağlı qapılar yenidən açılır. Bu, xüsusən də Sünik vilayətinin sosial-iqtisadi canlanmasına təkan verəcək, yerli istehsalın ixrac imkanlarını genişləndirəcək. Yolların, körpülərin və logistika mərkəzlərinin yenilənməsi təkcə yük daşımalarını deyil, həm də investisiya axınını artıracaq.

Bu reallıq bir zamanlar İrəvan üçün mümkünsüz görünürdü. İndi isə sabitlik, normal həyat, gələcək perspektivlər reallığa çevrilir. Artıq bu tendensiya erməni mediasında da öz əksini tapır. Cəmiyyətdə sərhədlərin dəqiqləşdirilməsinin və sülh sazişinin imzalanmasının regionda sabitlik yaradacağına inamı artırır. İnsanlar anlayır ki, sabitlik və qarşılıqlı əməkdaşlıq olmadan davamlı inkişaf mümkün deyil. Bu isə iki dövlət arasında sərhədlərin müəyyənləşməsindən keçir”.

İqtisadçı onu da qeyd etdi ki, Bakı uzun müddətdir regionun əsas logistika mərkəzinə çevrilmək xəttini həyata keçirir: “TRIPP layihəsi Azərbaycanın Qafqazda və Mərkəzi Asiyada nəqliyyat qovşağı kimi rolunu daha da möhkəmləndirəcək. Bu, ölkəyə yeni gömrük gəlirləri, investisiya axınları və strateji enerji nəqli marşrutlarına nəzarət imkanları qazandıracaq. Bundan əlavə, layihə region ölkələrinin bir-biri ilə iqtisadi qarşılıqlı əlaqələrini artırmağa, siyasi sabitliyə xidmət edəcək. Qlobal təcrübə göstərir ki, iqtisadi inteqrasiya və sərhədlərarası layihələr çox zaman gərginliyi azaldır, münaqişələrin yenidən alovlanması riskini aşağı salır. Çünki birgə iqtisadi maraqlar gərginliyi azaldır, əməkdaşlığı isə zərurətə çevirir”.

Beləliklə, bütün bunlar onu göstərir ki, sərhədlərin hüquqi əsaslarla müəyyən olunması yalnız gərginlik və münaqişələrin qarşısını almağa deyil, eyni zamanda, regionun inkişafına xidmət edir. Ən başlıcası isə bu proses pozulmuş beynəlxalq hüququn bərpasına xidmət edir. Sülhün gələcəyi artıq region ölkələrinin öz əlindədir.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# Kor məğlubların revanş xülyası

**Uzun müddətdir ki, Ermənistanda daxili siyasi gündəmin əsas mövzularından biri hazırkı hakimiyyətlə keçmiş prezidentlər – Levon Ter-Petrosyan, Robert Koçaryan və Serj Sarkisyan arasında yaşanan qarşıdurmadır. Sabiqlər Paşinyanı ölkənin bugünkü vəziyyətinin, ələlxüsus Qarabağın, onların təbirincə desək, itirilməsinin baiskarı olmaqda ittiham edirlər. Paşinyan isə bir ittihamı belə cavabsız buraxmır, sələflərini israrla canlı efirdə debata çağırır. Məlumdur ki, üç "eks"in heç biri indiyədək baş nazirin debat təklifinə "hə" demək üçün özündə cəsarət tapmayıb.**



Yaşanan qarşıdurma digər sahələrə də aiddir. Keçmiş prezidentlər Paşinyanı dövlət institutlarını zəiflətməkdə, siyasi sabitliyi sarsıtmaqda, ölkənin təhlükəsizlik arxitekturasını sıradan çıxarmaqda təqsirləndirirlər. Baş nazir və onun komandası keçmişin qalığı hesab etdiyi dairələri yeniləşmə prosesinə mane olmaqda suçlayır. Beləliklə, baş verənlər təkcə siyasi fikir ayrılığı kimi deyil, həm də keçmiş və indiki idarəçilik modellərinin toqquşması kimi dəyərləndirilir. Cəmiyyətin müxtəlif təbəqələrində bu qarşıdurmaya münasibət fərqlidir, lakin ümumi narahatlıq ondan ibarətdir ki, gərginlik ölkənin siyasi gələcəyinə mənfi təsir göstərə bilər. Müşahidəçilər hesab edirlər ki, tərəflər arasındakı dərin etimadsızlıq şəraiti dialoqu mümkünsüz edir. Belə bir mühitdə Ermənistanın daxili sabitliyi hər zamankından daha kövrək görünür.

Məlumdur ki, S.Sarkisyan İkinci Qarabağ müharibəsinin başa çatdığı günlərdə "İmnemnimi" podkastının müəllifləri Narek Samsonyan və Vazgen Saqatelyana müsahibə verib və onu Ermənistan mediası geniş işıqlandırıb. Müsahibə bir neçə gün öncə "YouTube" üzərindən yayımlanıb və əsas mövzular həm daxili siyasət, həm də Qarabağla bağlı olub. Sarkisyan bildirib ki, Paşinyan hakimiyyəti Qarabağı itirmək prosesini bilərəkdən sürətləndirib və bununla Ermənistanın təhlükəsizlik sistemini dağıdıb. O, həmçinin deyib ki, 2018-ci ildə hakimiyyətdən getməsi xalqa qarşı yox, dövlətin sabitliyini qorumaq üçün atılmış addım idi. Keçmiş prezident iddia edib ki, Paşinyan hökuməti 2020-ci il müharibəsi ərəfəsində təxribatçı ritorika ilə vəziyyəti gərginləşdirib, halbuki əvvəlki iqtidarlar balans siyasəti yürüdürdülər.

Sarkisyan podkastda 2020-ci il müharibəsinin qaçılmaz, lakin onun nəticəsinin 2018-ci ilə qədər gözlənilməz olduğunu bəyan edib. O, məğlubiyyətin üç səbəbini göstərib: danışıqlardan imtina, yeni hakimiyyətin Azərbaycana güc tətbiqinə haqq qazandırmağa imkan verən hərəkətləri və ordunun döyüş effektivliyinin azalması. Sabiq prezident onu da bildirib ki, 2019-cu ildə ATƏT-in Minsk qrupunun yeni sənədi barədə məlumatı var, onun mövcudluğu sonradan Rusiya Xarici İşlər Nazirliyi tərəfindən təsdiqlənib. O, hazırkı hakimiyyətin keçmiş prezidentlərə qarşı kampaniya apardığını, bunun məqsədinin xalqın diqqətini real problemlərdən yayındırmaq olduğunu söyləyib. Qarabağla bağlı sualı cavablandırarkən Sarkisyan "əgər biz hakimiyyətdə qalardıqsa, belə nəticə olmazdı" deyərək, məsuliyyətin tam şəkildə Paşinyanın üzərində olduğunu vurğulayıb. Müsahibənin bir hissəsində o, R.Koçaryan və Levon Ter-Petrosyanla münasibətlərinə də toxunaraq, "bu gün fərqli siyasi baxışlarımız olsa da, dövlət maraqları uğrunda bir mövqedəyik" ifadəsini işlədib.

* * *

Sarkisyanın son bəyanatları cəmiyyətdə müxtəlif reaksiyalar doğurub və siyasi mühitdə yeni müzakirələrə səbəb olub. Hakimiyyət düşərgəsi bu çıxışları keçmiş sistemin özünü yenidən gündəmə gətirmə cəhdi kimi qiymətləndirib. Baş nazir N.Paşinyanın mətbuat katibi Nazeli Bağdasaryan Sarkisyanın açıqlamalarını tənqid edib. O vurğulayıb ki, keçmiş prezidentin bəyanatları siyasi təhlil sayıla bilməz: "Bunlar 2018–2020-ci illərdə silah həcmi, ordu islahatları və müdafiənin modernləşdirilməsi prosesləri də daxil olmaqla, artıq dəfələrlə təkzib edilmiş köhnə tezislərin təkrarıdır. Bəli, 30 illik fərqi iki il yarımda aradan qaldırmaq mümkün deyildi. Amma Sarkisyan düşünmək əvəzinə yenidən dövlət və ordu haqqında danışmağa çalışır, özünün çoxdankı fəaliyyətsizliyinin nəticələrini etiraf etmək əvəzinə başqalarının üzərinə kölgə salmağa çalışır".

Baş nazir Paşinyan isə Serjin açıqlamasında səsləndirdiyi fikirlərə cavabında deyib: "SS (Paşinyan Serj Sarkisyanı belə təqdim edib–S.Həmid) yenidən danışıqlar sənədlərindən söhbət açıb". Paşinyan qeyd edib ki, danışıqlar tarixçəsinin 2019-cu ili də əhatə edən əsas materiallarını hazırlayıb: "Hazırda onların hamısının surəti çıxarılır, ilin sonuna qədər aralarına bir neçə publik sənədi əlavə etməklə dərc edəcəm". Baş nazir S.Sarkisyanın prezident olanda yazdığı məktubu dərc edəcəyini də vurğulayıb: "Sənin bir məktubunu da dərc edəcəm, elə düşünməyəsən ki, səni hesaba almamışam. Oyananda TPL və KP-yə (Paşinyan Levon Ter-Petrosyanı və Robert Koçaryanı belə təqdim edib–müəll.) də xəbər edərsən".

Paşinyan daha sonra bildirib: "44 günlük müharibənin qarşısını almaq üçün nə tələb olunurdu? Bunun üçün Qarabağ münaqişəsinin həlli ilə bağlı bizim təsəvvür etdiyimiz legitimliyi beynəlxalq səviyyədə tanınan legitimliklə uzlaşdırmaq lazım idi. Ola bilər ki, nəzəri cəhətdən baxsaq, baxışlarımızı uyğunlaşdırmaq mümkün idi, amma praktiki olaraq bu, mümkün deyildi. Çünki ilk addım olaraq biz Qarabağın Azərbaycanın tərkibində olduğunu qəbul etməli idik, başqa variant yox idi. Əgər düşünürüksə ki, bunu 2018-2019-cu illərdə edə bilərdik, bəli, onda mənim səhvim idi ki, bunu etməmişəm".

Noyabrın 12-də Paşinyan Azərbaycanla danışıqlara dair sənədləri açıqlamaq məsələsinə bir daha qayıdıb və sənədləri niyə ilin sonuna qədər dərc etmək qərarının səbəbini açıqlayıb. O bildirib ki, bu, ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlıdır. "Proses başa çatdıqdan sonra biz bu sənədləri dərc edə biləcəyik, o zaman həmin sənədlərin dərc olunması üçün mənəvi və siyasi maneə aradan qalxacaq", – deyə Paşinyan keçirdiyi brifinqdə deyib.

Keçmiş prezident S.Sarkisyanın başqa dövlətin liderinə məktubuna gəlincə, Paşinyan onu dərc etmək niyyətini bir daha təsdiqləyib. O, vaxtı açıqlamasa da, əlavə edib ki, hazırda sənədin məxfiliyi ləğv edilir.

* * *

Xocalı cəlladının verdiyi müsahibə və onun ətrafında yaranan rezonans ölkədə dərinləşən daxili qarşıdurmanın növbəti təzahürü kimi qiymətləndirilə bilər. Sarkisyanın çıxışında həm keçmişin müdafiəsi, həm də indiki hakimiyyətə yönəlmiş sərt ittihamlar aydın şəkildə hiss olunur. O, Qarabağın itirilməsini tam şəkildə Paşinyan hökumətinin üzərinə qoymaqla, 2018-ci ildən əvvəl formalaşmış səhvlərin məsuliyyətindən yayınmağa çalışır. Halbuki Ermənistanın hərbi və diplomatik zəifliyinin, eləcə də illərlə davam edən korrupsiya və monopoliyalar sisteminin təməli məhz Koçaryan–Sarkisyan iqtidarları və onun komandalarının dövründə qoyulmuşdu.

Keçmiş prezidentin "biz hakimiyyətdə olsaydıq, belə nəticə olmazdı" deməsi, əslində, siyasi nostaljinin və populist özünə haqq qazandırmanın ifadəsidir. 2016-cı ilin Aprel döyüşlərində Ermənistanın aciz vəziyyəti və ordunun texniki, mənəvi hazırlıqsızlığı göstərmişdi ki, müharibə qaçılmaz olacağı təqdirdə bu ölkənin hərbi-siyasi sistemi belə bir sınağa hazır deyil.

Paşinyan hökumətinin keçmiş prezidentlərə qarşı ritorikası bəzən emosional olsa da, onun iradəsində reallıq payı var. 30 ilə yaxın dövrdə Ermənistanı idarə edən eyni siyasi elita ölkəni demokratik və iqtisadi baxımdan iflic vəziyyətə salmış, xarici siyasəti isə Moskvanın diktəsi altına tam tabe etmişdi. Bu mənada Sarkisyanın bu gün "dövlətin təhlükəsizlik sisteminin dağıdılması" barədə dedikləri öz fəaliyyətinə qarşı yönəlmiş etiraf təsiri bağışlayır.

Paşinyanın cavabı da təsadüfi deyil. O, keçmiş danışıqlar sənədlərinin dərcinə dair verdiyi bəyanatlarla ictimai rəyin diqqətini şəffaflığa yönəltmək istəyir. Çünki 2018-ci ildən öncə aparılan danışıqların detalları açıldıqca, Ermənistan cəmiyyətində Qarabağ məsələsində əslində kimin məsuliyyətsiz davranış sərgilədiyi daha aydın görünəcək. Paşinyanın Sarkisyan, Koçaryan və Ter-Petrosyana ironik abbreviaturalarla müraciəti də bu mübarizənin simvolik tərəfidir. Bu, köhnə siyasi elitanın "keçmişin kölgəsi" kimi qalmasına eyhamdır.

**Politoloq Ramiyə Məmmədova** XQ-yə açıqlamasında bildirdi ki, Sarkisyanın son çıxışı onun ictimai müstəviyə qayıtmaq cəhdidir. Lakin onun sözlərinə görə, bu qayıdış nə yeni ideyalarla, nə də real siyasi konsepsiya ilə müşayiət olunur:



"Sarkisyanın ritorikasında keçmişdəki səhvlərin təhlili deyil, özünü təmizə çıxarmaq istəyi ön plandadır. 2018-ci ildə hakimiyyətdən getdiyi zaman ölkə dərin sosial-siyasi böhran içində idi və həmin böhranın yükü bu gün də Ermənistana baha başa gəlir. Müsahibədə səslənən arqumentlər reallıqdan uzaqdır. "Paşinyan Qarabağı bilərəkdən itirdi" kimi iddialar faktoloji əsasdan çox, emosional bəyanat səviyyəsindədir. Əgər Ermənistan ordusu və diplomatiyası 2016-cı ildə belə zəif vəziyyətdə idisə, bu, Sarkisyanın uzun illər davam edən korrupsiya və qeyri-effektiv idarəçiliyinin nəticəsi sayılmalıdır. Paşinyanın hazırkı addımları bəzən tənqid olunsa da, onun açıq debat və sənədlərin dərcinə yönəlik çağırışları şəffaflıq baxımından müsbət tendensiyadır".

*Səxavət HƏMİD*
*XQ*

# Paşinyanın "İrəvan öpüşü" söhbəti

## *"Axı buğda almaq evlənmək deyil"*

**"İrəvan öpüşü". Rusiya Xarici Kəşfiyyat İdarəsi Ermənistanın Avropa ilə Rusiya taxılını Ukrayna taxılına dəyişmək üçün apardığı sövdələşməyə dair məlumatına belə bir obrazlı sərlövhə seçib. İş o yerə çatıb ki, məsələyə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov da münasibət bildirib. O deyib ki, ölkəsinin Xarici Kəşfiyyat İdarəsinin məlumatı havadan götürülməyib, qurum nəyisə iddia edirsə, arxasında real fakt dayanır. Görünür, elə buna görə də Ermənistanın baş naziri Nikol Paşinyan mövzuya dair mövqeyini açıqlamalı olub. Yazımızda onun yanaşmasının nədən ibarət olduğuna aydınlıq gətirəcəyik. Hələlik isə...**



Deməli, Rusiya XKİ yaydığı məlumatda bildirib ki, Ermənistan hakimiyyəti avropalı dostlarına ölkəsinin Rusiyadan taxıl almaqdan imtina etmək istəyini açıqlayıb. Daha doğrusu, Ukraynadan taxıl almaq niyyətini. Problem isə ondadır ki, Ukrayna taxılı Rusiya taxılından bahadır. Rusiya XKİ-nin iddiasına görə, erməni iqtidarı təklif edib ki, taxıl alışında yaranan fərqi Avropa İttifaqı qarşılasın.

Əslində, Rusiya XKİ-nin məlumatında, belə demək mümkünsə, sentimental tonlar var. Qurum bildirir ki, Ermənistan Ukraynadan taxıl almaq niyyətini ölkəyə yardım kimi təqdim etməyə çalışıb. Həm maddi, həm də mənəvi. Maddi ona görə ki, rəsmi İrəvan taxıl idxalı üçün Rusiyaya verdiyi pulu Ukraynaya verir. Mənəvi o səbəbdən ki, Ukrayna malını alanların cərgəsi genişlənir. Ermənistan ümumi yardım trendinə qoşulur. Rusiya XKİ-nin durumu gülməli təqdim etməsinə səbəb isə Ermənistanın yardımı başqasının hesabına etmək niyyətidir. "İrəvan öpüşü" ifadəsi də bundan qaynaqlanır. Hər halda, başqasının ağzı ilə öpmək olmur.

Əlqərəz, Paşinyan Paşinyan olmazdı, əgər ki, Rusiya XKİ-nin reaksiyasına cavab verməsəydi. Baş nazir rus kəşfiyyatçılarının yaydıqları məlumatın yalan olduğunu bildirib. Onun fikrini əsaslandırmaq üçün gətirdiyi arqument isə maraqlıdır. Paşinyan deyib ki, Rusiya XKİ 2022-ci ilin yazında Azərbaycan və Ermənistan sərhəddində eskalasiyanın mümkün olmadığını bildirmiş, mövqeyini ərazidə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının hərbi kontingentinin mövcudluğu amili ilə əsaslandırmışdı. "2020-ci il sentyabrın 20-də də onlar eskalasiyanın olmayacağını bildirmişdilər", – deyən baş nazir mövzuya girməməyi təklif edib. Loru dildə desək, təxminən belə: açaram sandığı, tökərəm pambığı.

Hər halda, Paşinyanın nəyə eyham vurduğu məlumdur. O, Rusiya XKİ-ni qeyri-ciddi qurum kimi qələmə verir və belə bir qurumun yaydığı məlumatın heç bir əhəmiyyət daşımadığını vurğulayır. Axı həm 2022-ci ildəki, həm də 2020-ci ildəki vəziyyət Ermənistana xoş sonluq bəxş etməmişdi. Bu səbəbdən Paşinyan etimad səviyyəsini zəif qiymətləndirdiyi quruma inanmamaq çağırışı səsləndirir. Amma onun başqa dedikləri, sözügedən mövzudakı təzadlı fikirləri də var.

N.Paşinyan bildirir ki, Ermənistan heç vaxt Rusiyadan buğda almaqdan imtina etməyəcək. "Heç vaxt imtina etməyəcək. Bunu rəsmi olaraq bəyan edirəm", - deyən baş nazir ardınca vurğulayır ki, amma ölkəsi həm də bazarda başqa nələrin mövcud olduğuna, kimlərin buğda satdığına, təkliflərin olub-olmadığına baxmaqdan da heç vaxt imtina etməyəcək: "Zəmanət verirəm ki, kimsə gəlib bizə "bizdə buğda var, almaq istəyirsinizmi?" desə, biz qulaqlarımızı tutub oradan qaçmayacağıq. Belə bir şey olmayacaq".

Paşinyan hazırda da Ermənistan üçün taxılla bağlı təkliflərin olduğunu bildirib. Onun sözlərinə görə, digər satıcılar Ermənistanın Qazaxıstandan buğda aldığını görəndə, öz təkliflərinin maraqlı olub-olmadığını soruşublar: "Biz qiymətlə maraqlanırıq. Əgər qiymət maraqlıdırsa, bu, bizim üçün də maraqlıdır. Əgər maraqlı deyilsə, deyəcəyik ki, maraqlı deyil. Burada problem nədir? Axı buğda almaq evlənmək deyil. Mən bu yanaşmanı anlamıram. Biz buğda ticarəti sahəsində heç kimlə belə bir münasibətə girməmişik".

Göründüyü kimi, N.Paşinyanın bildirdikləri təzadlı olduğu kimi, onun ifadə tərzi də eyhamlıdır. Təzadlıdır ona görə ki, baş nazir bir tərəfdən Ermənistanın heç vaxt Rusiya taxılından imtina etməyəcəyini bildirir, digər yandan bazardakı təklifləri dəyərləndirdiyini vurğulayır. Görəsən, yaxşı, daha sərfəli təklif qeydə alınsa, imtina olmayacaq? Əlbəttə ki, olacaq. Nikol, əslində, həm də bunu bildirir. Onun ifadə tərzindəki eyhama gəlincə, deməliyik ki, uzun illər Ermənistan-Rusiya münasibətləri təxminən evlilik kimi olub. Birinci ikincinin izdivaclı qadını obrazında çıxış edib. Uzağa getməyək, Serj Sarkisyanın prezidentliyi dövründə Ermənistanın Rusiyadan başqa hansısa dövlətdən buğda idxal edəcəyini təsəvvürə gətirmək olardımı? Əlbəttə ki, yox.

Sonda bir daha Rusiya XKİ-nin "İrəvan öpüşü" məlumatına qayıdaq. Aydındır ki, məlumat heç də Ermənistanın özünə alternativ buğda idxalatçısı tapmaq istəyinə qarşı deyildi. Başlıca məğz Ukraynaya görə Rusiya taxılından imtina məsələsidir. Daha doğrusu, söhbət Ermənistanın imtinanın zərərini Avropanın qarşılaması istəyindən gedirdi. İstək alınmadı, çünki Avropa fərqi ödəmək iqtidarında deyil, yaxud Ermənistanın Ukrayna üçün xoş niyyət göstərisinin ölkənin öz hesabına olmasını vacib sayır. Paşinyan iqtidarı isə əlini cibinə salmaq niyyətindən uzaqdır. Hətta ortada Ukraynaya yardım kimi bəşəri təqdimatlı mətləb olsa da.

Ən sonda bir məqamın da üzərində dayanaraq yada salaq ki, Ermənistan hakimiyyəti çox tez-tez ölkənin təhlükəsizlik çağırışlarının təminatı naminə beynəlxalq miqyasda diversifikasiya siyasəti aparılmasının vacibliyini və bu kursa üstünlük verəcəyini açıqlayıb. Ərzaq təhlükəsizliyi də ön planda gələn məsələdir. Paşinyan əbəs yerə Rusiya XKİ-nin 2020 və 2022-ci illərdəki məlumatlarını yada salmır. Yəni həm də demək istəyir ki, bu qurumun timsalında Rusiya dövləti Ermənistanın təhlükəsizlik çağırışlarını ödəmək iqtidarında olmadı. Bundan belə qənaətə gəlmək mümkündür ki, Paşinyan administrasiyası Rusiyadan uzaqlaşmaq xəttini davam etdirəcəkdir. O vaxta qədər ki, İrəvanın Moskvadan asılılığı tam şəkildə aradan qalxsın. Bu, nə dərəcədə mümkündür, durumu zaman göstərəcək...

*Ə.CAHANGİROĞLU*
*XQ*

# Dövlətçilik tariximizin Zəfər erası

## İndi regionda saatlar Bakı vaxtı ilə qurulur

**XXI əsrin 3-cü onilliyində dünyanın geostrateji mənzərəsi olduqca mürəkkəb və ziddiyyətlidir. İqtisadi tənəzzül, siyasi qeyri-sabitlik, ictimai münasibətlərdə xaos, ideoloji boşluq, kənar müdaxilələrin acı nəticələri və digər mənfi hallar müxtəlif ölkələrin real durumunu əks etdirir.**

**Səbəblər isə müxtəlifdir: siyasi hakimiyyətlərin nüfuzunun olmaması, səmərəli idarəetmə sisteminin yaradılmaması, xarici siyasətdə çoxsaylı qüsurlar və s. Ona görə də "rəngli ssenari"lər, iğtişaşlar, inqilablar, çevrilişlər, üsyanlar bir sıra ölkələr və regionlar üçün siyasi ənənəyə – "milli adət"ə çevrilib, yaxud xroniki geosiyasi xəstəlik halını alıb.**



### Azərbaycan nümunəsi – mütərəqqi model

Azərbaycan nümunəsi isə müsbət təcrübəni və mütərəqqi modeli ifadə edir. Bu gün respublikamız güclü, qüdrətli və qalib dövlət, dünyada söz və nüfuz sahibi olan etibarlı tərəfdaş, regionun lider ölkəsi olaraq geosiyasi cazibə mərkəzi kimi diqqət mərkəzindədir.

Ümumiyyətlə, müstəqillik dövrünün siyasi təqvimi çox mühüm reallıqları əks etdirməklə özündə bütöv siyasi orqanizm olan dövləti müdrikləşdirən tarixi təcrübələri, taleyüklü hadisə və prosesləri ehtiva edir. Cənubi Qafqazın lider dövlətinə çevrilməkdən tutmuş nüfuzlu beynəlxalq təşkilatlara müvəffəqiyyətlə sədrlik etməyə, Avrasiyanın yeni enerji və nəqliyyat xəritəsini yaratmaqdan başlamış inkişafın milli modelini formalaşdırmağa qədər çox sayda önəmli uğurlara imza atılıb. Nəinki müstəqillik, həm də çoxəsrlik tariximizin zirvə nöqtəsi isə işğal altında olan torpaqların azad edilməsi, ərazi bütövlüyü və suverenliyin bərpası, tarixi ədalətin isə təmin olunmasıdır.

Təbii ki, bütün bu nailiyyətlər asanlıqla əldə olunmayıb, həm də olduqca mürəkkəb şərtlərə və şəraitə uyğun qazanılıb. Həlledici amil isə, heç şübhəsiz, lider fenomeni, yaxud liderlik faktorudur. Ötən əsrin 90-cı illərində ümummilli lider Heydər Əliyev xilaskarlıq və quruculuq missiyasını həyata keçirməklə Azərbaycanda sabitlik və inkişafı təmin etmiş, təcrid vəziyyətində olan ölkəmizi beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaşa çevirmiş və bugünkü möhtəşəm qələbələrin – tərəqqi və Zəfər yolunun əsaslarını formalaşdırmışdır.

Azərbaycanı xaos və anarxiya meydanına, geosiyasi mübarizə poliqonuna, dini, etnik müstəvidə qarşıdurma məkanına çevrilməkdən xilas edən, adı inkişaf və sabitlik anlayışları ilə assosiasiya olunan, islahatçı və yenilikçi yanaşması ilə fərqlənən Prezident İlham Əliyevin güclü dövlət konsepsiyası isə Azərbaycanı şanlı Zəfər zirvəsinə yüksəltmişdir. Nəticə etibarilə, müasir Azərbaycan dövlətçiliyinin dörd sütun üzərində sarsılmazlığı təmin edilmişdir: Heydər Əliyev ideyaları; Prezident İlham Əliyevin alternativsiz siyasəti; Xalq–Lider birliyi – milli həmrəylik; tarixi Qələbə və möhtəşəm Zəfərin davamlı prosesə çevrilməsi.

### Fövqəladə nailiyyət, yaxud siyasi möcüzə

Əlbəttə, olduqca mürəkkəb regionda və çətin geosiyasi şəraitdə məkrli qüvvələrin, uzun müddət regionda kök salmış neqativ vəziyyətdən istifadə etməyə çalışan avantüristlərin planlarını pozaraq - niyyətlərini iflasa uğradaraq işğal faktını aradan qaldırmaq, sadəcə olaraq, fövqəladə nailiyyət, yaxud siyasi möcüzədir.

Azərbaycan kimi uzun müddət işğal, bölücülük və ikili standartlardan əziyyət çəkən bir çox dövlət, o cümlədən postsovet ölkələri mövcuddur. Hər birinin özünəməxsus iqtisadi, hərbi-strateji potensialı, demoqrafik və geosiyasi resursları var. Amma regionda mürəkkəb beynəlxalq vəziyyətdə, çətin şərtlər və şərait fonunda haqq işini qələbə ilə yekunlaşdıran, separatizm kimi "geopolitik xərçəng daşıyıcısı olan hüceyrələrin metastazı"nın qarşısını alaraq dövlətin vahid siyasi orqanizm olaraq bütöv sağlamlığını təmin edən məhz Azərbaycandır.

Əvvəl bizə "sülhə alternativ yol yoxdur" deyərək 30 illik hərbi-siyasi əsarətə söykənən status-kvonu saxlamağa çalışırdılar. Hərb yolunu istisna etməyən Azərbaycan həm döyüş meydanında, həm də diplomatik arenada ədaləti bərpa etdi. Bizi növbəti qələbələrə aparan Zəfər yolunu inşa etdik – suveren Azərbaycanın bütün ərazisində və üçrəngli Bayrağımızın dalğalanmasına – konstitusiya quruluşunun bərpasına nail olaraq.

Azərbaycan dövlət suverenliyi və konstitusiya quruluşunu tam bərpa etməklə bir sıra ilklərə imza atdı. Məlumdur ki, postsovet məkanında separatizmin əsası məhz Qarabağ problemi ilə qoyuldu. Daha sonra "domino effekti" ilə yayılan və təbii ki, kənardan idarə olunan mərkəzdənqaçma prosesi siyasi idarəetmə formasından, sosial-iqtisadi inkişaf səviyyəsindən, ərazisi və əhalisindən asılı olmayaraq, bir çox ölkəni ağuşuna aldı, xalqlara ciddi zərər verdi – dövlətlərə zərbə vurdu.

Bu geostrateji arealda separatizmin zərərsizləşdirildiyi, başının əzildiyi - belinin qırıldığı ilk məkan da məhz Azərbaycan oldu. Şanlı Qələbədən bir müddət sonra Laçın–Xankəndi yolunda nəzarət-buraxılış məntəqəsinin yaradılması, ardınca əzəli və əbədi Qarabağımızda lokal xarakterli antiterror tədbirlərinin həyata keçirilməsi ilə geniş geosiyasi müstəvidə - Cənubi Qafqazda, Qafqazda və postsovet məkanında separatizmin məhv edilməsi təcrübəsi yaradıldı.

Beləliklə, 30 ilə yaxın müddətdə BMT-nin kağız üzərində qalmış 4 qətnaməsinin yerinə yetirilməsini təmin etməklə nadir presedent formalaşdıran Azərbaycan 3 il sonra isə üçtərəfli Bəyanatın 4-cü bəndinin icrasına, yəni qanunsuz silahlı birləşmələrin, təxribat-terror qruplarının ərazilərimizdən çıxarılmasına, separatizmin məhvinə müvəffəq oldu. Bu reallıq təsdiqləyir ki, Azərbaycanın timsalında hüquq gücdür, güc isə hüququ təmin etmək vasitəsidir.

Dünya azərbaycanlılarının lideri – Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin strateji oyun qaydalarını 4 qızıl qanun əsasında müəyyənləşdirməsi sayəsində bu reallıqları yarada, uğura çata – tarixi zirvələri fəth edə bilmişik: vaxtı düzgün seçmək, avantüraya getməmək, ölkəni risk altına salmamaq və az qüvvə və vəsaitlə maksimum uğura nail olmaq.

Prezident İlham Əliyev müdrik dövlət xadimi, təcrübəli siyasətçi, qətiyyətli lider kimi vaxtı düzgün seçdi: Azərbaycan nə tələsdi, nə gecikdi - hər şey zamanında! Təxribatlara, sabotajlara, prosesləri pozmaq cəhdlərinə, süni müdaxilələrə, ikili standartlara baxmayaraq, strateji hədəfə nail olduq.

### Zəfər yolu – istiqlal, istiqrar və istiqbal xətti

Doğrudur, coğrafiya taledir, amma insandan fərqli olaraq dövlətlər dünyaya yazılı tale ilə gəlmirlər. Ərazi mühüm amildir, amma həlledici deyil. Və tarix yazmaq, coğrafiya yaşatmaq üçündür. Böyük dövlətlərin təcrübəsi ilə yanaşı, artıq qeyd etdiyimiz kimi, Azərbaycan nümunəsi də var. Ölkəmizin coğrafi mövqeyi kimi, regionun reallıqları da bəllidir. Maraqların toqquşduğu, kəsişdiyi, uzlaşdığı bölgədə yerləşmişik - dörd tərəfdən "geosiyasi tamah" sahiblərinin maraq obyektindəyik, bir sıra coğrafi cəhətlərdən "geostrateji rüzgar"lar zaman-zaman sərt hava kütləsi kimi Azərbaycana da yönəlir. Müxtəlif mexanizmlər işə salınır, fərqli vasitələrdən - alətlərdən istifadə olunur, bəzən Azərbaycanı hansısa güzəştə məcbur etməyə çalışırlar.

Belə bir çətin şəraitdə ölkədə sabitliyi, həmrəyliyi qoruya, üçrəngli bayrağımızı Şuşa zirvəsində dalğalandıra, azad Qarabağı abad məkana çevirə bilmişik. Bir sözlə, böyük hədəflərimizə çatmışıq. İndi dövlətçiliyin daha bir işlək marşrutu - Zəfər yolu hərbi müstəvidə qazanılmış Qələbəni diplomatik-siyasi arenada və quruculuq meydanında möhkəmləndirmək, iqtisadi gücümüzü, ictimai immunitetimizi artırmaq, siyasi üstünlüyümüzü, beynəlxalq mövqeyimizi gücləndirmək üçün dayanıqlı zəmin rolunu oynayır.

Bu gün Zəfər yolu Azərbaycanın çoxəsrlik və müasir dövlətçilik marşrutu, Türk dünyasının perspektiv istiqlal, istiqrar və istiqbal xəttidir. Müzəffər Ali Baş Komandanımızın qeyd etdiyi kimi: "Heç kim bizi yolumuzdan döndərə bilməz". Çünki haqq yolundayıq! 2 min 500 il əvvəl qədim Çin filosofu Lao Tszının ifadə etdiyi "Min millik yol bir addımla başlayır" fikrini XXI əsrin üçüncü onilliyində təsdiq etmişik.

Tarix dünənin siyasəti, siyasət isə bu günün tarixidir. İndi regionda yeni tarix yazılır - Azərbaycanın müəllifliyi ilə. Azərbaycanın diplomatik müstəvidə strateji gedişləri bölgədə yeni təhlükəsizlik və əməkdaşlıq mühiti formalaşdırır. Avrasiyanın "heartland" nöqtələrindən hesab olunan Cənubi Qafqazın bir əsrlik geosiyasi arxitekturası dəyişir, uzun illər hərbi-siyasi toqquşma məkanı olan, gərginliyin və narahatlığın hökm sürdüyü regionda əməkdaşlıq, inteqrasiya üçün yeni imkanlar meydana çıxır. Bu, bölgədə bütün dövlətlər üçün faydalı və perspektivlidir.

### Zəfər təqvimində "Konstitusiya və Suverenlik İli"

Müstəqil Azərbaycanın ilk milli Konstitusiyasının qəbul edilməsinin 30-cu və Vətən müharibəsində əldə olunmuş Qələbənin 5-ci ildönümünü qeyd etdiyimiz 2025-ci il – "Konstitusiya və Suverenlik İli" Azərbaycanın qarşısında yeni perspektivlərin açılması ilə əlamətdardır. Həm daxili arenada, həm də beynəlxalq müstəvidə görülən işlər – siyasi, iqtisadi, diplomatik nailiyyətlər əsas hədəfə - qalib Azərbaycanın milli gücünün və nüfuzunun artmasına, tarixi Zəfərin möhkəmləndirilməsinə – daimi prosesə çevrilməsinə xidmət etməklə real nəticələr verir.

Prezident İlham Əliyevin milli maraqlara əsaslanan praqmatik siyasəti sayəsində Azərbaycanın beynəlxalq mövqeyi daha da möhkəmlənməkdədir. İstər regionda, istərsə də dünya miqyasında ikitərəfli və çoxşaxəli əlaqələrin dərinləşdirilməsi Azərbaycanın dostluq və tərəfdaşlıq münasibətlərinin inkişafına mühüm töhfə verir, ölkəmizə yönəlik neqativ geosiyasi həmlələr məharətlə neytrallaşdırılır. Xüsusilə də yeni reallıqların dünyada qəbul etdirilməsi Azərbaycanın geostrateji iradəsinin və milli gücünün nəticəsi kimi həm xüsusi nailiyyət, həm də böyük üstünlükdür.

### Azad Qarabağdan Azadlıq meydanına

Dünyada indiyə qədər çoxsaylı müharibələr baş verib. Öz müstəqilliyini, ərazi bütövlüyünü qorumaq və suverenliyini bərpa etmək üçün milli mübarizəyə qalxan millətlər heç də həmişə qalib olmayıblar. Yalnız qətiyyətli lideri olan, həmrəylik nümayiş etdirən xalqlar haqq-ədalətin təmininə nail olublar. Eynilə Azərbaycan xalqı kimi. Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli liderliyi, xalqımızın milli birliyi–həmrəyliyi, ordumuzun qüdrəti, əsgər və zabitlərimizin şücaəti sayəsində tarixi ədaləti bərpa etməyin sonsuz qürurunu yaşayan Azərbaycan xalqı bu gün dünyada qalib, müzəffər, qürurlu və qurucu xalq kimi tanınır.

Azərbaycanın çoxəsrlik dövlətçilik tarixinin növbəti şanlı və qürurverici səhifəsi, zirvə hadisələrindən biri noyabrın 8-də Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi paradın keçirilməsidir. Möhtəşəm Zəfər keçidi Azərbaycanın şanlı qələbəsinin növbəti əzəmətli və təntənəli nümayişi oldu - "Qarabağ Azərbaycandır!" şüarı bir daha qürurla ifadə olundu.

Hərbi paradda verilən mesajlar da onu göstərir ki, regionda saatlar Bakı vaxtı ilə qurulur. Azərbaycan istənilən təhdidin qarşısını almağa və bütün strateji hədəflərini gerçəkləşdirməyə qadirdir. Yeni reallıqlardan narahat olan bir sıra qüvvələrin bu gün Azərbaycana və bütövlükdə regiona yönəlik provokasiya cəhdləri - konfrontasiya ssenariləri, sadəcə, iflasa məhkumdur.

Azərbaycan Ordusunun gücü və imkanları müstəqilliyimizin sarsılmazlığına, dövlətimizin daimi təhlükəsizliyinə inamı daha da artırır. Xalqımız həm özünü güvəndə hiss edir, həm də haqlı olaraq güclü, qüdrətli və qalib ordumuzla qürur duyur.

### Tarixi Zəfərdən Böyük Qayıdışa

Müzəffər liderimiz İlham Əliyev paradda çıxışı zamanı qeyd etdi ki, Qarabağ və Şərqi Zəngəzur dirçəlir: "Bu gün "Böyük Qayıdış" Proqramı icra edilir. Məktəblər, xəstəxanalar, sənaye müəssisələri, elektrik stansiyaları, su anbarları, evlər tikilir. Artıq 60 mindən çox insan azad edilmiş torpaqlarda yaşayır, çalışır və təhsil alır".

Böyük Qayıdış tarixi Qələbənin strateji prosesə çevrilməsini təmin edən çox mühüm amillərdən biridir. "Konstitusiya və Suverenlik İli"ndə də qürurlu və müzəffər xalqın nümayəndələri, qüdrətli və məğrur dövlətin vətəndaşları kimi azadlıqdan abadlığa aparan yolda inamla addımlayırıq. Qarabağın Xilaskarı İlham Əliyevin lider dövlətin Lideri kimi işğaldan azad olunmuş torpaqlarımıza atdığı hər addım tarixin yaddaşına əbədi həkk olunur. Həmin ərazilərdə kənd və şəhərlərimizin, mədəni irsimizin bərpa olunması, yeni reallıqlar əsasında ölkəmizin və regionumuzun gələcəyinin inşa edilməsi müstəsna önəm daşıyır.

### "Bizi heç kim və heç nə dayandıra bilməz!"

Müzəffər Ali Baş Komandan İlham Əliyev hələ 2020-ci ildə işğaldan azad edilmiş ərazilərdə Azərbaycan bayrağını ucaldaraq xalqımızın, dövlətimizin ən yüksək zirvələri fəth etdiyini bir daha bütün dünyaya nümayiş etdirmiş, "Biz qayıtmışıq. Düşməni məhv edərək, zəfər çalaraq qayıtmışıq. Bir müddət sonra bu bölgəyə həyat tam qayıdacaq, İnşallah", - deyə qətiyyətlə vurğulamaqla Azərbaycanın iradəsini, prinsipial mövqeyini, gələcəyə aydın - strateji baxışını ifadə etmişdi. Budur, bölgəyə həyat qayıdır, Qarabağa, Şərqi Zəngəzura yeni həyat bəxş edən, yeni nəfəs verən addımlar atılır. Ermənilərin işğalçı siyasəti nəticəsində dağıdılmış yaşayış məntəqələrinin ən müasir texnologiyalara əsaslanan quruculuq konsepsiyası əsasında bərpası milli gücümüzün real təsdiqi və əyani nümayişidir.

Zəfər yürüşümüz isə ictimai-siyasi, sosial-iqtisadi, mədəni-humanitar, diplomatik-strateji müstəvidə davam edir:

– Zəfər yolunun ictimai əsasları möhkəmləndirilir - milli həmrəyliyin qorunması və daha da gücləndirilməsi üçün ardıcıl, məqsədyönlü siyasət həyata keçirilir;

– sosial-iqtisadi imkanlar genişləndirilir - işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi xüsusi diqqət mərkəzindədir;

– tarixi-milli yaddaşımız yenilənir, mədəni ənənələrimiz müasir dəyərlərlə vəhdətdə zənginləşdirilir;

– Qələbənin siyasi-diplomatik müstəvidə möhkəmləndirilməsi işi aparılır.

Bir sözlə, Zəfər yolunda inamla irəliləyirik. Və əminik: Azərbaycan bundan sonra da bütün strateji hədəflərinə çatacaq. Prezident İlham Əliyevin təbirincə: "Bizi heç kim və heç nə dayandıra bilməz!".

***Nurlan QƏLƏNDƏRLİ,***
***YAP Mərkəzi aparatı informasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri***





# Pentaqon ədaləti bərpa etməyə çağırıb

## *ABŞ Müdafiə Nazirliyi Konqresə “907-ci düzəliş”in üz qarasını təmizləməyi təklif edib*



**Əgər bu çağırış qanunverici orqan tərəfindən eşidilib, müvafiq qərar qəbul olunarsa, ABŞ tarixində nadir hadisələrdən birinin şahidi olacağıq. Söhbət 1992-ci ildə Konqresin “Azadlığa Dəstək Aktına” əlavə etdiyi 907-ci düzəlişin ləğvindən gedir. Yəni, Birləşmiş Ştatların tarixində qanunun ləğvi, yaxud ona hansısa əlavə və ya düzəlişin aradan qaldırılması az müşahidə olunan haldir.**

Bugünlərdə ABŞ Müdafiə Nazirliyinin (Pentaqon) “Stars and Stripes” adlı nəşri Konqresə xüsusi qaydada müraciət ünvanlayıb. Nəşr ölkənin ali qanunverici orqanını 33 il bundan əvvəl Azərbaycan əleyhinə qəbul etdiyi 907-ci düzəlişi ləğv etməyə, həmçinin TRIPP (Zəngəzur dəhlizi) layihəsinin uğurunu möhkəmləndirməyə çağırıb. Müraciətdə o da xüsusi olaraq vurğulanır ki, “Azadlığa Dəstək Aktı”na edilən bu bədnam əlavə o zaman Bakı ilə İrəvan arasında münaqişə kontekstində, ABŞ-dakı erməni diasporunun təsiri altında qəbul olunub və artıq o, keçmişin qalığına çevrilib.

Pentaqonun təşəbbüsü başadüşüləndir. Bu gün o bədnam düşəlişin aradan qaldırılmasına, Konqresin 33 illik üz qarasının “yuyulmasına” Bakıdan daha çox Vaşinqtonun ehtiyacı var. Axı, bu düzəliş strateji əməkdaşlıq səviyyəsinə yüksəlmiş Azərbaycan–ABŞ münasibətlərinə xələl gətirməsə də, müəyyən qədər kölgə salır.

Oxuculara xatırladaq ki, “907-ci düzəliş”in icrası Donald Trampın ikinci dəfə Ağ Evə qayıdışından sonra, bu il avqustun 8-də Vaşinqtonda ABŞ liderinin təşəbbüsü və şahidliyi ilə keçirilən Sülh Sammitinin yekunu olaraq daha bir il müddətinə dondurulub. Fəqət onun tam qüvvədən salınması üçün Konqresin iki palatası – Senat və Nümayəndələr Palatası yeni qanun layihəsini təsdiqləməlidir. Bu baş verəcəyi təqdirdə, yəni, “Azadlığa Dəstək Aktına” 907-ci düzəlişin ləğv olunması reallaşarsa, bu, ABŞ-ın müasir tarixinə fövqəladə hadisə kimi düşməklə yanaşı, həm də Azərbaycanla yeni strateji əməkdaşlıq formatına keçidin başlanğıcı olacaq. Önəmli faktlardan biri də odur ki, bu düzəlişin aradan qaldırılması məhz Prezident İlham Əliyevin iştirakı ilə avqustun 8-də Vaşinqtonda baş tutan üçtərəfli görüşdən sonra aktuallaşdı. Konqresin ləğvetmə prosedurunu gerçəkləşdirməsi tarixi əhəmiyyətə malik olmaqla yanaşı, həm də rəmzi xarakter daşıyır.

Bütün parametrlər üzrə Cənubi Qafqazın liderinə çevrilmiş Azərbaycanın bu gün xarici dəstəyə, yaxud yardıma ehtiyacı yoxdur. Məhz bu baxımdan yanaşanda Prezident Trampın məlum qərarı daha çox tarixi ədalətin bərpası, onun tərəfindən Azərbaycan üçün siyasi jest xarakteri daşıyır.

* * *

Oxucuların yadına onu da salaq ki, 1992-ci ilin oktyabrında Ermənistanın lobbi qruplarının hərtərəfli təsiri altında olan konqresmenlərin təşəbbüsü ilə qəbul olunmuş bu ədalətsiz qərar ölkəmizi ABŞ-ın birbaşa dəstəyindən məhrum etdi. Üstəlik, müstəqilliyini yenicə qazanmış və hələ qəddini dikəltməmiş respublikamız sanksiyalara məruz qaldı. Amma hərdən varlıların kasıblara işləri düşdüyü kimi, güclülərin də zəiflərin dəstəyinə ehtiyac duyduqları məqamlar olur. ABŞ hökumətinin Əfqanıstanda başlatdığı antiterror əməliyyatlarında kənar dəstəyə ehtiyacı yarananda Azərbaycan ona yardım əlini uzatdı və bu dəstəyi hava limanları, nəqliyyat vasitəsilə təqdim etdi. Məhz bunun sayəsində sonradan bədnam düzəlişin icrası hər il müvəqqəti olaraq dayandırılırdı.

2023-cü ilə qədər belə davam etdi. Demokrat Cozef Bayden administrasiyasının həmin qadağanı və sanksiyaları yenidən Azərbaycana qarşı tətbiq etməsi Vaşinqtonun bölgəyə münasibətdə yanlış, ermənipərəst siyasətinin, mənfi davranışının kulminasiyası sayıla bilərdi. Ermənistan və Gürcüstan ABŞ-dan milyonlarla dollar dəyərində dəstək aldığı halda, Azərbaycan bu imkandan qərəzli şəkildə məhrum olundu. İndi 907-ci düzəlişin tam ləğvi yalnız siyasi jest deyil, həm də konkret faydalar deməkdir.

Maraqlı suallar yaranır: Pentaqon nədən düzəlişin tam ləğvini istəyir? Və niyə məhz indi? Bəs Konqresə məlun çağırışı Dövlət Departamentinin deyil, Müdafiə Nazirliyinin etməsi nə ilə bağlıdır? Aydın məsələdir ki, Pentaqonun nəşrinin bu çağırışı heç də səbəbsiz deyil. Bu versiyanı daha məntiqli hesab edə bilərik ki, supergücün Müdafiə Nazirliyinin rəsmi media orqanı Konqresin Azərbaycana hərbi yardımı qadağan edən əlavəsinin ləğvi, başqa sözlə, ədalətin bərpası üçün təşəbbüs göstərib. İntəhası, bu heç də o demək deyil ki, Konqres məsələyə müsbət mövqedən yanaşarsa, ABŞ Azərbaycana dərhal hərbi yardım edəcək. Əslində, indiki durumda ölkəmizin buna ehtiyacı da yoxdur. Bakı üçün daha önəmli amil ədalətin, gec də olsa, öz yerini tapması məsələsidir.

* * *

Bəli, “Azadlığa Dəstək Aktına” 907-ci düzəlişin qüvvədən salınmasının ABŞ liderinin qətiyyətli mövqeyi sayəsində mümkün olduğu sirr deyil. Qanun statusuna malik həmin əlavənin ləğvi üçün Konqresin qərar verməsi çətin, amma mümkün məsələdir. Yazımızın əvvəlində qeyd etdiyimiz kimi, Birləşmiş Ştatlarda qanunu dəyişmək elə də asan proses deyil. Doğrudur, qeyri-müəyyən müddətə onun tətbiqinin qarşısının alınması mümkündür. Tam ləğvi isə Konqresin iki palatasının yekdil qərarından asılı olacaq. Əgər biz hazırda respublikaçıların Konqresdə sayca demokratlardan üstün olmaları faktını nəzərə alsaq, bunun üçün əsl fürsətin yarandığını söyləyə bilərik. Aydın məsələdir ki, demokratlar, xüsusən də erməni lobbisinin təzyiqi və təsiri altında olan senator və konqresmenlər bu məsələdə müqavimət göstərməyə çalışacaqlar. Güman edirik ki, qarşıdakı mərhələdə rəsmi Bakı özünün beynəlxalq hüquqa və ədalətə söykənən diplomatik rıçaqlarından istifadə etmək barədə düşünəcək. Bu zaman Pentaqon kimi nəhəng strukturun çağırışına istinad etmək yetərli sayıla bilər. Bununla paralel olaraq Dövlət Departamenti ilə təmasları gücləndirmək lazımdır ki, məsələ Konqresin gündəliyinə salınsın.

Amma yaranmış duruma reallığın gözü ilə baxmağı da unutmamalıyıq. Həmin bədnam 907-ci düzəlişə və məlum sanksiyalara baxmayaraq, Azərbaycan yeni silahlar almaqda davam etdi, ordusunu gücləndirdi və məhz gücün sayəsində erməni işğalına son qoydu.

Noyabrın 8-də Bakıda keçirilən möhtəşəm hərbi paradda Azərbaycan Ordusunun qüdrəti bütün dünyaya nümayiş etdirildi. Ən müasir silahlar, modrn qoşun növləri, insansız idarə olunan hərbi texnikamızla bədxahlarımıza gözdağı verdik. Yəni, 33 il davam edən 907-ci düzəlişin Azərbaycan üçün nə qədər yararsız olduğu növbəti dəfə sübuta yetirildi. İlbəil hərbi potensialını artıran, hərbi sənaye-kompleksini inkişaf etdirən, eləcə də Türkiyə, Rusiya, İsrail, Serbiya, Belarus və digər ölkələrdən müasir silahlar alan Azərbaycan üçün 907-ci düzəliş işləmir.

Sonda bir daha təkrarlamaq istəyirik ki, 33 il bundan əvvəl ABŞ Konqresi ədalətsiz qərarını verəndə torpaqlarımız işğal olunurdu. Yəni, dünyada analoqu olmayan hadisələrdən biri – işğala məruz qalan ölkəyə qarşı hərbi yardımları qadağan edən sanksiya tətbiq olunurdu. Amma biz buna da dözdük və haqq işimizi ədalətin gec-tez zəfər çalacağına inanaraq davam etdirdik. Və bu gün Pentaqonun Konqresə məlum müraciətini ikili standartdan, qərəzli yanaşmadan, deməli, ədalətsizlikdən geri çəkilmə kimi qəbul etməliyik.

***İ.HƏSƏNQALA***
***XQ***

**Prezident İlham Əliyevin noyabrın 12-də Naxçıvanda yeni səlahiyyətli nümayəndəni və bir sıra rayonların icra hakimiyyətlərinə təyin olunmuş başçıları qəbul etməsi Azərbaycan dövlət idarəçiliyi tarixində növbəti mərhələ kimi yadda qaldı. Bu qəbul təkcə kadr estafeti deyil, həm də dövlətin daxili siyasətində yeni mərhələnin – məsuliyyət, şəffaflıq və xalqa xidmət fəlsəfəsinin təcəssümü idi.**

# Günün məmuru “idarə edən” yox, “xidmət göstərən”dir



Prezidentin çıxışı da adi inzibati təlimat deyil, sistemli bir konsepsiyanın ifadəsi kimi qəbul olunmalıdır. Yəni məmur anlayışının yenilənməsi, dövlət xidmətinin mahiyyətcə yenidən dərk edilməsi, əxlaqın idarəçiliyin ayrılmaz tərkib hissəsinə çevrilməsi və s. günün zəruri tələbidir.

Bu konsepsiyanın əsasları nədir? Məsələn, Prezident vurğuladı ki, rəhbər vəzifələrdə çalışan hər bir məmur xalqın arasında olmalı, onun problemlərini anlamalı və fəaliyyətini xalqa xidmət kimi formalaşdırmalıdır. “Sizə böyük etimad göstərilir, əminəm ki, bu etimadı doğruldacaqsınız. Böyük məsuliyyət böyük işlər tələb edir. İlk növbədə, mənim bütün tapşırıqlarımı yerinə yetirməli, xalqa xidmət etməlisiniz”, – dövlət başçısı bildirdi. Bu fikir Azərbaycan idarəçilik modelinin mahiyyətini açır. Məmur artıq “idarə edən” yox, “xidmət göstərən” obrazdır.

Qəbul zamanı məmur davranışına dair sərt, amma prinsipial xəbərdarlıqlar səsləndi. İlham Əliyev qeyd etdi ki, rəhbər təvazökar olmalı, özünü hamıdan üstün tutmamalıdır. Əks təqdirdə, həm öz nüfuzunu, həm də dövlətin nüfuzunu itirər. “Əyri yola gedən hər bir məmur nəticədə qanun qarşısında cavab verir”, – deyən Prezident həm hüquqi, həm mənəvi məsuliyyətin idarəçiliyin ayrılmaz tərkib hissəsi olduğunu vurğuladı. Bu yanaşma dövlət idarəçiliyində etik və hüquqi normaların vəhdətini göstərir və son illərin real təcrübəsi ilə tam təsdiqlənir.



Prezident İlham Əliyev kadr siyasətində keyfiyyətə də xüsusi diqqət yetirdi. O, etibarlı, peşəkar və mənəvi cəhətdən təmiz kadrların seçilməsinin vacibliyini qeyd etdi və bildirdi ki, mərkəzi icra orqanlarında aparılan sağlamlaşdırma siyasəti nəticəsində artıq qanunsuz tapşırıqlar verilməyəcək. Bu, idarəetmədə şəffaflığın və hüququn aliliyinin açıq göstəricisidir. Bütün bunlar kadr islahatlarının yeni mərhələsində mərkəzdən bölgələrə doğru intizamın yayılmasının zəruriliyini göstərdi.

Dövlət başçısı ölkənin bütün bölgələrində son illər həyata keçirilən infrastruktur layihələrinin nəticələrindən də bəhs etdi. Enerji, yol, su, sosial obyektlər sahəsində əldə edilən irəliləyişlər insanların gündəlik həyatına birbaşa təsir edir. Ölkə başçısı vurğuladı ki, sosial ədalət prinsipi yerlərdə dövlət siyasətinin əsas meyarıdır və insanlar hər bir kənddə bunu aydın görməlidir. Bu, dövlət və vətəndaş arasında sosial müqavilənin yeni forması kimi qəbul edilə bilər: dövlət yalnız infrastruktur təmin etməklə kifayətlənmir, həm də ədalət mühitini qoruyur.

Prezident İlham Əliyevin çıxışında məşğulluq və ekoloji balans məsələlərinə də geniş yer verildi. Yerlərdə iş yerlərinin yaradılması, sahibkarlığa dəstək və turizmin inkişafı prioritet olmalıdır. “Yerlərdəki rəhbərlər iş yerlərinin yaradılmasına çalışmalıdırlar. Çünki yerli istehsal həm məşğulluğu təmin edir, həm də iqtisadiyyatı gücləndirir”, – Prezident qeyd etdi.

Bu yanaşma regional iqtisadi siyasətin sosial yönünü göstərir və insanların rifahına birbaşa təsir edir. Eyni zamanda, ekoloji balansın qorunması və qanunsuz fəaliyyətlərin qarşısının alınması məsələsi də diqqət mərkəzindədir. Bakı və Sumqayıt şəhərlərinin ekoloji vəziyyətinin yaxşılaşdırılması, çirklənmiş ərazilərin abadlaşdırılması bu məsələnin uğurlu təzahürüdür.

Ölkə rəhbəri İlham Əliyev çıxışının sonunda yeni təyinat alan məmurlara xalqa xidmət, şəffaflıq və məsuliyyətli idarəçilik prinsiplərinə sadiq qalmağı tapşırdı: “Əminəm ki, siz öz işinizlə bu etimadı doğruldacaqsınız və xalqın rəğbətini qazanacaqsınız”.

Bu sözlər həm tapşırıq, həm də dövlət idarəçiliyinin fəlsəfəsidir – müasir Azərbaycanda etimad təyinatla qazanılsa da, artıq əməl və xidmətlə doğruldulur.

***Elnarə AKİMOVA,***
***Milli Məclisin deputatı,***
***filologiya elmləri doktoru***

**(əvvəli 1-ci səhifədə)**

# İki lider – iki fərqli siyasət

Trampın yanaşması köhnə vərdişlərdən və sentimental ittifaq anlayışından imtina edərək beynəlxalq münasibətləri qarşılıqlı hörmət və ədalətli mənfəət prinsipləri üzərində yenidən qurma cəhdidir. Qlobal güc balansının yenidən formalaşdığı tarixi məqamda öz suveren iradəsi ilə Cənubi Qafqazda yeni reallıqlar yaradan Azərbaycan üçün Trampın bu praqmatik və nəticəyönümlü siyasəti beynəlxalq münasibətlərin ikili standartlardan təmizlənməsi və milli maraqların aliliyi prinsipinə qayıdış kimi oxunur.

Donald Trampın xarici siyasət fəlsəfəsinin təməlində “Öncə Amerika” prinsipi dayanır. Lakin tənqidçilərin təqdim etməyə çalışdığı kimi, bu, təcridçilik və ya dünyadan geri çəkilmə siyasəti deyil. Əksinə, həmin prinsip ABŞ-nin qlobal öhdəliklərini və tərəfdaşlıqlarını milli maraqlar süzgəcindən keçirərək Amerika xalqının vergiləri hesabına başqalarının təhlükəsizliyini və rifahını təmin edən birtərəfli asılılıq münasibətlərinə son qoymağı hədəfləyir. Trampın arqumenti sadə və aydındır: ABŞ onilliklər boyunca NATO çərçivəsində Avropanın təhlükəsizliyinin əsas yükünü çiyinlərində daşıyıb. Həmin müddət ərzində Fransa kimi ölkələr müdafiəyə kifayət qədər vəsait ayırmaq əvəzinə, həmin resursları sosial proqramlara və ABŞ şirkətləri ilə rəqabət aparacaq iqtisadiyyatlarını gücləndirməyə yönəldiblər. İndi isə Avropa ABŞ-ın texnoloji liderliyini hədəfə alan rəqəmsal xidmətlər vergisi kimi proteksionist addımlar atır. Trampın Fransanı Çinlə müqayisə etməsi məhz bu reallığı ətraflı göstərir. Onun üçün bir ölkənin iqtisadi addımları ABŞ-nin maraqlarına zərər vurursa, həmin ölkənin coğrafi mövqeyi və ya tarixi müttəfiqlik statusu tənqiddən yayınmaq üçün əsas ola bilməz. Bu, beynəlxalq münasibətlərə sentimentalizmdən arınmış, sağlam düşüncə və işgüzar praqmatizm gətirən yanaşmadır.

Emmanuel Makronun təmsil etdiyi Avropa elitasının reaksiyası Trampın siyasətinin mahiyyətini daha aydın anlamağa kömək edir. Makronun “strateji müstəqillik” çağırışları Avropanın təhlükəsizliyi üçün məsuliyyəti üzərinə götürmək istəyindən daha çox, ABŞ-ın hərbi çətiri altında qalmağa davam edərkən, iqtisadi və siyasi müstəvidə Vaşinqtondan müstəqil, hətta bəzən ona zidd siyasət yürütmək arzusunu əks etdirir. Avropa ABŞ-nin qlobal liderliyindən faydalanmaq, lakin həmin liderliyin qaydalarına tabe olmaq istəmir. Tramp isə bu ikili oyuna son qoymağı təklif edir. O, deyir ki, əgər Avropa müstəqil qütb olmaq istəyirsə, o zaman müdafiəsinin xərcini tam ödəməli və ticarətdə ədalətli rəqabət prinsiplərinə əməl etməlidir. Fransanın tətbiq etdiyi rəqəmsal xidmətlər vergisi, mahiyyət etibarilə, qlobal rəqabətdə uduzan tərəfin süni maneələr yaratmaqla Amerikanın texnoloji innovasiyasını cəzalandırmaq cəhdidir. Trampın buna sərt reaksiyası azad və ədalətli ticarət prinsiplərinin müdafiəsi və Amerikanın iqtisadi suverenliyinə qarşı yönəlmiş hərəkətlərə qarşı qətiyyətli cavabdır.

Həmin qlobal proseslərə Azərbaycanın son illərdəki təcrübəsi və yaratdığı reallıqlar pəncərəsindən baxdıqda Trampın siyasətinin arxasındakı məntiq daha aydın başa düşülür. Azərbaycan təxminən 30 il boyunca beynəlxalq hüququn işləmədiyi, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin kağız parçasından ibarət qaldığı və Minsk qrupu kimi vasitəçilik formatlarının işğalın status-kvosunu möhkəmləndirməkdən başqa funksiya yerinə yetirmədiyi reallıqla üz-üzə qaldı. Həmin prosesdə həmsədr ölkələrdən biri olan Fransa neytral vasitəçi olmaq əvəzinə, açıq şəkildə işğalçı Ermənistanın yanında yer aldı, daxili siyasi gündəmi və erməni lobbisinin maraqlarını beynəlxalq hüquqdan və ədalətdən üstün tutdu. Bu, ölkəmiz üçün xoşagəlməz amil oldu. Müasir dünyada milli maraqların təminatı üçün beynəlxalq təsisatların və böyük güclərin “xoş məramına” ümid etmək əvəzinə, öz hərbi, iqtisadi və siyasi gücünü formalaşdırmaq yeganə doğru yoldur.



Məhz bu nöqteyi-nəzərdən Donald Trampın beynəlxalq münasibətlərə gətirdiyi praqmatizm və realizm Azərbaycanın xarici siyasət fəlsəfəsi ilə eynilik təşkil edir. Tramp beynəlxalq sistemi yalançı dəyərlər və ikili standartlar pərdəsindən təmizləyərək hər dövlətin ilk növbədə öz milli maraqları üçün çalışdığı reallığını açıq şəkildə bəyan edir. Azərbaycan bu reallığı öz təcrübəsindən artıq bilir. Vətən müharibəsindəki Zəfər Azərbaycan Ordusunun gücünə və Ali Baş Komandanın qətiyyətli iradəsinə söykənərək əldə edildi. Trampın “müttəfiqlər öz öhdəliklərini yerinə yetirməlidir” tələbi Azərbaycanın regional siyasətində tətbiq etdiyi “hər kəs öz gücünə və verdiyi sözə görə məsuliyyət daşıyır” prinsipi ilə üst-üstə düşür. Bu, daha ədalətli və proqnozlaşdırıla bilən dünya nizamının təməlini qoya biləcək yanaşmadır. Çünki əgər hər ölkə öz təhlükəsizliyi və iqtisadiyyatı üçün daha çox məsuliyyət daşıyarsa, o zaman “pulsuz təhlükəsizlik” hesabına aparılan avantürist və təcavüzkar siyasətlər üçün daha az yer qalar.

Trampın siyasəti Azərbaycan kimi suverenliyini və müstəqil siyasət yürütmək haqqını hər şeydən üstün tutan dövlətlər üçün yeni imkanlar açır. Dövlətmiz Avropanın enerji təhlükəsizliyinin təminatında oynadığı strateji rol Şərq-Qərb nəqliyyat dəhlizinin mərkəzi olması və regional sabitliyin qarantı kimi funksiyaları ilə ABŞ üçün məhz belə konkret və əvəzolunmaz tərəfdaşdır. Trampın sövdələşməyə əsaslanan diplomatiyası daxili işlərə qarışmamaq və qarşılıqlı faydalı əməkdaşlığa fokuslanmaq deməkdir. Bu, Azərbaycanın xarici siyasət kursunun təməl prinsipləri ilə tam uyğunluq təşkil edir. Rəsmi Bakı heç kimdən dərs almaq niyyətində deyil və inkişaf modelini müstəqil şəkildə müəyyən edir.

Donald Trampın Fransa ilə bağlı səsləndirdiyi sərt fikirlər illərdir davam edən ədalətsiz sistemin artıq davam etdirilə bilməyəcəyini göstərən sağlamlaşdırıcı prosesin başlanğıcı kimi qiymətləndirilməlidir. ABŞ Prezidenti beynəlxalq münasibətlər sistemini daha ədalətli, daha məsuliyyətli və daha real prinsiplər üzərində qurmağa çalışır. Onun siyasəti suverenliyini, milli maraqlarını və ləyaqətini hər şeydən üstün tutan dövlətlər üçün ümiddir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Azərbaycan və Özbəkistanın iqtisadi potensialı ortaqlaşır

## *İqtisadi-ticari əməkdaşlığın dinamikası isə məmnunluq doğurur*

**Prezident İlham Əliyev Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) verdiyi müsahibədə iki ölkə arasında mövcud strateji əməkdaşlığın əsas istiqamətləri - iqtisadi, tranzit və ticarət münasibətləri barədə geniş fikir mübadiləsi aparıb. Dövlət başçısı Azərbaycan və Özbəkistanın bir-birini tamamlayan iqtisadi potensialını vurğulayaraq, qarşılıqlı investisiya təşəbbüsləri, nəqliyyat-logistika imkanları və sənaye əməkdaşlığının regional inkişafın mühüm dayaqlarından birinə çevrildiyini diqqətə çatdırıb.**



Azərbaycan və Özbəkistan arasında iqtisadi əməkdaşlıq bu gün həm strateji tərəfdaşlıq, həm də konkret nəticələr baxımından ciddi inkişaf mərhələsindədir. Ölkə başçısının vurğuladığı kimi, təkcə Hökumətlərarası Komissiyanın fəaliyyəti iqtisadi əlaqələrin dərinləşdirilməsi və perspektivli layihələrin müəyyənləşdirilməsi istiqamətində önəmli rol oynayır. Mütəmadi keçirilən Azərbaycan–Özbəkistan Regional Forumu isə bu əməkdaşlığın təşviqi və konkret nəticələrə çevrilməsi üçün səmərəli platforma rolunu yerinə yetirir.

Azərbaycan qardaş Özbəkistanla iqtisadiyyatın bütün sahələrində əməkdaşlığı genişləndirməyə hazırdır və bu istiqamətdə güclü siyasi iradə və potensial mövcuddur. Artıq imzalanmış 200-ə yaxın sənəd iqtisadi münasibətlər üçün etibarlı hüquqi zəmin yaradır, həmçinin xalqlarımız arasında dostluq və tərəfdaşlıq əlaqələrinin möhkəmlənməsinə xidmət edir. Azərbaycan bundan sonra da qarşılıqlı faydalı əməkdaşlığı dəstəkləyərək iki ölkə arasında iqtisadi inteqrasiyanın daha da dərinləşməsinə töhfə verəcək.

Özbəkistanla əməkdaşlığın prioritet istiqamətlərindən biri nəqliyyat və logistika sahəsində şaxələndirilmiş infrastrukturun inkişafıdır. Bu əməkdaşlıq, xüsusilə Orta Dəhliz Beynəlxalq Nəqliyyat Marşrutunda hər iki ölkənin fəal iştirakı ilə daha da əhəmiyyət qazanır. Azərbaycan burada Mərkəzi Asiya ölkələri üçün əsas tranzit qovşağı rolunu oynayır, bu da ixrac imkanlarının və yükdaşımaların sürətlə artmasına təkan verir.

Rəsmi statistikaya görə, 2024-cü ildə ölkələr arasında tranzit daşımaların həcmi 2023-cü illə müqayisədə 18 faizdən çox artaraq 1,3 milyon tonu keçib. 2025-ci ilin yanvar-sentyabr aylarında isə bu rəqəm təxminən bir milyon tona çatıb ki, bu da nəqliyyat sahəsində əməkdaşlığın dinamik inkişafını nümayiş etdirir.

Ölkə başçısı İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın müasir nəqliyyat infrastrukturu bu prosesləri daha da sürətləndirir. Ələt Beynəlxalq Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu və doqquz beynəlxalq hava limanı ölkənin regional logistika qovşağı kimi rolunu gücləndirir. Yaxın gələcəkdə Ələt Limanının illik tranzit gücü 25 milyon tona çatacaq. Bundan əlavə, Zəngəzur dəhlizinin açılması Mərkəzi Asiya ölkələrinə əlavə tranzit imkanları təqdim edəcək.

Energetika sahəsində əməkdaşlıq həm də "yaşıl enerji"nin inkişafına yönəlib. 2016-cı ildən fəaliyyət göstərən "Neftegaztexnologiya" birgə müəssisəsi isə texnoloji təcrübə mübadiləsini təmin edir. 2024-cü ildə Azərbaycan, Qazaxıstan və Özbəkistan enerji sistemlərinin inteqrasiyasını və bərpaolunan enerji mənbələrinin istifadəsini təşviq edən bir sıra saziş və memorandumlar imzalayıb ki, bu da regionda davamlı inkişaf və enerji əməkdaşlığının möhkəmlənməsinə yeni imkanlar yaradır.

***Ekspert rəyi***



**Vüqar BAYRAMOV,**
**Milli Məclisin deputatı**

Azərbaycan və Özbəkistan arasında iqtisadi sahədə strateji tərəfdaşlığın dərinləşməsi müşahidə olunur. Bu əməkdaşlıq həm ticarət dövriyyəsinin artımında özünü göstərir, həm də müxtəlif sahələrdə aparılan müzakirələr və birgə təşəbbüslərlə reallaşır.

Prezident İlham Əliyev qeyd etdi ki, 2024-cü ildə iki ölkə arasındakı əmtəə dövriyyəsi 252 milyon ABŞ dolları təşkil edib. 2025-ci ilin yanvar–sentyabr aylarında isə bu göstərici keçən ilin eyni dövrü ilə müqayisədə 87,5 faiz artaraq 319 milyon ABŞ dollarına çatıb. Sərmayə qoyuluşu sahəsində də əməkdaşlıq güclənməkdədir. Özbəkistan bugünədək Azərbaycan iqtisadiyyatına 21,8 milyon ABŞ dolları, Azərbaycan isə Özbəkistan iqtisadiyyatına 183,5 milyon ABŞ dolları həcmində sərmayə yatırıb. 2023-cü ildə isə hər iki ölkənin daxilində və üçüncü ölkələrdə sərmayə qoyuluşunu nəzərdə tutan ümumi kapitalı 500 milyon ABŞ dolları olan Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti yaradılıb. Bu təşəbbüs ölkələr arasındakı iqtisadi tərəfdaşlığın möhkəmlənməsinə, həmçinin birgə layihələrin maliyyələşdirilməsinə yeni imkanlar açır.

Elektron xidmətlərin vahid platforma üzərindən təşkili və yeni texnoloji yanaşmalar ölkələr arasındakı iqtisadi münasibətlərin səmərəliliyini artırır. Azərbaycan və Özbəkistan rəhbərlərinin qarşılıqlı səfərləri və əməkdaşlıq təşəbbüsləri bu əlaqələrə pozitiv təsir göstərir, tərəflər müxtəlif platformalarda təcrübə mübadiləsi apararaq bir-birinin inkişafına dəstək olurlar.

Qardaş Özbəkistan həm Türk dünyasında, həm də Mərkəzi Asiyada aparıcı ölkələrdən biridir. Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan-Türk dövlətləri arasında münasibətlərin dərinləşməsi bu regionda iqtisadi inteqrasiyanı gücləndirir. Bu kontekstdə Azərbaycan və Özbəkistan arasındakı tərəfdaşlıq iqtisadi əlaqələrin daha da inkişafına və ticarət dövriyyəsinin artmasına təkan verəcək.

**Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 30-cu sessiyasında (COP30) "Böyük Qayıdış" proqramı çərçivəsində azad edilən ərazilərdə "ağıllı" və "yaşıl" şəhərsalma modelini təqdim edib.**

## Ölkəmiz COP30-da "ağıllı şəhər" modelini təqdim edib



Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Braziliyanın Belem şəhərində keçirilən tədbirdə iştirak edib. Anar Quliyev Şəhərsalma və İqlim Dəyişikliyi üzrə Nazirlər İclasında çıxış edərək mənzil və iqlim problemlərinin həllində çoxsəviyyəli əməkdaşlığın vacibliyini vurğulayıb.

Komitə sədri "Böyük Qayıdış" proqramı çərçivəsində azad olunmuş ərazilərdə aparılan bərpa işlərini beynəlxalq auditoriyaya təqdim edib, bu prosesin "ağıllı" və "yaşıl" prinsiplərə əsaslandığını bildirib. O, həmçinin Azərbaycanın Bakı Davamlılıq Koalisiyasındakı və BMT-nin "Hər kəs üçün münasib mənzil" üzrə İşçi Qrupundakı həmsədrlik rolunun iqlim və şəhərsalma gündəliyinin inteqrasiyasına töhfə verdiyini qeyd edib.

Səfər zamanı Braziliyanın şəhərlər naziri Jader Filho ilə görüşən Anar Quliyev dayanıqlı şəhər inkişafı və inklüziv planlaşdırma üzrə əməkdaşlıq imkanlarını müzakirə edib. O, həmçinin Bakıda keçiriləcək 13-cü Ümumdünya Şəhərsalma Forumuna (WUF13) hazırlıqlar barədə məlumat verib və iştirakçıları bu mühüm tədbirə dəvət edib.

## Mərkəzi Asiya ölkələri ilə investisiya tərəfdaşlığı genişləndiriləcək

**Azərbaycan və Mərkəzi Asiya ölkələri iqtisadi əməkdaşlığın genişləndirilməsi və yeni investisiya tərəfdaşlığı mexanizmlərinin hazırlanması barədə razılığa gəlib.**

Razılaşma Daşkənddə keçirilən Azərbaycan və Mərkəzi Asiya ölkələrinin Ticarət və İnvestisiya Nazirləri Şurasının I iclasında əldə olunub. Görüşdə Azərbaycanı iqtisadiyyat nazirinin I müavini Elnur Əliyev təmsil edib. Tərəflər qarşılıqlı ticarətin və sənaye inteqrasiyasının inkişafı, regional ticarət dövriyyəsinin illik 20 milyard ABŞ dollarına çatdırılması, "Made in Central Asia" brendi altında birgə istehsal meydançalarının yaradılması və beynəlxalq investorların regional layihələrdə iştirakı məsələlərini müzakirə ediblər.

Özbəkistanın Mərkəzi Asiya ölkələri ilə ticarət dövriyyəsi 2017-ci ildəki 3,2 milyard dollardan 2024-cü ildə 6,9 milyard dollara yüksəlib. Azərbaycanla ticarət dövriyyəsi isə bu ilin əvvəlindən 13 faiz artıb.

İclasın sonunda iqtisadi və sənaye əməkdaşlığının dərinləşdirilməsi, birgə istehsal və investisiya tərəfdaşlığının yeni mexanizmlərinə dair birgə kommünike imzalanıb.

# Azərbaycanın "yaşıl sabahı"na Çin texnologiyasının töhfəsi

## *Ölkənin bərpaolunan enerji sektoru sürətlə inkişaf edir*

**Prezident İlham Əliyevin noyabrın 12-də "China Datang Corporation Ltd." şirkətinin Direktorlar Şurasının sədri Lü Cün rəhbərliyində olan nümayəndə heyətini qəbul etməsi Azərbaycan – Çin iqtisadi dialoqunda növbəti müsbət amilin göstəricisi oldu. Görüş zamanı Çin şirkətinin geniş tərkibli nümayəndə heyətinin Bakıya səfərinin əməkdaşlığın gələcək istiqamətlərinin müzakirəsi baxımından xüsusi önəm daşıdığı vurğulandı.**

Hazırda bir çox Çin şirkətinin Azərbaycanda fəaliyyət göstərməsi buna əyani misaldır. Üstəlik, ölkəmiz ilə "China Datang Corporation Ltd." şirkəti arasında enerji keçidi, yaşıl enerji və yaşıl sənaye parkı layihələri ilə bağlı fikir mübadiləsi formalaşan yeni enerji mühitində olduqca önəmlidir.

Yeri gəlmişkən, energetika naziri Pərviz Şahbazovun sözügedən şirkətin nümayəndə heyəti ilə görüşü də enerji sektorunun iki ölkə arasında strateji tərəfdaşlığın əsas dayaqlarından biri olduğunu göstərir. "China Datang Overseas Investment Co. Ltd"



şirkəti ilə quruda 100 MVt gücündə günəş, dənizdə isə 2 QVt gücündə külək enerjisi layihələrinin reallaşdırılması planlaşdırılır. Layihələr "Yaşıl Enerji Dəhlizi" təşəbbüsünün reallaşmasına töhfə vermək məqsədi daşıyır. Bu, regionda bərpaolunan enerji sahəsində Azərbaycanın liderliyini daha da gücləndirəcək.

Müzakirələrdə dəniz küləyi layihələrinin həyata keçirilməsi üçün texniki və iqtisadi məsələlər dəyərləndirilib. Külək turbinlərinin daşınması və quraşdırılması, avadanlıqların yerli istehsalının təşkili, sualtı kabellər və enerjinin ötürülməsi üzrə detallı fikir mübadiləsi aparılıb. Bu istiqamətdə atılan addımlar gələcəkdə Azərbaycanın yaşıl enerji ixracatçısına çevrilməsi ehtimalını artırır. Görüşdə günəş enerjisi sahəsində əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri də diqqət mərkəzində olub. Tərəflər bu sahədə əməkdaşlığın ekoloji baxımdan böyük əhəmiyyət daşıdığını vurğulayıblar.

Energetika Nazirliyi, "China Datang Overseas Investment Co. Ltd" və "SOCAR Green" MMC arasında imzalanan icra müqaviləsi Azərbaycan–Çin tərəfdaşlığının konkret nəticəyə çevrilməsini təmin edir. Bu sənəd iki ölkə arasında yaşıl enerji sahəsində dərin iqtisadi inteqrasiyanın göstəricisidir.

Bir məqamı da xatırladaq ki, ölkə başçısının bu ilin aprel ayında Çinə səfəri əldə olunan razılaşmaların nüvəsini təşkil edir. Belə ki, səfər çərçivəsində bərpaolunan enerji sahəsində əməkdaşlığa dair 6 sənəd imzalanmışdı və bu 260 MVt gücündə günəş elektrik stansiyaları, 100 MVt-lıq üzən günəş elektrik stansiyası, 30 MVt gücündə batareya enerji saxlanc sistemi, dənizdə minimum 2 QVt gücündə külək elektrik stansiyasının inşası, daha 2 MVt gücündə külək enerjisi layihəsinin inkişafı, eləcə də bərpa olunan enerji və elektrik enerji sisteminin planlaşdırılması üzrə əməkdaşlığı əhatə edir.

Nəzərə almaq lazımdır ki, Çin Azərbaycanın 4-cü ən böyük ticarət tərəfdaşına çevrilib. Belə ki, 2025-ci ilin yanvar-aprel aylarında Azərbaycan və Çin arasında ticarət dövriyyəsi 37 faiz artaraq 1.4 milyard ABŞ dollarını üstələyib. Bu ilin yanvar-fevral aylarında Azərbaycanla Çin arasında ticarət əməliyyatlarının həcmi 745,4 milyon ABŞ dolları təşkil edib. Göstəricilər 2024-cü ilin eyni aylarındakı göstərici ilə müqayisədə 262,1 milyon ABŞ dolları və ya 54,2 faiz çoxdur. Həmin dövrdə Azərbaycandan Çinə 10,9 milyon dollarlıq məhsul ixracı qeydə alınıb. Bu, 2024-cü ilin eyni dövrü ilə müqayisədə 8,8 milyon ABŞ dolları və ya 5,3 dəfə çoxdur.

***Ekspert rəyi***



**Elman SADIQOV,**
**iqtisadçı ekspert**

Bu sənədin əhəmiyyəti yalnız 100 MVt gücündə günəş elektrik stansiyasının tikintisi ilə məhdudlaşmır. Gələcəkdə 2 QVt gücündə dənizdə külək enerjisi layihəsinin reallaşdırılması, enerji saxlanc sistemlərinin yaradılması, "Yaşıl Enerji Dəhlizi" təşəbbüsü və Azərbaycanla Çin arasında enerji mütəxəssislərinin təcrübə mübadiləsini nəzərdə tutan əməkdaşlıq da planlaşdırılır. Azərbaycan üçün yaşıl enerji sektoru yeni inkişaf mərhələsindədir. Bu səbəbdən mütəxəssislərin hazırlanması, onların bilik və bacarıqlarının artırılması xüsusi əhəmiyyət kəsb edir. Bu istiqamətdə əməkdaşlıq iki ölkə arasında bağlanan müqavilələrin vacib tərkib hissəsidir.

Qeyd edilməlidir ki, 12 noyabrda imzalanan bu müqavilələrin əsası Prezident İlham Əliyevin Çin Xalq Respublikasına rəsmi səfəri zamanı müxtəlif Çin şirkətlərinin rəhbərləri ilə keçirdiyi görüşlərdə qoyulub. Həmin görüşlər nəticəsində əldə olunan ilkin razılaşmalar indi konkret layihələr şəklində həyata keçirilir.

Gözlənilir ki, yaxın gələcəkdə digər Çin şirkətləri ilə də SOCAR, Energetika Nazirliyi və digər dövlət qurumları arasında yeni müqavilələr imzalanacaq. Bu razılaşmaların bir qismi süni intellekt və yeni texnologiyalar sahəsini, bir qismi isə elektriklə işləyən nəqliyyat vasitələrinin istehsalı, ekoloji və infrastruktur layihələrini əhatə edəcək. Tullantıların təmizlənməsi, göllərin və çirklənmiş su hövzələrinin bərpası üzrə əməkdaşlıq da gündəmdədir.

İmzalanan 100 MVt gücündə günəş elektrik stansiyası layihəsi üçün təxminən 700 milyon ABŞ dolları həcmində investisiya nəzərdə tutulur. Bu məbləğ texniki şərtlərdən, istifadə ediləcək avadanlıqlardan və bazar qiymətlərindən asılı olaraq dəyişə bilər. Layihənin icrası zamanı təxminən 100–200 nəfər müvəqqəti, 30–40 nəfər isə daimi işlə təmin olunacaq. Bu da yeni iş yerlərinin yaradılması baxımından mühüm hadisədir.

Ən önəmli məqamlardan biri isə "Yaşıl Enerji Dəhlizi" konsepsiyasının formalaşmasıdır. Bu dəhliz vasitəsilə Azərbaycanda istehsal olunan bərpaolunan enerji beynəlxalq bazarlara ixrac ediləcək. Xüsusilə Avropa ölkələri üçün elektrik enerjisinə artan tələbat fonunda bu istiqamət getdikcə daha da aktuallaşır.

***Ekspert rəyi***



**Azər BADAMOV,**
**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini**

Çin üçün Azərbaycan vacib geostrateji əhəmiyyətə və mövqeyə malik tərəfdaşdır. Azərbaycan coğrafi mövqeyi ilə nəqliyyat və kommunikasiyaların mərkəzində dayanmaqla Çini, Orta Asiyanı və Avropanı birləşdirir, etibarlı tranzit mərkəzi kimi fəaliyyət göstərir. Azərbaycan həm də Çinə Rusiyanı əhatə edən Avropaya yeganə quru yoluna çıxış da təklif edir.

Azərbaycan-Çin ticarət dövriyyəsinin artırılması ilə bağlı qurulan böyük planlar hər iki tərəfin iqtisadi potensialına da, siyasi iradəsinə də uyğundur, maraqlarımıza cavab verir. Çinin şəhərlərindən Azərbaycana, burdan da Qərbə konteyner qatarları yola salınır. Qatarların sayı hər keçən il artır. Dövlət başçımız forumda onların daha da artacağı ilə bağlı əminlik ifadə etmişdi. Azərbaycan Si Cinpin tərəfindən irəli sürülən "Bir kəmər, bir yol" təşəbbüsünü lap öncədən dəstəkləyən tərəfdir. Ölkədə məhz bu təşəbbüsə uyğun nəqliyyat-logistika infrastrukturunun hazır edilməsi Azərbaycanın yanaşmasının aydın, konkret ifadəsidir. Çin tərəfindən Mərkəzi Asiyada maliyyələşdirilən yeni dəmir yolu arteriyaları Xəzər dənizindən ölkəmizə, sonra isə beynəlxalq marşrutlar boyu yük axınlarının həcminin artmasına gətirib çıxaracaq.

Bərpaolunan enerji enerjinin yeni növü kimi üzə çıxmaqla yanaşı, öz reallıqlarını da diktə edir. Bu reallıqların realizəsi yolunda etibarlı tərəfdaşlıqlar qurulmalıdır. Çünki inşası kifayət qədər vəsait tələb edən layihələrə başlamaq üçün ilk növbədə qarşılıqlı inam və etimad olmalıdır. Bu gün qabaqcıl Çin şirkətləri Günəş elektrik stansiyalarının tikintisi layihələrinin reallaşmasında podratçı qismində fəal iştirak edirlər. Bərpaolunan enerjiyə keçid, yaşıl enerji və yaşıl sənaye parkı layihələrinin icrası ilə Azərbaycan - Çin iqtisadi münasibətlərinin yeni bir xətti açılacaq, bu istiqamət daha da genişlənəcək. Çin şirkətləri bu istiqamətdə maraq göstərməklə yanaşı, həm də rəqabət içindədirlər. Çinin "China Datang Corporation Ltd." şirkəti bu sahənin ən mötəbər şirkətlərindən biridir. Bütövlükdə qeyd etməliyik ki, Azərbaycanda investor şirkətlər tərəfindən alınan Günəş panelləri Çin istehsalıdır. Çin şirkətləri ilə Azərbaycan bərpaolunan enerjinin həm günəş, həm də külək enerjisi sahəsində əməkdaşlığa başlayıb. Bu vaxta qədər imzalanan sazişlərə əlavə olaraq sözügedən şirkətlə də əməkdaşlığın qurulması, dərinləşdirilməsi mövcud sahədə daxil olmaqla qarşılıqlı faydalı əməkdaşlığımıza mühüm töhfə verəcək.

Çin ilə Azərbaycan münasibətləri dövlət başçıları səviyyəsində yüksək olmaqla, habelə nazirlər səviyyəsində olduqca fəal siyasi dialoq gedir. Bu isə əməkdaşlığın müxtəlif profillər üzrə dərinləşdirilməsinə gətirib çıxaracaq. Bütün bunlara əlavə olaraq Çində Azərbaycanın bir neçə ticarət evinin fəaliyyət göstərməsi də perspektivləri artırır.

*Səhifəni hazırladı: Nurlan ABDALOV*
*XQ*



# Dövlət vəzifəsi xalqa xidmət üçün etimaddır

## Bölgələrin idarəetmə sistemində dəyişikliklərin hədəfi belədir

**Prezident İlham Əliyev noyabrın 12-də Naxçıvan Muxtar Respublikasında Prezidentin yeni səlahiyyətli nümayəndəsini və bir sıra rayonların icra hakimiyyətlərinə təyin olunan başçılarını qəbulu zamanı etdiyi çıxışında bu təyinatların bölgənin idarəetmə sistemində dəyişikliklərin başlanğıcı kimi mühüm mərhələ olduğunu bildirib. Dövlət başçısı, eyni zamanda, regional inkişafı gerçəkləşdirəcək siyasətin daim diqqətdə saxlanılacağı və bu istiqamətdə önəmli addımların atılacağı anonsunu da verib.**

Dövlət başçısı nitqində regionlarda idarəetmənin gücləndirilməsi ilə bağlı qarşıya qoyulan vəzifələrdən danışarkən diqqəti dövlət idarəetməsində şəffaflığın və hesabatlılığın yüksəlməsinə yönəldib və yeni təyin edilən rəhbərlər vasitəsilə bölgədəki icra strukturlarının fəaliyyət mexanizminin optimallaşdırılmasının, rayonların sosial-iqtisadi inkişaf proqramlarının nəzərdə tutulan vaxtda həyata keçirilməsinin həm bölgələrin simasının müasirləşməsinə, həm də əhalinin sosial şəraitinin daha da yaxşılaşmasına müsbət təsir göstərəcəyinə əminliyini bildirib.

Yeri gəlmişkən, ölkə rəhbəri İlham Əliyevin Naxçıvan Muxtar Respublikasında Prezidentin səlahiyyətli nümayəndəsini və bir sıra rayon icra hakimiyyətinin başçısını qəbulu zamanı verdiyi mesajlar Naxçıvan və ətraf rayonlar üçün müəyyən inkişaf prioritetlərinin – infrastrukturun gücləndirilməsi, nəqliyyat logistikası, kənd təsərrüfatı potensialının daha səmərəli istifadəsi, turizm imkanlarının açılması və insan kapitalının yüksəldilməsi məsələlərinin ön planda olacağını göstərir. Xüsusilə Naxçıvanın coğrafi yerləşməsi muxtar respublikanın Türkiyə – İran əlaqələrində, regional tranzit və nəqliyyat şəbəkələrində oynaya biləcəyi rola görə strateji əhəmiyyət daşıyır.

Prezident İlham Əliyevin çıxışında söylədiyi fikirlər Azərbaycanın regional inkişaf siyasətinin artıq dayanıqlı mərhələyə daxil olduğunu bir daha təsdiq edir. Dövlətimizin başçısının "əsas infrastruktur layihələri demək olar ki, başa çatıb" sözləri isə təkcə faktı deyil, həm də yeni mərhələnin başlandığını göstərir.

Xatırladaq ki, ötən illərdə qəbul edilən 3 regional inkişaf proqramı ölkənin bütün bölgələrində sosial-iqtisadi dinamikanın canlanmasına səbəb olub. Bu proqramların icrası ilə yüzlərlə kənd və şəhərin infrastruktur xəritəsi tam dəyişilib. Elektrik enerjisi, qazlaşdırma, yollar, su və sosial infrastruktur sahələrində əldə edilən uğurlu nəticələr sayəsində Azərbaycanın regionları yeni iqtisadi və sosial keyfiyyət mərhələsinə yüksəlib. Prezident İlham Əliyevin nitqində vurğuladığı "artıq elektrik enerjisi təminatında ciddi problem yoxdur, ölkə boyu şəbəkə müasir texnoloji tələblərə cavab verir" sözləri də artıq beynəlxalq aləmdə Azərbaycanın regional idarəetmə modelinin mühüm nailiyyəti, dövlət siyasətinin məqsədyönlü, planlı və ardıcıl icrası nəticəsində şəhərlə kənd arasındakı fərqin getdikcə azalması kimi dəyərləndirilib.

Qeyd edək ki, respublikamızda yaradılan infrastruktur təkcə yollar və elektrik xətləri deyil, bu, həm də sosial rifahın təməlidir. Ölkə rəhbərinin bildirdiyi kimi, hazırda bütün şəhərlərdə müasir xəstəxanalar, məktəblər, idman obyektləri fəaliyyət göstərir. Sosial infrastrukturun yenilənməsi dövlət siyasətinin mərkəzində insan amilinin dayanmasından xəbər verir. İçməli su və suvarma layihələrinin genişlənməsi isə həm insanların həyat şəraitinə, həm də kənd təsərrüfatının inkişafına birbaşa təsir göstərir.

Prezident İlham Əliyevin "bütün şəhərlərdə içməli su layihələri icra edilir" fikri də dövlət siyasətinin hərtərəfli xarakterini nümayiş etdirir. Artıq kəndlərdə bu sahədə ciddi dönüş müşahidə olunur, yeni su anbarları, kanallar, müasir sutəmizləmə sistemləri regionlarda ekoloji balansı qorumaqla yanaşı, ərzaq təhlükəsizliyini də gerçəkləşdirir. Magistral və kənd yollarının yenilənməsi isə regionların iqtisadi həyatını canlandıran amillərdəndir. 70-80 faiz kənd yollarının təmir olunması təkcə nəqliyyat rahatlığını deyil, həm də ticarət dövriyyəsini artırır, kənd təsərrüfatı məhsullarının bazara çıxışını asanlaşdırır.

Azərbaycan liderinin çıxışında xüsusi vurğulanan istiqamətlərdən biri də məşğulluq məsələsidir. Son illər həyata keçirilən struktur islahatları nəticəsində işsizliyin səviyyəsinin minimuma enməsi də bunun bariz ifadəsidir. Bununla belə, dövlət başçısı realist şəkildə etiraf edir ki, bölgələrdən Bakıya miqrasiya meyilləri hələ də qalmaqdadır. Bu problem təkcə Azərbaycana məxsus deyil, bütün inkişaf etmiş ölkələrdə şəhərləşmə prosesi müşahidə olunur.

Ancaq Prezident İlham Əliyevin yanaşması fərqlidir: məqsəd miqrasiyanı inzibati deyil, iqtisadi yollarla tənzimləməkdir. Bunun üçün dövlət müxtəlif mexanizmlər, məsələn, güzəştli kreditlər, özünüməşğulluq proqramı, kiçik və orta biznesin dəstəklənməsi vasitəsilə regionlarda iş yerlərinin yaradılmasını stimullaşdırır.

Dövlət başçısı nitqində ölkədə kənd təsərrüfatı və turizmin inkişafı məsələsinə də toxunub. Ölkə rəhbəri Azərbaycanın bölgələri üçün hər iki sahənin sürətli dirçəliş nəticəsində iki paralel istiqaməti kimi formalaşdığını, birgə inteqrasiyasını xüsusilə önə çəkib. Bildirib ki, dövlətin son illərdə aqrar sektora verdiyi dəstək, məsələn, texnika parklarının yaradılması, subsidiya mexanizmlərinin təkmilləşdirilməsi və aqrar sığortanın tətbiqinin kənd təsərrüfatının müasir bazar prinsipləri ilə idarə olunmasına şərait yaradıb. Turizm isə regionların iqtisadi həyatına yeni nəfəs gətirib. Xüsusilə təbiəti, mədəni irsi və iqlimi ilə fərqlənən bölgələrdə bu sahə minlərlə iş yerinin yaranmasını şərtləndirib.

Prezident İlham Əliyevin fikrincə, turizmin inkişafı kənd təsərrüfatı ilə birgə regionların əsas iqtisadi dayağı olmalıdır. Bu, həm də qeyri-neft sektorunun dərinləşməsinə, Azərbaycanın iqtisadi müstəqilliyinin daha da möhkəmlənməsinə xidmət edir.

Onu da deyək ki, bu gün Azərbaycanın yeni inkişaf strategiyasında ekoloji siyasət mühüm yer tutur. Prezident İlham Əliyevin "bölgələrdə ekoloji tarazlıq qorunmalıdır" fikri isə müasir çağırışlara cavab verən prinsipial mövqedir. Yeri gəlmişkən, ölkənin ekoloji mənzərəsində son illər baş verən dəyişikliklər Bakının timsalında öz təsdiqini tapır. "Qara şəhəri Ağ şəhərə çevirdik" ifadəsi də həm simvolik, həm də praktiki məna daşıyır. Yəni neftlə çirklənmiş ərazilərin rekultivasiyası, yeni parkların salınması, sənaye müəssisələrinin ekoloji standartlara uyğunlaşdırılması Azərbaycanın ekoloji siyasətinin əsas uğurlarıdır.

Bu modelin regionlara tətbiqi artıq başlanıb. Dövlət başçısının göstərişi ilə çayların məcralarının dəyişdirilməsinə, tikinti materiallarının qanunsuz hasilatına qarşı ciddi nəzarət mexanizmlərinin tətbiqi xüsusi diqqətdə saxlanılıb. Bu, təkcə təbiətin qorunması deyil, həm də gələcək nəsillər üçün ekoloji təhlükəsizliyin təmin edilməsidir.

Prezident İlham Əliyevin çıxışında "regionların inkişafında yeni mərhələ" ifadəsinin işlədilməsi bölgələrin sabit iqtisadi artım yoluna çıxması üçün zəmin yaradıldığını göstərir. Yeni icra başçılarının təyinatı bu baxımdan xüsusi diqqət çəkir. Bu, qarşıya qoyulan vəzifələrin gerçəkləşməsində yeni strategiya icraçılarının həmişəkindən daha çox məsuliyyət daşıyacaqlarından, eləcə də bölgənin konkret sosial-iqtisadi göstəricilərinə məsul orqanlar kimi çıxış edəcəklərindən xəbər verir.

Ümumiyyətlə, bu təyinatlar həm də mərkəzlə bölgənin əlaqələrinin daha da möhkəmləndirilməsi, qərarların səmərəli icrası və nəzarət mexanizmlərinin gücləndirilməsi istiqamətində əməli addım kimi dəyərləndirilə bilər. Prezident İlham Əliyevin çıxışından da aydın olur ki, hökumət bölgələrdən xüsusilə konkret nəticələr tələb edir. İcra hakimiyyəti başçılarının dəyişdirilməsi isə bu nəticə yönümlü yanaşmanın birbaşa göstəricisidir. Bu baxımdan Naxçıvan kimi muxtar və strateji əhəmiyyətli bölgədə səlahiyyətli nümayəndənin yenilənməsi mərkəzi icra hakimiyyəti tərəfindən qədim diyara diqqət və qayğının artmasının və regionun idarə edilməsində dinamik bir mərhələyə keçidin ifadəsidir.

Amma belə dəyişikliklər – idarəetmənin yenilənməsi və inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi həm də bəzi çətinliklərlə müşayiət olunur. İlk növbədə, yeni təyin olunan icra başçıları və nümayəndə üçün bölgənin reallıqları ilə uyğunlaşmaq, yerli struktur və vərdişlərlə işləmək tələb olunur. Məsələn, infrastruktur layihələrinin icrası, kənd təsərrüfatı sahəsinin modernləşdirilməsi, təhsil və səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması kimi məsələlər daha çox yerli şəraitdən asılıdır və sadəcə qərarla deyil, həm də təşəbbüslə, əzmkarlıqla, operativliklə, ən əsası isə dövlət başçısının siyasətini daim rəhbər tutmaqla gerçəkləşdirilir.

Bütün bunlarla yanaşı, yeni mərhələdə gənclərin işlə təminatı, urbanizasiya prosesləri və sosial infrastrukturun yenilənməsi kimi məsələlərdə yerli idarəçilik böyük məsuliyyət daşıyacaq. Yeni icra başçılarının qarşısında duran əsas məqsədlərdən biri həm yerli problemləri vaxtında aşkarlamaq, həm də çətinlikləri mərkəzin müəyyənləşdirdiyi strateji hədəflərlə uzlaşdırmaq olacaq.

Uzunmüddətli perspektivdə bu addımlar regionun təkcə inkişafına deyil, eyni zamanda, xarici investisiya və beynəlxalq tranzit imkanlarının artmasına da töhfə verəcək. Naxçıvanın coğrafi mövqeyi və Azərbaycanın yeni regional nəqliyyat dəhlizlərində oynayacağı rol nəzərə alınsa, burada idarəetmənin yenidən qurulması strateji əhəmiyyət daşıyacaq. Daha konkret desək, əgər region icra hakimiyyəti başçıları və səlahiyyətli nümayəndə sistemi səmərəli fəaliyyət göstərəcəyi təqdirdə, layihə icrası şəbəkələri (yol, enerji, logistika) sürətlə inkişaf edəcək, bu isə bölgənin iqtisadi artımını və sosial rifahını artıracaq. Nəticədə yerli icra strukturlarının gücləndirilməsi mərkəzin bölgəyə daha az "müdaxilə", amma daha çox "koordinasiya" roluna keçməsinə imkan verəcək.

Azərbaycan liderinin sözügedən təyinatları yalnız daxili idarəetmə çərçivəsində qiymətləndirilməməlidir. Respublikamız son illərdə regionun enerji, nəqliyyat, geosiyasət sahələrində fəal rol oynamaqla bərabər, yerli idarəetmə sistemində də islahatlara önəm verir. Bu istiqamətdəki addımlar dövlətin "yuxarıdan" bölgələrə, necə deyərlər, səpələnmiş qərarlarla deyil, "mərkəz-bölgə" əməkdaşlığı ilə idarəetməni modernləşdirmə niyyətini əks etdirir.

Bu da, öz növbəsində, Azərbaycanın beynəlxalq arenadakı mövqeyini gücləndirir. Məsələn, xarici investisiyanın cəlbi üçün yalnız infrastrukturun mövcudluğu kifayət deyil, həmçinin yerli idarəetmə mühitinin yaradılması da vacib şərtdir. Yeni başçıların və səlahiyyətli nümayəndənin bu vəzifənin həyata keçirilməsində əsas rol oynayacağı da ən mühüm amillərdən biridir.

Dövlətimizin başçısının noyabrın 12-də Naxçıvan Muxtar Respublikasında Prezidentin səlahiyyətli nümayəndəsini və bir sıra rayonların icra hakimiyyətlərinə təyin olunan başçılarını qəbulu zamanı çıxışı yeni idarəetmə paketinin başlanğıcı kimi qiymətləndirilə bilər. Bu isə əsasən regionun inkişaf istiqamətinin yenidən müəyyənləşdirilməsi, idarəetmənin çevikləşdirilməsi və mərkəz-bölgə əlaqələrinin gücləndirilməsi anlamına gəlir. Naxçıvan kimi xüsusi əhəmiyyətli bölgədə atılan bu addım həm də ciddi bir mesajdır: "Bu region bizim üçün prioritetdir, burada nəticə tələb olunur".

Beləliklə, yuxarıda vurğulanan məsələlərin həlli istiqamətində gerçəkləşdirilən layihələr gələcəkdə Naxçıvan Muxtar Respublikasının, eləcə də digər rayonların sosial-iqtisadi inkişafında sıçrayışı şərtləndirəcək. Bununla da bu prosesdə izlənilməsi lazım olan vacib göstəricilərə – layihələrin vaxtında tamamlanması, şəffaf hesabatlıq, investisiyaların cəlb edilməsi və yerli əhaliyə iş imkanlarının artırılmasına nail olunacaq.

Son illərdə Azərbaycanın bütün bölgələrində həyata keçirilən genişmiqyaslı layihələr dövlətimizin başçısının şəxsən rəhbərlik etdiyi regional inkişaf siyasətinin real nəticələridir. 9 beynəlxalq hava limanı, yeni dəmir yolları, magistral avtomobil xətləri, müasir elektrik və su infrastrukturu, qazlaşdırmanın 100 faizə yaxın səviyyəsi, yeni məktəblər, xəstəxanalar – bütün bunlar Azərbaycanın dövlətçilik tarixində misilsiz inkişaf mərhələsinin göstəriciləridir.

Bu uğurların əsasında xalqın rifahı, dövlətin qüdrəti, gələcəyin dayanıqlılığı kimi bir prinsiplər dayanır. Prezident İlham Əliyevin nitqində səsləndirdiyi mesaj da məhz budur: Azərbaycan regionları təkcə abadlıqla deyil, düşünülmüş idarəetmə, səmərəli iqtisadiyyat və vətəndaş məmnuniyyəti ilə fərqlənməlidir.

Bu gün regionların canlanması, kəndlərin yenidən qurulması, insanlara qayğı və diqqətin artması dövlətin gücünü, respublika liderinin isə bu gücü xalqın rifahına yönəltmək iradəsini nümayiş etdirir. Azərbaycan artıq müasir dövrün tələblərinə cavab verən, innovasiyaya və dayanıqlılığa əsaslanan yeni mərhələyə qədəm qoyur.

***Vaqif BAYRAMOV***
***XQ***

---

*Ekspert rəyi*



**Eyyub KƏRİMLİ,**
**İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri, iqtisadçı-ekspert**

Yeni təyinatlar regionlarda idarəçiliyin şəffaflığını, hesabatlılığını və səmərəliliyini artırmaqla iqtisadi dinamikanı gücləndirməyi, yerli resursların daha düzgün idarə olunmasını, eləcə də dayanıqlı inkişafı təmin etməyi hədəfləyir.

2024-cü ildə Azərbaycanın ümumi daxili məhsulunun (ÜDM) 39,2 faizi regionların payına düşüb. Qeyri-neft sektorunun inkişafı hesabına bu göstərici ildən-ilə yüksəlir. Son 5 ildə regionlarda sənaye məhsulu istehsalı 27 faiz, kənd təsərrüfatı məhsulları istehsalı isə 18 faiz artıb. Bu artımın davamlı olması üçün isə idarəetmədə düzgün qərarvermə və şəffaf mexanizmlər əsas şərtdir. Yeni təyinatlar da məhz bu istiqamətə – yerli potensialı iqtisadi dəyərə çevirməyə və mərkəzdən asılılığı minimuma endirməyə xidmət edir.

Hazırda 60-dan çox rayon mərkəzi büdcədən dotasiya alır. Bu, regionların öz iqtisadi dayanıqlılığını tam formalaşdıra bilməməsi ilə bağlıdır. Lakin son islahatlarla yanaşı, yerli gəlirlərin artırılması, bələdiyyə strukturlarının səmərəliliyinin gücləndirilməsi və yerli sahibkarlığa dəstək mexanizmlərinin təkmilləşdirilməsi sayəsində dotasiyaların həcminin yaxın 3 ildə 15-20 faiz azalacağı proqnozlaşdırılır.

Yeni rəhbər təyinatlarından sonra prioritet istiqamətlərdən biri yerli sahibkarların dəstəklənməsi olmalıdır. 2024-cü ildə regionlarda fəaliyyət göstərən sahibkarların sayı 142 minə çatıb və bu, əvvəlki illə müqayisədə 12 faiz çoxdur.

Regionların təbii potensialı nəzərə alınaraq, kənd təsərrüfatı və aqrar sənaye klasterlərinin inkişafı, həmçinin daxili turizmin stimullaşdırılması əsas hədəflərdəndir. Naxçıvanda və qərb rayonlarında yeni aqroparkların və sənaye zonalarının yaradılması həm daxili bazara, həm də ixraca yönələn istehsalın genişlənməsinə şərait yaradacaq.

Statistikaya görə, regionlardan şəhərə miqrasiyanın əsas səbəbi işsizlik və sosial infrastrukturun zəifliyidir. Yeni iqtisadi strategiya nəticəsində rayonlarda məşğulluq səviyyəsinin 10-12 faiz artması gözlənilir ki, bu da paytaxta axının azalmasına gətirib çıxaracaq. Yeni təyinatlar isə təkcə kadr dəyişikliyi deyil, regionların iqtisadi gələcəyinə yönəlmiş strateji addımdır.

İdarəçiliyin şəffaflaşması, iqtisadi qərarların yerlərdə daha səmərəli verilməsi və yerli resursların düzgün idarə olunması nəticəsində regionlarda tarazlı, dayanıqlı və inklüziv inkişaf təmin olunacaq. Bir sözlə, iqtisadiyyatın gücü – güclü regionlardadır!



# Ana dilimiz milli kimliyimizi, mənəvi varlığımızı yaşadan ən güclü vasitədir

*Müsahibimiz AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor Nadir Məmmədlidir*

**Azərbaycan Prezidenti cənab İlham Əliyev noyabrın 3-də AMEA-nın 80 illik yubiley yığıncağında proqram xarakterli çıxışı zamanı elmin müasir çağırışlarını dərindən təhlil edib, ölkəmizin gələcək inkişafında innovasiyaların, texnologiyaların rolunu xüsusi vurğulamaqla yanaşı, strateji əhəmiyyətli bir sıra məqamlara da toxundi. Onlardan biri də Ana dilimizlə bağlı idi. Dövlət başçısı Azərbaycan dili ilə bağlı narahatlığını ifadə edərək bildirdi ki, son 10 il ərzində bu istiqamətdə lazımi addımlar atılıb, lakin vəziyyət qaneedici deyil: "Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər". Prezidentin bu çıxışında dövlətdən sonra alimlərin adı çəkilir və onların bu məsələyə öz dəstəklərini göstərmələrinə çağırış edilir. Dilçilik problemləri və tədqiqatları ilə bilavasitə məşğul olan elm ocağının – AMEA Nəsimi adına Dilçilik İnstitutunun dövlət başçısının bu çağırışına münasibəti və bu istiqamətdə Azərbaycan dilinin "baş laboratoriyası"nda görülən işlər barədə məlumat almaq üçün institutun direktoru, filologiya elmləri doktoru, professor Nadir Məmmədliyə müraciət etdik.**



**– Nadir müəllim, Prezident İlham Əliyevin AMEA-nın yubileyindəki çıxışında Azərbaycan dili ilə bağlı fikirlərinə və çağırışına münasibətinizi bir çox kütləvi informasiya vasitələrində, qısaca da olsa, açıqlamısınız. İstərdik məsələyə daha əhatəli münasibətinizi, düşüncələrinizi bildirəsiniz.**

– Azərbaycan Prezidentinin iştirakı ilə keçən Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağında qlobal miqyasda çox mühüm strateji məsələlər müzakirə olundu. Prezident cənab İlham Əliyev qısa, lakin məzmunlu çıxışında dilçiliyin əhəmiyyətini xüsusi vurğuladı. Dövlət başçısı bir daha xalqın ziyalılarına, cəmiyyətə, alimlərimizə ümummilli lider Heydər Əliyev dönəmindən səslənən mühüm bir mesajın vacibliyini təkrar diqqətə çatdırdı: **dilimiz milli kimliyimizin, mənəvi birliyimizin ən güclü simvoludur.**

Prezident gerçək mənzərəni açıqlayaraq bildirdi ki, bu gün dünyada 50 milyondan çox azərbaycanlı yaşayır və onların hər birinin gözü, diqqəti müstəqil Azərbaycandadır. Hazırda 10 milyon əhalisi olan bir ölkədə Azərbaycan dilinin əsas normaları qorunur və inkişaf etdirilir. Təəssüf ki, xaricdə yaşayan soydaşlarımızın çoxu dilimizdən yalnız məişət səviyyəsində istifadə edir.

Dünyada az ölkələr var ki, dilin qorunması ilə bağlı sərəncam və fərmanlar imzalanır. Azərbaycan bu mənada istisnadır. Bu da onu göstərir ki, Prezident İlham Əliyev təkcə qalib dövlətin deyil, həm də milli dilimizin keşiyində dayanan bir liderdir. Onun çağırışı aydındır, öz dilimizdə danışmalı, onun saflığını qorumalıyıq. Bu, təkcə dilçilərin deyil, bütün xalqın borcudur.

Azərbaycan dili bədii, elmi və ictimai fikri yüksək səviyyədə ifadə etməyə tam qadirdir. Dövlət başçısı iradında haqlıdır: belə yüksək imkanlara malik dilimizə, nəyə görə bu qədər əcnəbi sözlər daxil olur? Axı biz öz dilimizdə fikrimizi tam, aydın və gözəl şəkildə ifadə edə bilirik.

Prezident eyni zamanda qeyd etdi ki, bəzi beynəlxalq terminlərdən yan keçmək mümkün deyil. Qloballaşan dünyada ölkələr kimi dillər də qarşılıqlı təsirə məruz qalır. Bu, mədəni inteqrasiyanın təbii göstəricisidir. Lakin dövlət başçısının tövsiyəsi açıqdır, əgər hər hansı bir sözün Azərbaycan dilində qarşılığı varsa, onu başqa dildən almağa ehtiyac yoxdur.

Azərbaycan dilinin qorunması və inkişafı hər birimizin vətəndaşlıq borcudur. Sovet dövründə dilimizə çoxlu yad sözlər daxil olub. Amma indi bu axının qarşısını almaq, dilimizi saflaşdırmaq və zənginləşdirmək bizim əlimizdədir. Prezidentin vurğuladığı kimi, dünyanın gözü bu gün Azərbaycandadır. Biz ədəbi dilimizi qorumalı, onun səviyyəsini yüksəltməliyik. Azərbaycan dili nə ölkə daxilində, nə də xaricdə yalnız məişət səviyyəsində işlənməməlidir.

**– Gəlin unutmayaq ki, əsrimiz yüksək texnologiyalar əsridir və sürətlə inkişaf edən belə bir vaxtda insan bir düyməni basmaqla internet üzərindən maraqlandığı istənilən məsələni araşdırmaq imkanına malikdir. Təbii ki, aldığı informasiyanı bölüşmək üçün də müəyyən texniki terminlərdən istifadə etməli olur. Belə olan halda ədəbi dili qorumaq, əlbəttə, asan məsələ deyil. Bu problemin həlli və dilimizin saflığının qorunması o anlama gəlirmi ki, texniki terminlərin dilimizdə işlənməsinə qarşı çıxmalıyıq?**

– Şübhəsiz, dövlət başçısının Azərbaycan dili ilə bağlı qarşıya qoyduğu tələblərə uyğun olaraq, internet mühitində digər dillərin Azərbaycan dilini sıxışdırmaması, dilimizin təhlükəsizliyinin qorunması və ona olan müxtəlif növ təhdidlərin qarşısının alınması üçün müvafiq tədbirlərin görülməsi vacibdir. Lakin cənab Prezident bu məsələyə uzaqgörənliklə və dünya mədəniyyəti çərçivəsində yanaşır. Xatırlayırsınızsa, dövlət başçısı fikrini belə açıqladı: "Düzdür, beynəlxalq leksikon var və hər birimiz bu leksikondan istifadə edirik. Amma əgər Azərbaycan dilində əzəli bir kəlmə varsa, başqa dildən kəlməni gətirib əvəzləmək nə məqsəd daşıyır? Bu, ya səhvdir, ya təxribatdır. Hər ikisi də qəbuledilməzdir. … Yəni, biz xalq kimi, millət kimi öz dilimizi qorumasaq, onda yavaş-yavaş bizim milli kimliyimiz də sarsıla bilər".

Cənab Prezident bu fikri ilə beynəlmiləl söz və terminlərə sərrast münasibətini ortaya qoydu. Axı, bu reallıqdır! Elmi-texniki nailiyyətlər, güclü informasiya axını, intensiv istehsalat fəaliyyətləri, beynəlxalq əlaqələr alınma söz və terminlərin, eləcə də hər hansı nomenklaturanın milli sərhədləri aşıb, geniş yayılmasını şərtləndirir. Şərq və Qərb ölkələri ilə ictimai-siyasi, iqtisadi, elmi, mədəni əlaqələrin genişlənməsi və möhkəmlənməsi şəraitində müxtəlif sistemli dillərlə tarixən təmasda olan Azərbaycan ədəbi dili zənginləşir, təkmilləşir.

**– Fikrimizcə, dilin hansı sözlərlə zənginləşməsi barədə mütəxəssis fikirlərini eşitmək, oxucularımız, bütövlükdə cəmiyyətimiz üçün də faydalı olardı. Elə jurnalistlərimiz, media nümayəndələrimiz üçün də. Mümkünsə, bu barədə bir qədər ətraflı danışardınız.**

– Tamamilə sizinlə razıyam. Ümumən, alınma sözlər ədəbi dilin funksional üslubu, gerçəkliyin qneseoloji inikası, məntiqi dərkedilmə vasitəsi, elmi-texniki informasiyaların reallığıdır. Siqnifikativ, sözün səs cildinin məfhumla əlaqəsinə əsaslanan mənaları əhatə dairəsinə görə fərqlidir. Söz və terminlərin dilə keçmə üsulları müxtəlifdir.

Məsələn, **şifahi və yazılı alınma sözlər.** Şifahi üsulla söz və terminalma bilinqvizm şəraiti üçün xarakterikdir, çünki bu prosesdə kollektiv nitq fəaliyyəti, ünsiyyət vacib şərtdir. Şifahi alınma sözlər kortəbii şəkildə reallaşdığı üçün xarici qişanın dəqiq təsviri tez pozulur, mənimsəmə asanlaşır. Yazılı üsulla söz və terminlər, əsasən, mətbuat, tərcümə, bədii, elmi ədəbiyyat və s. vasitəsi ilə alınır. Onların mənimsəmə aktı uzun sürür, dilin normalarına cavab vermədikdə dildən çıxır.

**Vasitəli və vasitəsiz alınma sözlər:** Belə alınma söz və terminin vasitəli dilin köməyi ilə alınmasıdır. Məsələn, latın, yunan, fransız, ingilis və s. mənşəli viza, vibrator, veto, vedovil terminləri rus dili vasitəsilə dilimizə keçmişdir. Vasitəsiz – terminin birbaşa, vasitəçi dilin köməyi olmadan alınmasıdır. Məsələn, rus mənşəli çuqun, nabor, yarus və s. terminlərin şifahi, yaxud yazılı üsulla alınması.

**Təkrar-qayıdış, yaxud geriyə alınma sözlər:** Bu tip alınma sözlər müəyyən bir dilə mənsub sözün başqa dillərdə semantik və ya fonetik modifikasiyadan sonra "yad formada" yenidən qayıtmasıdır. Məsələn, əmir əl-ma ərəb sözü holland dilinə keçib admiral formasında beynəlmiləlləşəndən sonra yenidən ərəb dilinə qayıtmış və dünya dillərinə yayılmışdır.

**İkili alınma sözlər**, eyni anlayışı bildirmək üçün eyni vaxtda ayrı-ayrı dillərdən iki leksik vahidin dilə keçməsidir. Məsələn, rus dili vasitəsilə kompüter, türk dili vasitəsilə bilgisayar; rus dili vasitəsilə multiplikasiya, türk dili vasitəsilə cizgi filmi və s.

**İkiqat alınma sözlər.** Bu tip alınma sözlər eyni mənşədən olub müxtəlif dillərdə mənimsəmə prosesində başqalaşan sözlərə aiddir. Yəni eyni leksik vahid müxtəlif dillərdə haçalanmış forma, hətta məna qazanır. Məsələn, Azərbaycan dilində ərəb sözü sıfır və rus dili vasitəsilə keçən şifrə (шифр). Hazırda dilimizdə işlənən sıfır "kəmiyyətin olmadığını göstərən "0" rəqəm işarəsi", şifrə isə "gizli yazı üçün şərti işarələr sistemi" deməkdir.

Bütün bunlara rəğmən dildə ziyanlı və ehtiyacdan gələn sözlər də vardır. Cənab Prezident məhz bu məsələyə diqqəti yönəldir:

Məsələn, **alınma söz və terminlər.** Yalnız ehtiyacdan irəli gələrək dilə keçən sözlər dilin normalarına uyğunlaşır, mənalarının aprobasiyası baş verir. Hətta məna diferensiasiyası və ayrılması nəticəsində semantik strukturu yenidən qurulur, formalaşır. Milli sözlərlə sintaqmatik əlaqə və münasibətlər daxili və xarici valentliyin inkişafına, söz yaradıcılığı morfemlərinə, leksik-qrammatik sistemin qanunlarına uyğunlaşmasına, eləcə də müstəqilliklərinə gətirib çıxarır.

**Əcnəbi söz və terminlər.** Bunlara bəzən barbarizmlər də deyilir. Azərbaycan dili qrafikası ilə yazılsalar da, müəyyən izahatsız anlaşılmırlar. Dilimizi korlayan məhz bu tip sözlərdir.

**– Professor, bir gerçəyi də etiraf edək ki, XX əsrin sonu və XXI əsrin əvvəllərində Azərbaycan dilinə daxil olan terminlərin böyük əksəriyyətini alınma terminlər təşkil edir. Bu proses dilimizin kasıblığındanmı irəli gəlir? Dilimizin saflığını qorumaq üçün bunun qarşısını almaq lazımdırmı?**

– Dilimizin qorunması baxımından bu da çox vacib və diqqət tələb edən məsələdir. Müasir Azərbaycan dili terminologiyasının xeyli hissəsini alınma terminlər təşkil etsə də, dilimizdə təşəkkül tapmış avtoxton terminologiya çox zəngindir. Terminologiyada alınma sözlər dilin kasıblığına dəlalət etmir, əksinə, onun dil əlaqələri hesabına zənginləşməsinin göstəricisi kimi çıxış edir. Bu, əlbəttə, alınma söz və termin probleminin rəngarəngliyi və çoxsahəli məsələləri əhatə etməsi ilə əlaqədardır.

Tarixi-mədəni əlaqələr və dövlətlərarası münasibətlər, elmi-texniki tərəqqi və elmi bilik sahələrinin inkişafı ilə bağlı olaraq, Azərbaycan dili leksikasına söz və terminlərin daxil olmasını elə tənzimləmək lazımdır ki, dilimizi milli səciyyəsindən, özünəməxsusluqdan məhrum etməsin. Azərbaycan dilçiliyində alınma sözlərin tədqiqində ənənəvi qəbul olunmuş tarixilik prinsipi də onların xalqın tarixi mərhələlərdən keçib gəldiyi yollarla əlaqəli şəkildə öyrənilməsini tələb edir. Alınma hadisəsinin mahiyyəti həmçinin milli mədəniyyət, milli təfəkkür və milli mövcudluq anlayışları ilə bağlıdır. Azərbaycan milli xarakteri bu anlayışların işığında aydın görünür. Linqvistik əlaqələrin forması dillərin qarşılıqlı təsir xarakteri, fonetik sistemi və qrammatik quruluşları ilə təyin olunursa, əlaqələrin səbəbləri və intensivliyi mədəni, sosial və elmi-texniki inkişafla bağlıdır. Müasir Azərbaycan dilinə keçən söz və terminləri iki qrupa ayırmaq olar:

**Birincisi, yeni əşya, hadisə və mücərrəd anlayışların adını bildirən, əvvəllər Azərbaycan dili lüğət tərkibində nomenklatur ifadəsi olmayan alınma söz və terminlər.** Elm və texnika sürətlə inkişaf edir. Bu inkişaf nəticəsində yeni məfhum və anlayışlar yaranır, eyni zamanda, onların adlandırılması zərurəti ortaya çıxır, çünki əksəriyyəti terminoloji nomenklaturadır. Bu terminlərin Azərbaycan dilində işlənə bilməsi onların təkcə leksik-semantik müstəqilliyindən yox, həmçinin terminoloji sistemdəki digər terminlərə uyğunluğundan, terminologiyamız üçün vacibliyindən, yeni əşya və hadisəni bildirməkdən, yaxud müəyyən səbəbə görə əvvəlki adın özünü doğrultmadığından asılıdır. Yeni anlayışlar meydana gəldikcə, mövcud terminologiyada da dəyişiklik olması təbiidir. Bu terminləri dilə gətirməklə, ədəbi dilimizi, eləcə də terminologiyamızı zənginləşdirməklə ictimai həyatın real ifadəçisi olan zəruri anlayışlar dilin daşıyıcılarına çatdırılır, dildaxili tələbat təmin edilir. Məsələn: **balansir**–"müxtəlif maşınlarda ox ətrafında yırğalanan tənzimləyici mexanizm", **varistor**–"elektrik gərginliyini nizama salmaq üçün yarımkeçiricili rezistor", **paker**–"quyunun neftli, sulu, qazlı laylarını bir-birindən ayırmaq və qapamaq üçün qurğu" və s.

Cənab Prezident beynəlxalq leksikon dedikdə, məhz bu tip söz və terminləri nəzərdə tutur, çünki dildə ziyanlı proseslər də baş verir. Dövlət başçısının nitqindəki sitatı bir daha təkrar edirəm: "Əgər Azərbaycan dilində əzəli bir kəlmə varsa, başqa dildən kəlməni gətirib əvəzləmək nə məqsəd daşıyır?"

**Bu, 2-ci qrup söz və terminlərə aiddir: yeni reallıq, əşya, hadisə və mücərrəd anlayışla bağlı olmayan alınma söz və terminlər.** Əvvəlkindən fərqli olaraq, bu qrupa aid söz və terminlər dildə artıq linqvistik işarəsini qazanmış əşya, hadisə və anlayışları adlandırır. Bunlar Azərbaycan dilinin semantik və struktur münasibətlərinə heç bir keyfiyyət dəyişiklikləri gətirmirlər. Dilimizə rəqib kimi daxil olan bu tip söz və terminlər dəqiq müəyyənləşmiş mənaya malik olmurlar, elə ilk baxışdan onların məna çaları və distribusiya fərqləri hiss olunmağa başlayır. Bu həssas məqamı nəzərə almadıqda semantik cəhətdən formalaşan belə leksemlər dilə ziyan vurur. Məsələn, "dil vahidlərinin mənasını (məzmununu, daxili cəhətini), sözlərin və ifadələrin leksik mənalarını və bu mənaların dəyişmə imkanlarını tədqiq edən dilçilik bölməsi"–**mənaşünaslıq**, "ayrı-ayrı sözlərin, morfemlərin mənşəyini, tarixini öyrənməklə məşğul olan dilçilik bölməsi"–**mənşəşünaslıq**, "dilin lüğət tərkibini öyrənməklə məşğul olan dilçilik bölməsi"–**lüğətşünaslıq** adlanır. Dildə əsrlərlə vətəndaşlıq qazanmış bu terminlərin semasiologiya, etimologiya, leksikoqrafiya ilə əvəz olunmasına ehtiyac varmı?! Bu ənənə başqa formal cərgələrdə də özünü göstərir: **yuma** (k.təs.) – **irriqasiya**, **dəyişmə** (elek.) – **kommutasiya, doğulma** (biol.) – **generasiya, bərpaetmə** (biol.) – regenerasiya və s. Dilimizdə qarşılığı olan bu tip alınma terminlərin müəyyənləşdirilib düzgün istifadə edilməsi, ilk növbədə, sistem münasibətlərinə əsaslanmalı, unifikasiya və nizamlanma prinsipləri gözlənilməlidir.

Cənab Prezidentin çıxışından irəli gələn bu problemləri diqqətdə saxlayacaq, Nəsimi adına Dilçilik İnstitutunun müvafiq şöbələrində dilə söz alınmasının nəzəri məsələlərini əhatə edəcək tədqiqat əsərləri, monoqrafiyalar yazılacaq, həmçinin müstəqillik illərində dilimizdə işləklik qazanmış beynəlxalq söz və terminlərin izahlı lüğətini hazırlayacağıq.

**– Rəhbərlik etdiyiniz institutun Azərbaycan dilçiliyinin inkişafı istiqamətində, ümumən bu sahədə gördüyü işlər barədə nə deyə bilərsiniz?**

– 2 il öncə şəxsi təşəbbüsümlə İranın Qum şəhərinin arxivindən 270 il bundan əvvəl yazılmış, Azərbaycan dilinin ilk və yeganə dərsliyi "Məzhəri-türki"ni gətizdirib tərcüməsini nəşr etdirmişəm. Bu kitabın yazıldığı tarix göstərir ki, dilimizlə bağlı dərslik XVII əsrdə belə alimlərimizi və ziya sahiblərimizi düşündürən bir məsələ olub.

Məlumat üçün bildirim ki, bir müddət olar Azərbaycan dilini emal etməyə imkan verən milli dil korpusunun yaradılması prosesinə başlamışıq. Bu, həm dilçilik elminin, həm də tətbiqi tədqiqatların inkişafı baxımından strateji əhəmiyyət daşıyan mürəkkəb bir mərhələdir. Müasir dilçilik və texnoloji sistemlər üçün etibarlı mənbə rolunu oynayacaq bu korpus dil resurslarının sistemləşdirilməsi, avtomatik emalı və statistik təhlili üçün zəruri baza yaradır.

2 il öncə üçcildlik "Türkmənşəli arxaizmlər lüğəti"ni, Naxçıvan, Qarabağ və Zəngəzurun dialektoloji atlaslarını nəşr etmişik. Qeyd edim ki, vaxtilə işlək olmuş arxaik sözlər məhz indi bizim üçün xüsusilə əhəmiyyətlidir. Son illər dilimizə əcnəbi dillərdən kifayət qədər sözlər keçir. Ancaq biz arxaik sözlərimizi lüğətdə tapanda dilimizin necə zəngin olduğunu görürük. İngilis dilindən götürdüyümüz sözləri bu lüğətə topladığımız sözlərlə işlətsəydik, indi onlar müasir Ana dilimizin ümumişlək sözlərinə çevrilərdi. Təkcə 2025-ci ildə 100 ildən artıq bir müddətdə "Moskva şərqşünaslıq institutlarının azərbaycanlı tələbə, müdavim, alim və pedaqoqları" adlı monoqrafiyam, "Azərbaycanca-rusca multikulturlizm lüğəti"m çapdan çıxıb.

Son vaxtlar institutumuzun gördüyü ən böyük iş kimi Azərbaycan dilinin yeni Orfoqrafiya lüğətinin hazırlanmasını qeyd edə bilərəm. Yüksək texnologiyaların cəmiyyət həyatına geniş nüfuz etdiyi bir dövrdə lüğət yaradıcılığında bu imkanlardan bəhrələnib real bir iş gördük. İndi o zaman deyil ki, "kartoçka" ilə lüğət hazırlayaq, qəzetlərdən bir-bir söz tapaq. Ona görə də mənim təşəbbüsümlə və AMEA rəhbərliyinin dəstəyi sayəsində bu işə Elm və Təhsil Nazirliyinin İdarəetmə Sistemləri İnstitutundan iki əməkdaş cəlb edildi. Digər tərəfdən, **"Xalq qəzeti", "Azərbaycan", "Səs", "Ədəbiyyat"** qəzetlərinin 10-15 illik PDF-lərini əldə etdik. Müxtəlif mənbələrdən toplanan dil materialları Süni intellekt və kompüter dilçiliyi şöbəsi tərəfindən emal edilərək sistemləşdirildi. Bu gərgin işlərin nəticəsi olaraq Azərbaycan dilinin 220 min sözdən ibarət söz bazasını formalaşdırdıq. Eyni zamanda, sözlərin işlənmə tezliyini müəyyən edən tezlik lüğətləri hazırladıq. Gələcəkdə bu lüğətlərin nəticələri əsasında sözlərin orfoqrafiya lüğətinə daxil edilməsi nəzərdə tutulur. Hazırda orfoqrafiya lüğəti ilə yanaşı, orfoepiya lüğəti, eləcə də dilimizə daxil olan alınma sözlərin ayrıca lüğətinin hazırlanması gündəlikdə duran məsələlərdəndir. Bütün bu layihələr Azərbaycan dilinin saflığını, sabitliyini və inkişafını təmin etmək məqsədi daşıyır.

Cənab Prezident qeyd etdi ki, dünyada 50 milyondan çox azərbaycanlı yaşayır. Axı bu qədər sayı olan xalqın dilindəki sözlər, əvvəlki orfoqrafiya lüğətlərində olduğu kimi 80-90 min ola bilməz. Bu, əsla mümkün deyil. İnstitutumuzda süni intellekt və kompüter dilçiliyi şöbəsini, eləcə də texnologiyanı bilən digər əməkdaşları bu işə cəlb etmişik.

**– Bu lüğət haqqında bir qədər müfəssəl məlumat vermək olarmı?**

– Yaxşı bilirsiniz ki, orfoqrafiya düzgün yazı qaydalarıdır. Məsələn, indiyədək lüğətlərdə "getmək" sözü var, "get" sözü yoxdur. Bir də var xəfif məsdər olan "getmə" sözü. Bunların bəziləri lüğətdə var, bəziləri yoxdur. Biz müəyyən etdik ki, nəyi vermək olar, nəyi yox.

Digər bir məsələ ədəbi danışıq dilini saflaşdırmaq məramı ilə etdiyimiz yenilikdir. Məlumdur ki, Azərbaycan dilinin qaydalarına görə vurğu sözün son hecasına düşür. Əcnəbi dillərdən keçən sözlərə lüğətdə vurğuları qoyacağıq ki, danışıqda söz və ya termin düzgün tələffüz edilsin. Məsələn, **"akademik"** sözündə vurğunun üçüncü, yaxud dördüncü hecaya düşməsi ilə məna da dəyişir. Amma buna baxmayaraq, lüğətdə sözlərin sayının süni surətdə artmasına imkan verməyəcəyik.

Yeri gəlmişkən, bir məsələyə də toxunmaq istəyirəm. Məlumdur ki, apostrofu yazıdan çıxarmışıq. Lakin klassik ədəbiyyatdan istifadə edənlərin, dil tarixi mütəxəssislərinin buna bəzən ehtiyacı olur. Bu məsələdə akademik Rafael Hüseynov bizim köməyimizə çatdı və klassik ədəbiyyatda işlənən bütün apostroflu sözləri seçdi, siyahısını bizə təqdim etdi. Biz bu sözlərin lüğətdə ayrıca siyahısını verməyi planlaşdırmışıq.

Bilirsiniz ki, türk dillərinin xarakterik xüsusiyyətinə görə, sözün kökü dəyişmir. Şəkilçi ona doğru gedir. Lakin sözün kökü də dəyişə bilər. Külək sözü hal şəkilçisi qəbul edəndə "k" hərfi "y"ya keçir. Bu səbəbdən yeni lüğətdə hansı sözlərin kökünün dəyişdiyini də göstərəcəyik.

Olduqca fəal və işgüzar bir heyət seçmişik. Çox güman ki, yeni lüğəti bu ilin sonuna qədər bitirəcəyik və ictimaiyyətin müzakirəsinə verəcəyik. Əlbəttə ki, iradlar da ola bilər; xüsusən sözün kökünün dəyişməsinə. Demək istəmədiyim yeniliklər də var, onlar hələ ki, bizim sirrimizdir.

Xatırlayırsınızsa, ötən il Dilçilik İnstitutunun ən mühüm uğuru Mahmud Kaşğarinin məşhur "Divanü lüğat-it-türk" əsərinin 950 illiyinin UNESCO çərçivəsində qeyd edilməsi oldu. Mən UNESCO-nun mənzil-qərargahında keçirilən yubileydə çıxış etdim.

Bu mənbənin çox maraqlı tarixi var. Özbək əsilli Azərbaycan alimi, ötən əsrin 30-cu illərində SSRİ Elmlər Akademiyasının Azərbaycan filialında işləmiş Xalid Səid Xocayev məşhur "Divanü lüğat-it-türk" əsərini ilk dəfə ərəb dilindən Azərbaycan dilinə tərcümə edir. Lakin çox keçmir ki, o, 1937-ci il repressiyasında güllələnir. Təhlükəsizlik orqanları onun evində axtarış aparan zaman "Divan" üzə çıxmır və lüğət itmiş hesab olunur.

86 il bu əsərdən soraq verən yox idi. 2023-cü ildə institutun arxivində apardığım ciddi axtarışlardan sonra, üstünə az qala bir əsrin tozu qonmuş o qiymətli əsəri tapdım və müasir latın qrafikamızla çap etdirdim.

**– Maraqlı təşəbbüsləriniz və işləriniz var. Bununla belə, bir məsələni də bilmək istərdim. Əksər hallarda Azərbaycan sözlərinin başqa dillərdə tələffüzündə və əcnəbi dillərdən alınma sözlərin dilimizdə tələffüzündə qüsurlarla qarşılaşırıq. Bu problemlərin həlli istiqamətində bir iş gedirmi?**

– Həqiqətən, dilimizdə olan bəzi sözlər, xüsusilə yer adları əcnəbi dillərdə çox fərqli tələffüz edilir. Ona görə də biz dünya transkripsiyasında ənənəni nəzərə alırıq. Lakin elə səslər var ki, qarşıdakı dildə də mövcuddur. Məsələn, "Qarabağ" sözündə olan "q" səsi rus dilində də var. Lakin "k" ilə tələffüz edilir. "Mərdəkan" adı niyə rus dilində "Mardakyan" yazılmalıdır? Bu tip xeyli sözlər var. Dilçilik İnstitutu olaraq Azərbaycanda inzibati-ərazi vahidlərinin ingiliscədə və ruscada düzgün yazılışı haqqında ayrıca kitab buraxdıq və səfirliklərə də payladıq.

**– Professor, Ana dilinin saflığının qorunması, zənginləşməsi naminə müasir medianın üzərinə hansı vəzifələr düşür? Çünki ədəbi dilin əsas materialı olan sözlə daha sıx təmasda olan sahələrdən biri də mediadır.**

– Qloballaşma prosesi informasiya mühitinə də ciddi təsir edir. Lakin burada müəyyən sədlər olmalıdır. Əgər bir anlayışın Azərbaycan dilində qarşılığı varsa, onun yerinə yad söz işlətmək nə ədəbi, nə də mədəni baxımdan doğru deyil. Dilimiz kifayət qədər zəngin, fikri ifadə gücü yüksək olan bir dildir və bu potensialdan istifadə etmək bizim borcumuzdur.

Media nümayəndələrinin, xüsusilə jurnalistlərin bu sahədə məsuliyyəti daha böyükdür. Efir dili xalqın dili ilə birbaşa təmasdadır. Ona görə aparıcılar, jurnalistlər və diktorlar sadə, aydın və anlaşılan şəkildə danışmalıdırlar. Bu, publisistikanın, şifahi nitqin əsas tələblərindən biridir. Eyni zamanda, vurğu məsələsi də çox önəmlidir. Bəzən elə düşünürlər ki, vurğu sadə bir texniki məsələdir. Halbuki vurğu dili canlı edən, mənanı düzgün çatdıran ən vacib fonetik fiqurdur. Düzgün vurğu nitqin ahəngini, ifadəliliyini və peşəkarlığını təmin edir.

Bir sözlə, Azərbaycan dili nə ölkə daxilində, nə də xaricdə sadəcə məişət səviyyəsində ünsiyyət vasitəsi kimi qəbul edilməməlidir. Dil xalqımızın mədəni yaddaşını, elmi və intellektual potensialını ifadə edən canlı bir sistemdir.

***Müsahibəni qələmə aldı:***
***İlqar RÜSTƏMOV,***
***Əməkdar jurnalist***

# Şimali Kiprin müstəqilliyinin 42-ci ildönümü mərasimi



**Şimali Kipr Türk Respublikasının müstəqilliyinin 42-ci ildönümü münasibətilə noyabrın 13-də Bakıda tədbir təşkil edilib.**

ŞKTR-nın Bakıdakı nümayəndəliyinin rəhbəri xanım Ufuk Turganer xalqımızı və qəhrəman Azərbaycan Ordusunu 5 il əvvəl qazanılmış Qarabağ Zəfəri münasibətilə təbrik edərək deyib: "Prezident İlham Əliyevin liderliyi ilə birlik olan Azərbaycan xalqının şanlı Qələbəsi bizim üçün böyük fəxr mənbəyidir".

O qeyd edib ki, parlamentlərimiz arasındakı dostluq qrupları fəaliyyətə başladığı gündən etibarən çox məhsuldar və səmərəli çalışırlar.

Azərbaycan-Şimali Kipr Türk Respublikası parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri Cavanşir Feyziyev bildirib ki, Kipr türkü sülh və əmin-amanlıq yolunda müstəqillik mübarizəsini qətiyyətlə davam etdirir. Kipr Türk dünyası tarixində birlik və azadlıq uğrunda mübarizənin önəmli simalarından biridir. Müstəqilliyin elan edilməsindən bəri Kipr siyasi və iqtisadi çətinliklərə baxmayaraq, qətiyyətlə dayanıb, qardaş Türkiyənin davamlı dəstəyi ilə inkişaf edib və regional sabitliyə töhfə verib.

Çıxışlardan sonra tədbir ziyafətlə davam edib.

***XQ***

# Azərbaycan və Gürcüstan ədliyyə nazirlərinin görüşü



**Ədliyyə naziri Fərid Əhmədov gürcüstanlı həmkarı Paata Salia ilə görüş keçirib. Nazir vurğulayıb ki, ölkələrimiz arasında qarşılıqlı etimada əsaslanan əlaqələr təkcə ikitərəfli səviyyədə deyil, həm də beynəlxalq təşkilatlar çərçivəsində uğurla inkişaf edir.**

Bu barədə Ədliyyə Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

Bildirilib ki, görüşdə icra, xüsusi icra və probasiya sahələrinin təkmilləşdirilməsi məqsədilə beynəlxalq təcrübənin öyrənilməsi, bu istiqamətdə Gürcüstanla səmərəli təcrübə mübadiləsinin aparılması, həmçinin 2022-ci ildə Batumidə keçirilən Hüquq Forumu və imzalanmış Əməkdaşlıq Memorandumunun əlaqələrin inkişafına verdiyi töhfə müzakirə olunub. Tərəflər gələcəkdə də birgə tədbirlərin keçirilməsi və əməkdaşlığın yeni istiqamətləri barədə fikir mübadiləsi aparıblar.

Görüşdə ədliyyə sahəsində rəqəmsallaşmanın hər iki ölkə üçün prioritet olduğu qeyd edilib.

Sonda vurğulanıb ki, bu səfər və keçirilən görüşlər təcrübə və fikir mübadiləsinə, eləcə də Azərbaycan və Gürcüstan arasında hüquqi əməkdaşlığın daha da möhkəmlənməsinə əhəmiyyətli töhfə verəcək.

***XQ***

# "Mərkəzi Asiya: Ümumi mənəvi-maarifçilik irsi – ümumi gələcək"






**Daşkənddə yeni tikilən İslam Sivilizasiyaları Mərkəzində "Mərkəzi Asiya: Ümumi mənəvi-maarifçilik irsi – ümumi gələcək" adlı beynəlxalq konqres öz işinə başlayıb. Məclisdə Azərbaycanın mədəniyyət naziri Adil Kərimlinin rəhbərliyi ilə böyük nümayəndə heyəti iştirak edir.**

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin tədbir iştirakçılarına təbriki oxunub.

İslam Sivilizasiyaları Mərkəzinin sədri Firdavs Abduxalikov Özbəkistanın Mərkəzi Asiya ölkələri və Azərbaycan ilə dostluq və qardaşlıq münasibətləri haqqında söhbət açıb, Azərbaycanın böyük şairləri Nizami Gəncəvi, İmadəddin Nəsimi və Məhəmməd Füzuli ədəbi irsinin Özbəkistanda çox sevildiyini diqqətə çatdırıb.

Azərbaycan mədəniyyət naziri Adil Kərimli öz çıxışında bildirib ki, qlobal miqyasda əsas platformamız olan "Bakı Prosesi" Azərbaycan Respublikasının təşəbbüsü ilə 2008-ci ildən müxtəlif sivilizasiyalar və mədəniyyətlər arasında dialoqu təşviq edir. "Bakı Prosesi" çərçivəsində iki ildən bir keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumlarının əsas tərəfdaşları BMT-nin Sivilizasiyalar Alyansı, UNESCO, ICESCO, BMT Turizm və digər beynəlxalq təşkilatlardır. 2024-cü ildə baş tutmuş VI Forumda Mərkəzi Asiya ölkələri fəal təmsil olundu. Əminliklə bildirirəm ki, 2026-cı ildə Bakıda keçirilməsi planlaşdırılan növbəti VII Mədəniyyətlərarası Dialoq Forumu başlanan Konqresin nəticələrini və regional çağırışları qlobal miqyasda müzakirə etmək üçün mühüm imkan yaradacaq. Forumda Mərkəzi Asiya ölkələrinin fəal iştirakı bizim üçün böyük əhəmiyyət daşıyır.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli öz çıxışında deyib ki, Özbəkistanın və Azərbaycanın mənəvi irsini, mədəniyyətini yaradan böyük şəxsiyyətlər ölkələrimiz arasında böyük körpü olub və belə hesab edirəm ki, Nizami Gəncəvi, İmadəddin Nəsimi və Məhəmməd Füzuli kimi böyük şairlər Azərbaycanla Mərkəzi Asiya arasında ədəbiyyat, mədəniyyət, mənəviyyat körpüsü yaradıblar.

Milli muzeylərlə bağlı bölmə iclaslarında İçərişəhər Arxeologiya və Etnoqrafiya Muzeyinin direktoru Azadə Hüseynova, milli kitabxanaların işi ilə əlaqədar sessiyada M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Şükürov, Rəssamlıq və incəsənət üzrə bölmə iclasında Azərbaycan Rəssamlar İttifaqı sədrinin müavini Ağəli İbrahimov, Mərkəzi Asiya və Azərbaycan Yazıçılar İttifaqları ilə bağlı keçirilən iclasda Azərbaycan Yazıçılar Birliyinin beynəlxalq əlaqələr üzrə katibi Səlim Babullaoğlu, Gənclər siyasəti üzrə bölmə iclasında Gənclər və İdman Nazirliyinin əməkdaşı Nigar Əzimova çıxış ediblər.

Konqres öz işini davam etdirir.

***QK AZIMOV***

**Daşkənd**

# Milli Məclis komitələrinin birgə iclasında büdcə layihəsi müzakirəsi



**Noyabrın 13-də keçirilmiş Milli Məclisin Aqrar siyasət, Ailə, qadın və uşaq məsələləri, Elm və təhsil komitələrinin birgə iclasında "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda müzakirə olunub.**

Milli Məclis sədrinin müavini Musa Qasımlı növbəti ilin büdcə layihəsinin müzakirəsinin Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərimizdə böyük quruculuq işlərinin həyata keçirildiyi, keçmiş məcburi köçkünlərin müasir yaşayış məntəqələrinə qaytarıldığı, həmin yerlərdə mədəniyyətimizin, elmimizin, təhsilimizin yenidən bərpa edildiyi, Vaşinqtonda sülh sazişi layihəsinin paraflandığı bir şəraitdə keçirildiyini və bütün bunların ölkəmizin 2025-ci ildə uğurlu yol keçdiyinin göstəricisi olduğunu vurğulayıb.

Maliyyə nazirinin müavini Himalay Məmişov bildirib ki, 2026-cı ilin dövlət büdcəsinin xərcləri 41,7 milyard manat həcmində proqnozlaşdırılıb. Bu, cari illə müqayisədə 296 milyon manat və ya 0,7 faiz, ötən illə müqayisədə isə 4 milyard manat və ya 10,6 faiz çoxdur. Xərclərin 25,2 milyard manatı və ya 60,3 faizi cari xərclərə, 14,1 milyard manatı və ya 33,8 faizi əsaslı xərclərə, 2,5 milyard manatı və ya 5,9 faizi dövlət borcuna xidmətlə bağlı xərclərə yönəldiləcək. Cari xərclərin 88,1 faizi qeyri neft-qaz sektoru üzrə daxil olmaların hesabına qarşılanacaq. Cari xərclərin əsas hissəsi sosialyönlü xərclərin payına düşür. Belə ki, 2026-cı ildə sosialyönlü xərclərə 17,1 milyard manat və ya dövlət büdcəsi xərclərinin 41,1 faizi həcmində vəsait ayrılacaq.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov 2026-cı ilin dövlət büdcəsi layihəsinə dair Palatanın rəyini təqdim edib. O bildirib ki, rəy 2026-cı il üçün dövlət büdcəsinə dair qanun layihəsinin və layihə ilə birlikdə təqdim olunan sənədlərin mövcud qanunvericilik aktlarına uyğunluğu, nəzərdə tutulmuş dövlət büdcəsinin gəlir və xərcləri, habelə büdcə kəsirinin proqnoz göstəricilərinin düzgünlüyü və tamlığı, bu göstəricilərin əsas makroiqtisadi parametrlərə və ölkənin strateji sənədlərinə uyğunluğu barədə kənar dövlət maliyyəyə nəzarət orqanının mövqeyini ifadə edir.

İqtisadiyyat nazirinin müavini Səməd Bəşirli vurğulayıb ki, qeyri-neft-qaz sektorunun şaxələndirilməsi, biznes mühitinin təkmilləşdirilməsi, fiskal idarəetmənin optimallaşdırılması və digər tədbirlər nəticəsində ölkə iqtisadiyyatı yeni keyfiyyət mərhələsinə qədəm qoyub.

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov bildirib ki, 2026-cı ilin dövlət büdcəsində kənd təsərrüfatı tədbirlərinin həyata keçirilməsi üçün 547,8 milyon manat vəsait nəzərdə tutulub. Bu vəsaitdən 483,2 milyon manatı Aqrar Kredit və İnkişaf Agentliyinin, 55,5 milyon manatı Aqrar Xidmətlər Agentliyinin fəaliyyət istiqamətləri ilə bağlı tədbirlərə, 9,1 milyon manatı isə nazirlik tərəfindən həyata keçirilən tədbirlərə sərf olunacaq. Diqqətə çatdırılıb ki, 2026-cı ilin dövlət büdcəsində Balıqçılıq və Akvakultura Mərkəzi və tabeliyindəki qurumların fəaliyyətinin təmin edilməsi üçün ilk dəfə olaraq 4,4 milyon manat nəzərdə tutulub.

Elm və təhsil naziri Emin Əmrullayev 2026-cı ilin dövlət büdcəsində elm və təhsil sahələrinə ayrılan vəsaitlər, həyata keçirilən islahatlar, görülən işlər və qarşıdakı hədəflər barədə məlumat verib. Nazir bildirib ki, 2026-cı ilin dövlət büdcəsində Təhsil bölməsi üzrə 5 milyard 15 milyon manat vəsait proqnozlaşdırılıb. Bu, ötən illə müqayisədə 48,5 milyon manat artım deməkdir. Son beş il ərzində təhsil sektoruna ayrılan dövlət vəsaiti 1,6 dəfə artıb.

İclasda gündəlikdəki qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***XQ***

*Xuntaçıların məhkəməsi*

# Prokurorlar məhkumların cəzalandırılmasını təklif ediblər





**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə, müharibə və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası noyabrın 13-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclası dövlət ittihamını müdafiə edən prokurorların ittiham çıxışı ilə davam etdirilib.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli çıxış edərək təqsirləndirilən şəxslərə qarşı irəli sürülmüş ittihamlar üzrə cinayət əməllərinin tövsifinə münasibət bildirib. O qeyd edib ki, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının suveren ərazilərinin işğal edildiyini, bununla da Ermənistanın Azərbaycana qarşı təcavüzkar müharibə apardığını təsdiqləyib.

İttiham çıxışında göstərilib ki, Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüzkar müharibə fəal hərbi əməliyyatların aparılmadığı dövrdə belə faktiki olaraq dayandırılmayıb. Təcavüzkar müharibənin gedişində Ermənistan silahlı qüvvələri atəşkəsi dəfələrlə pozmaqla Azərbaycan Respublikası ərazisində qanuni fəaliyyət göstərən onun Silahlı Qüvvələrinin üzvlərini, mülki şəxsləri, onların əmlaklarını, mülki təyinatlı dövlət obyektləri, dini, təhsil, elm, tibb obyektlərini, xəstə və yaralıların yerləşdiyi yerləri, habelə mühüm strateji əhəmiyyətə malik obyektləri, o cümlədən Bakı-Tbilisi-Ceyhan neft kəmərini hücum obyektinə çevirib. Ermənistan silahlı qüvvələri tərəfindən verilən işgəncələrin sistematik xarakter daşıması və geniş coğrafiyada yayılması işgəncənin tətbiqinin Ermənistan dövlətinin siyasətini əks etdirdiyini sübut edir.

Vurğulanıb ki, Ermənistanın hərbi təcavüzü yalnız Azərbaycan Silahlı Qüvvələrinin üzvlərinə yönəlməyib, eyni zamanda, ən böyük şəhər və rayonlarından olan Gəncə, Bərdə, Ağcabədi, Yevlax, Mingəçevir, Zərdab, Kürdəmir, Qəbələ və sair kimi əraziləri hücum obyekti kimi müəyyənləşdirib.

Beləliklə də məhkəmədə tədqiq olunan sübutlarla təsdiq olunub ki, Ermənistan Azərbaycanın suveren ərazilərini işğal edib, Azərbaycana hərbi təcavüz zamanı, eləcə də ondan sonrakı dövrdə sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və çoxlu sayda digər xüsusilə ağır cinayətlər törədib.

Daha sonra Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev və Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramov çıxış edərək təqsirləndirilən şəxslərin ittiham olunduqları hər bir cinayət əməlinə görə təyin edilməli cəzaya dair dövlət ittihamını müdafiə edən prokurorların təkliflərini səsləndirib.

Vurğulanıb ki, təqsirləndirilən Arkadi Qukasyanın, Bako Sahakyanın və Madat Babayanın ömürlük azadlıqdan məhrum etmə növündə cəza nəzərdə tutan cinayətlərin törədilməsində ittiham olunmalarına və həmin ittihamların məhkəmə istintaqı zamanı sübuta yetirilməsinə baxmayaraq, yekun məhkəmə qərarı, yəni hökm çıxarılanadək həmin təqsirləndirilən şəxslər 65 yaşına çatdıqları üçün Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin tələblərinə əsasən, onlara ömürlük azadlıqdan məhrum etmə cəzası təyin edilə bilməz.

Təklif olunub ki, Harutyunyan Arayik Vladimiri, Mnatsakanyan Levon Henrixi, Manukyan David Azati, İşxanyan Davit Rubeni, Babayan David Klimini ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilsinlər və cəzalarını həbsxanada çəksinlər.

Təklif olunub ki, Qukasyan (Ğukasyan) Arkadi Arşavir, Sahakyan Bako Sahaki, Babayan Madat Arakeli, Paşayan Melikset Vladimiri 20 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilsinlər və cəzasının ilk 10 ilini həbsxanada, qalan hissəsini isə ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksinlər.

Təklif edilib ki, Martirosyan Qarik Qriqori 19 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilsin və cəzasının ilk 10 ilini həbsxanada, qalan hissəsini ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin.

Allahverdiyan Davit Nelsoniyə dair təklifdə göstərilib ki, o, 18 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilsin və cəzasının ilk 10 ilini həbsxanada, qalan hissəsini isə ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin.

Balayan Levon Romiki barədə təklifdə bildirilib ki, o, 17 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilsin və cəzasının ilk 10 ilini həbsxanada, qalan hissəsini isə ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin.

Təklif edilib ki, Beqlaryan Vasili İvani, Stepanyan Qurgen Homerosi, Qazaryan Erik Roberti 16 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilsinlər. Cəzasının ilk 10 ilini həbsxanada, qalan hissəsini isə ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin. Təklif edilib ki, məhkumların cəzaçəkmə müddətinin başlanğıcı tutulduqları vaxtdan hesablansın.

Bundan başqa, cinayət işi üzrə maddi sübutlar barədə Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin tələblərinə uyğun şəkildə qərar qəbul edilməsi məhkəmədən xahiş olunub.

Dövlət ittihamını müdafiə edən prokurorlar təqsirləndirilən şəxslərin hər biri barəsində seçilmiş qətimkan tədbirinin hökm qanuni qüvvəyə minənədək dəyişdirilməməsini məhkəmədən xahiş ediblər.

Bundan başqa, cinayət işi üzrə maddi sübutlar barədə Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin tələblərinə uyğun şəkildə qərar qəbul edilməsi məhkəmədən xahiş olunub.

Məhkəmədə zərərçəkmişlərin nümayəndələri də təqsirləndirilən şəxslərə qarşı irəli sürülən ittihamların bir ilə yaxın müddətdə davam edən məhkəmə istintaqında tədqiq olunan sübutlar, araşdırılmış materiallar, dindirilmiş şahid və zərərçəkmişlərin ifadələri, habelə ekspertiza rəyləri və digər dəlillərlə sübuta yetirildiyini bildiriblər.

Zərərçəkmişlərin nümayəndələri dövlət ittihamını müdafiə edən prokurorların cəzaya dair təklifləri ilə razı olduqlarını və buna uyğun hökm çıxarılmasını məhkəmə kollegiyasından xahiş ediblər.

Məhkəmə prosesi noyabrın 27-də davam etdiriləcək.

***XQ***

*I Türkoloji Qurultay – 100*

# Əhməd Baytursunov və ortaq türk əlifbası ideyası

**Qazax xalqının böyük maarifçisi, dilçi alimi, publisisti və ictimai xadimi Əhməd Baytursunov (1872–1937) XX əsrin əvvəllərində Qazaxıstanda milli oyanış hərəkatının liderlərindən olmuşdur. Qazaxlar onun adı və soyadını Əhməd Baytursun oğlu kimi yazsalar da, daha çox Əhməd Baytursunov kimi tanınmışdır.**



Əhməd Baytursunov 5 sentyabr 1872-ci ildə Qazaxıstanın Torğay vilayətində, Sarytübek kəndində anadan olmuşdur. O, ibtidai təhsilini kənd mollaxanasında, sonra isə Orenburq müəllimlər seminariyasında almışdır. Təhsil illərindən etibarən Qazax xalqının savadlanması və milli şüurunun oyanması üçün çalışmış, müəllimlik fəaliyyəti ilə yanaşı, maarifçi publisistikaya başlamışdır.

Siyasi baxışlarına görə 1909-cu ildə çar hökuməti tərəfindən həbs olunmuş, daha sonra sürgünə göndərilmişdir. 1913-cü ildə yerli ziyalılarla birlikdə Qazaxıstanın ilk milli qəzeti "Kazax"ı nəşr etdirmişdir. Bu qəzet qazax milli ideyasının, türkçülük və maarifçilik hərəkatının əsas tribunası olmuşdur. Baytursunov "Alaş" milli hərəkatının da fəal üzvü idi. O, "Alaş Orda" hökumətinin tərkibində təhsil və mədəniyyət məsələlərinə cavabdeh olmuş, müstəqil Qazax milli dövlətçiliyinin formalaşması uğrunda mübarizə aparmışdır.



Əhməd Baytursunov Qazax ədəbi dilinin elmi əsaslarını yaradan ilk şəxs kimi tanınır. Onun "Dil qaydaları" "Ədəbiyyat nəzəriyyəsi" və "Oxu kitabı" adlı əsərləri Qazax dilinin qrammatikasının və pedaqoji sisteminin formalaşmasına xidmət etmişdir. Baytursunovun əsərləri arasında Qazax folkloru və poeziyasının təhlili, xalq ədəbiyyatının elmi təsnifatı da diqqətəlayiqdir.

I Türkoloji Qurultayda Əhməd Baytursunov Qazaxıstanı təmsil edən əsas nümayəndələrdən biri idi. Qurultayda onun çıxışı türkdilli xalqlar arasında ortaq yazı sistemi və əlifba birliyi mövzusuna həsr edilmişdi.

Əhməd Baytursunovun I Türkoloji Qurultaydakı mövqeyi Türk dünyasının modernləşmə tarixi baxımından son dərəcə maraqlı və əhəmiyyətlidir. O, Qazax xalqının maarifçisi, dilçi və publisisti kimi türk xalqları arasında milli kimlik və yazı mədəniyyətinin qorunması uğrunda mübarizə aparan əsas simalardan idi. Qurultayda o, latın qrafikasına keçid məsələsində nə radikal şəkildə tərəfdar, nə də tam əleyhdar mövqe tutmuşdu. Onun yanaşması daha çox elmi əsaslara, sosial reallığa və milli maraqlara söykənən ehtiyatlı və praqmatik bir mövqe idi.

Dilçi alim hesab edirdi ki, əlifba dəyişiklikləri təkcə texniki və ya siyasi məsələ deyil, həm də xalqın mədəni yaddaşına, dilin daxili quruluşuna və tədris sisteminə birbaşa təsir edən ciddi bir prosesdir. Onun fikrincə, hər hansı yazı islahatı yalnız ideoloji məqsədlərlə deyil, həm də linqvistik, pedaqoji və sosial faktorların dərin təhlilinə əsaslanmalıdır.

Qazax maarifçisi qurultaydakı çıxışında qeyd etmişdi ki, latın qrafikasına keçid müəyyən mənada mütərəqqi addımdır, çünki bu, yeni texnologiyalara, mətbəə işinə və beynəlxalq elmi əlaqələrə uyğunlaşmağa şərait yaradır. Əhməd Baytursunov, eyni zamanda, xalqın savadlanma səviyyəsini, mövcud kitab fondu və tədris resurslarını, müəllimlərin hazırlıq durumunu nəzərə almağın vacibliyini vurğulayırdı. Onun fikrincə, bir anda yazı sistemini tamamilə dəyişmək, xüsusilə kənd yerlərində yaşayan savadsız kütlələr üçün ciddi çətinliklər yaradacaq və maarifləndirmə prosesini yavaşladacaqdı.

Ə.Baytursunovun əsas prinsipi belə idi: "Əlifba xalqın başa düşəcəyi, öyrənəcəyi və istifadə edəcəyi qədər sadə olmalıdır". O, ərəb qrafikasının türkcənin fonetik xüsusiyyətlərini tam ifadə edə bilmədiyini qəbul etsə də, latın qrafikasına keçidin mərhələli şəkildə və elmi əsaslarla həyata keçirilməsini təklif edirdi.

Qurultayda Əhməd Baytursunov hazırladığı "Qazax əlifbası" layihəsini təqdim etmişdi. Bu əlifba ərəb yazı sisteminə əsaslansa da, türk dillərinin səs sisteminə uyğunlaşdırılmış, yəni sadələşdirilmiş bir variant idi. O, bu layihəni yalnız Qazax dili üçün deyil, ümumtürk ortaq əlifbası üçün də təklif etmişdi. Lakin qurultay nümayəndələrinin əksəriyyəti latın əsaslı yazı sisteminin qəbulunu daha müasir və beynəlxalq səviyyədə səmərəli hesab etdikləri üçün Baytursunovun layihəsi səs çoxluğu ilə rədd edildi.

Qazax türkoloqunun çıxışları və arqumentləri qurultayda böyük maraq doğurmuş, onun dərin elmi-linqvistik bilikləri və milli məsuliyyət hissi bir çox alim və nümayəndə tərəfindən yüksək qiymətləndirilmişdi. Onun ehtiyatlı yanaşması, əslində, sovet ideoloqlarının tələsik şəkildə həyata keçirdiyi latınlaşdırma siyasətinin mənfi nəticələrini öncədən görən uzaqgörən bir baxış idi. Sonrakı illər Əhməd Baytursunovun bu mövqeyinin nə qədər əsaslı olduğunu göstərdi. 1930-cu illərdə SSRİ-də latın qrafikasından kiril qrafikasına zorakı keçid həyata keçirilərkən, Ə.Baytursunovun vurğuladığı elmi və sosial risklər tam şəkildə özünü doğrultmuşdu.

Maarif və elm sahəsində böyük xidmətlərinə baxmayaraq, Əhməd Baytursunov 1929-cu il iyunun 12-də "millətçi təşkilatda iştiraka" görə həbs olunmuşdur. Uzun və işgəncəli istintaqdan sonra ona güllələnmə hökmü verilmiş, lakin 8 ay güllələnəcəyi günü gözləyən Əhməd Baytursunov haqqında hökm 10 illik həbslə əvəz edilmişdir. O, Solevki adalarındakı həbsxanaya göndərilmiş və 1934-cü ildə Maksim Qorkinin xanımı E.Peşkovanın müdaxiləsi sayəsində azad edilmişdir. Lakin Əhməd Baytursunovun sənədlərinin üzərinə "heç bir peşə sahibi deyildir" yazıldığına görə Almatıda iş tapa bilməmişdir.

1937-ci ildə Əhməd Baytursunov yenidən "antisovet fəaliyyət" ittihamı ilə həbs olunmuş və 8 dekabr 1937-ci ildə güllələnmişdir. Türk xalqlarının böyük maarifçisi yalnız 1988-ci ildə bəraət almışdır.

***Namiq ƏHMƏDOV***
***XQ***

# Qarabağ şəhidi haqqında kitab özbək dilində

**Azərbaycanın Özbəkistandakı səfirliyi nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində Könül Fazilqızının Qarabağ şəhidi Teymur Məcidzadə haqqında Bakıda çap olunan "Şuşada bitən yuxu" kitabının özbək dilində təqdimatı keçirilib.**

Tədbiri Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universitetinin professoru, "Özbəkistan-Azərbaycan" Dostluq Cəmiyyətinin icraçı direktoru Erkin Nuriddinov açıb.

Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Akif Marifli kitab haqqında məlumat verib.

Sonra professor Nigina Şermuxammedova, şair və tərcüməçi Şəhla Qasımova, dosent Rəna Kadırova və başqaları 44 günlük Vətən müharibəsi zamanı Özbəkistan dövlətinin və xalqının Azərbaycanın yanında olduğunu diqqətə çatdırıblar.

Kitabı tərcümə edən Hulkaroy Racapova kitab üzərindəki işindən söhbət açıb.

Teymur Məcidzadənin anası Yasəmən Camalova bildirib ki, 28 yaşlı oğlu Vətəni anadan, atadan da artıq sevirdi, məhz bu sevgi də onu döyüşə apardı və şərəfli bir ömür yaşadı. Şəhər və kəndlərimiz azad olundu, xalqımız tarix yazdı.

Tədbir bədii hissə ilə bitib.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***
**Daşkənd**





# Ağdərə və Xocalıya növbəti köç

**İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış davam edir. Noyabrın 13-də respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Ağdərənin Vəngli, Xocalının Badara və Daşbulaq kəndlərinə yola salınıb. Köçürülən ailələrə yeni mənzillərinin açarları təqdim edilib.**

Bu mərhələdə Ağdərənin Vəngli kəndinə 11 ailə - 45 nəfər, Xocalının Daşbulaq kəndinə 9 ailə - 31 nəfər, Badara kəndinə isə 6 ailə - 19 nəfər köçürülüb. Köçürülmə prosesi Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində əlaqədar dövlət qurumlarının birgə fəaliyyəti ilə həyata keçirilib.

***XQ***

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin (MEDİA) icraçı direktorunun müavini Natiq Məmmədli qurumun mediaya dəstək müsabiqələrinin yeni qaydaları ilə bağlı sualları cavablandırıb.**

**– MEDİA-nın keçirdiyi müsabiqələr ənənə halını alıb, artıq növbəti fərdi jurnalist müsabiqəsi elan olunub. Bu müsabiqələri keçirməkdə başlıca məqsəd nədən ibarətdir və səmərəliliyini necə qiymətləndirmək olar?**

# Mediaya dəstək müsabiqələri necə keçiriləcək?

– Doğru qeyd edirsiniz ki, Agentliyin həyata keçirdiyi müsabiqələr mediamızda ənənə halını alıb və müraciətlərin dinamikasını, eyni zamanda, nominasiyalar üzrə rəqabət səviyyəsini təhlil etdikdə jurnalistlərimizin müsabiqəyə ciddi marağının olduğunu söyləyə bilərik. Bu müsabiqələr jurnalistlərin fərdi bilik və bacarıqlarının inkişaf etdirilməsi, potensialının üzə çıxarılması, xüsusən də yeni imzaların tanıdılması baxımından vacib həvəsləndirmə rolunu oynayır. Bildiyiniz kimi, Agentlik müsabiqədə iştirakla bağlı hər hansı istiqamət və ya mövzu təklifi etmir, əksinə, jurnalistin özünün seçimi əsasında müsabiqə elan olunan günə qədərki son üç ay ərzində işıq üzü görmüş istənilən materialını təqdim etmək sərbəstliyini dəstəkləyir. Jurnalist artıq öz işini yalnız müsabiqə şərtlərinə uyğun qurmur, şərtlər jurnalistin yaradıcı sərbəstliyinə uyğunlaşdırılır. Müsabiqənin bütün nominasiyaları praktik jurnalistikanın tələblərinə görə müəyyənləşib. Müqayisə üçün deyə bilərik ki, son illərədək müsabiqələrdə bir qayda olaraq həcm və forma tələbi ön planda olurdu ki, bu da əksər vaxtlarda sözçülüyə, təkrarçılığa gətirib çıxarır, jurnalistin fərdi üslubunu arxa plana keçirirdi. İndi jurnalist hazırladığı müsahibədən tutmuş köşə yazısına və oçerkinə qədər ən yaxşı hesab etdiyi istənilən materialını müsabiqəyə təqdim edə bilər. Eyni prinsiplər audiovizual media subyektlərində çalışan həmkarlarımızın materiallarına da şamil edilir. Burada yalnız xronometraj həddi müəyyən edilib ki, bu da televiziyaların xəbər süjetləri üçün nəzərdə tutulmuş ümumi normativlərdən irəli gəlir.



Hər dəfə müsabiqələrə yekun vurulduqdan sonra onun nəticələri təhlil edilir, lazım gələrsə, şərtlərin təkmilləşdirilməsi yönündə addımlar atılır. Fərdi jurnalist müsabiqəsinin şərtlərinə edilən sonuncu dəyişiklik audiovizual media subyektlərinin əməkdaşları üçün yerlərin artırılması ilə bağlı olub. Müsabiqədə hazırda 8 nominasiyanın hər biri üzrə 5 nəfər olmaqla, qəzet və veb-saytların 40 nümayəndəsi, audiovizual media üçün nəzərdə tutulmuş 3 nominasiyanın hər biri üzrə 10 nəfər olmaqla, 30 media nümayəndəsi, ümumilikdə isə 70 nəfər qalib elan olunur.

Məsuliyyətli jurnalistikanın təşviqi, etik standartlara sadiqlik, analitik düşüncə və yaradıcı yanaşma bizim üçün prioritetdir və sevindirici məqam odur ki, media nümayəndələri də bu prosesin fəal tərəfdarıdır.

**– Çap və onlayn media subyektləri üçün müsabiqələrdə bu dəfə irəli sürülmüş yeni şərtlər hansı zərurətdən irəli gəlib?**

– Ənənəvi media subyektlərinə göstərilən dəstək ictimai və dövlət maraqlarını əsas götürərək həyata keçirilir. Fərdi jurnalist müsabiqəsində olduğu kimi, burada da məqsəd media subyektinin peşəkarlığının gücləndirilməsi, cəmiyyətin ictimai məzmunlu informasiya ilə təminatının keyfiyyətli formada qurulmasıdır. Media gündəlik işini müasir meyillərə cavab verərək qurmadığı təqdirdə, heç şübhəsiz ki, davamlı auditoriyasının zəiflədiyinin və nəhayət, ictimai rəyə təsir imkanlarının azaldığının şahidi olacaqdır.

Dünyanın qlobal media ekosistemində cərəyan edən proseslər Azərbaycan mediasından da yan keçmir, əksinə, onun peşəkar fəaliyyətinə birbaşa təsir göstərir. Bu baxımdan, bizim yanaşmamız da milli informasiya resurslarımızın daha da güclənməsi, yerli və beynəlxalq rəqabətdə etibarlı mənbə kimi mövqeyinin qorunub saxlanmasına dəstək verməkdir. Süni intellekt əsaslı texnologiyaların tətbiqi, rəqəmsal platformaların funksionallığının getdikcə artması Azərbaycan mediasının da bu istiqamətdə uyğun fəaliyyətini tələb edir. Ona görə də çap və onlayn media subyektlərinə müsabiqəli maliyyə yardımının göstərilməsinə dair yeni yanaşmanın tətbiq edilməsi zəruri idi. Yeni qaydalara görə veb-saytlara ayrılan maliyyə vəsaitinin həcmi artırılıb, bu da öz növbəsində minimum işçi sayının, eyni zamanda, jurnalistlər üçün minimum əməkhaqqının artırılması ilə müşayiət olunmalıdır. Göründüyü kimi, dövlətin maliyyə dəstəyi bir tərəfdən medianın rəqəmsal mühitə inteqrasiyasını, rəqabətə davamlılığını dəstəkləməklə yanaşı, digər tərəfdən jurnalistin sosial müdafiəsinin gücləndirilməsini də prioritet hesab edir.

Ənənəvi mediamızın mühüm elementi olan qəzetlərə də ümumi yanaşma tətbiq edilərək onların hamısının yalnız həftədə bir nömrəsinin maliyyələşdirilməsi prinsipi əsas götürülüb. Hesab edirik ki, qəzet redaksiyalarımız getdikcə bahalaşan mətbəə, kağız və bu qəbildən olan müxtəlif texniki xərclərini optimallaşdırmalı, yeni reallıqlara uyğunlaşaraq rəqəmsal platformalarda öz yerlərini möhkəmləndirməlidir. Aydın məsələdir ki, bu, media idarəetməsinin yenilənməsi, materialların yazı və təqdimat formalarının təkmilləşdirilməsi və s. kimi çoxtərəfli, lakin medianın gələcəyi ilə bağlı həyati əhəmiyyətli yaradıcı məsələdir.

**– MEDİA artıq televiziyalar üçün də ayrıca müsabiqələr təşkil edir, bu istiqamətdə görülən işləri necə qiymətləndirmək olar?**

– Artıq ikinci ildir ki, Audiovizual Şura ilə birlikdə dövlət sifarişi əsasında audiovizual məhsulların istehsalı və yayımı üzrə müsabiqələr təşkil edirik. Hədəfimiz yeni media mühitində auditoriyayönümlü və hədəf kütlələrə hesablanmış məzmun istehsalını və yayımını təşviq etməkdir. Maarifləndirici materialların rəqabətədavamlılığının artırılması, məzmun müxtəlifliyi və yaradıcılığın stimullaşdırılması əsas prioritet kimi müəyyənləşdirilib. Məqsədimiz informativ və ictimai dəyər daşıyan materialların sayını artırmaq, eyni zamanda, televiziya kanallarını çoxformatlı, yaradıcılığa əsaslanan məzmuna həvəsləndirməkdir. Apardığımız sistemli monitorinqlərin nəticəsi deməyə əsas verir ki, dövlət dəstəyi efir məkanının ictimai məzmunlu audiovizual kontentlə zənginləşməsində mühüm rol oynayır. Yeri gəlmişkən onu da vurğulamaq istərdik ki, televiziyalarımız da ənənəvi mediamızın vacib elementləridir, onların da istər idarəetmə, istər rəqəmsallaşma baxımından müasirləşməsi, məzmun zənginliyində yaradıcılığın dəstəklənməsi günümüzün tələbidir. Ümumiyyətlə, dövlətin bütün media subyektlərinə göstərdiyi dəstəyin əsas mahiyyəti ondan ibarətdir ki, o, yalnız medianın mövcud vəziyyətini qoruyub saxlamağa yönəlmir, eyni zamanda, jurnalistikanın gələcəyini də nəzərə alır.

# Çap mediası subyektlərinə dəstək üçün müsabiqə elan edib

**Medianın İnkişafı Agentliyi (MEDİA) çap mediası subyektlərinə dəstək üçün müsabiqə elan edib.**




Media Reyestrinə daxil edilmiş ictimai-siyasi qəzetlər müsabiqədə iştirak edə bilərlər. Müsabiqədə iştirak etmək üçün müraciət və ona əlavə edilən sənədlər elektron formada mib.media.gov.az portalı vasitəsilə Medianın İnkişafı Agentliyinə təqdim edilir.

Müsabiqənin yekununda qalib elan edilmiş qəzet redaksiyaları ilə Agentlik arasında maliyyə yardımının göstərilməsinə dair müqavilə imzalanır və 6 (altı) ay müddətində qüvvədə olur.

Agentlik tərəfindən qəzetlərin həftədə bir nömrəsinin çapına maliyyə yardımı göstərilir və bu məqsədlə onlara aylıq 5000 (beş min) manat məbləğində vəsait ödənilir, qəzetin eyniadlı veb-saytına isə aylıq 3000 manat (əsaslı yenilənmə niyyəti ifadə edilmişdirsə, ilk ay 5000 manat olmaqla) məbləğində maliyyə yardımı göstərilir.

Qeyd edək ki, müsabiqəyə 26 noyabr 2025-ci il saat 18:00-dək müraciət etmək mümkündür. Müsabiqənin qaydaları ilə buradan tanış ola bilərsiniz.

***XQ***

*Yol qeydləri*

# Sarı dənizin zümrüdü – Tsindao

**(əvvəli qəzetin 1 noyabr sayında)**

**Pekin tarixi ilə qürur duyan, müasirliyi ilə göz oxşayan nəhəng şəhər olaraq səfərimizin ən dolğun və rəngarəng dayanacağı oldu. 12 günlük ölkə turumuzun ilk hissəsində Böyük Çin Səddi, Qadağan Şəhər, Tiananmen meydanı, İmperator saray kompleksi və müasir işıqlandırılmış prospektlər Pekinin həm qədim, həm də gələcəyə hesablanan simasını bizə göstərdi. Bu şəhər tarixlə yanaşı sənayenin, texnologiyanın və supermüasir infrastrukturun necə bir araya gələ biləcəyini göstərən canlı muzeydir. Metro xətləri, müasir hava limanları, geniş şose yollar və nizamlı şəhərsalma Pekini yalnız Çində deyil, bütün Asiya nəhəngləri arasında xüsusi mövqeyə çıxarır.**





## Çinin dəniz qapısı

Böyük Çin Səddi ilə tanışlıqdan sonra paytaxtın səs-küylü küçələrini arxada qoyub təyyarə ilə ölkənin şərq sahillərinə – Sarı dənizin zümrüd paytaxtı Tsindaoya yollandıq. Bir neçə saatlıq uçuşdan sonra tam fərqli Çinlə qarşılaşdıq. Tsindao sakit ritmi, təmiz havası, dəniz küləyi və Avropa – Çin memarlığının qarışığı ilə turistləri ilk andan cəlb edir. Bu da təsadüfi deyil, XIX əsrin sonlarında şəhərin Almaniyanın kolonial təsiri altında inkişaf etdiyi məlumdur. Bu səbəbdən şəhərin mərkəzi küçələri Avropa memarlıq məktəbinin elementləri ilə zəngindir – kilsəvari tikililər, geniş pəncərəli kərpic binalar, daş küçələr və dənizə doğru uzanan tarixi körpülər buraya özünəməxsus xarakter qazandırır.

Bu gün Tsindao həm də Çin iqtisadiyyatının mühüm qapılarından biridir. Liman Asiyanın ən iri yük daşımaları mərkəzlərindən sayılır, ildə milyonlarla konteyner buradan dünya limanlarına göndərilir. Şəhərdə yerləşən sənaye parkları və beynəlxalq sərgi mərkəzləri Tsindaonu Çinin xarici ticarət xəritəsində əvəzolunmaz edir. Burada qırmızı damlı evlər, liman kranlarının yaratdığı sənaye panoraması və dənizkənarı bulvar boyunca uzanan yaşıl zolaqlar şəhərin xüsusi ab-havasını tamamlayır.

Şəhərə daxil olan hər kəsin gözünə dəyən ilk tikililərdən biri Sarı dənizin üzərində uzanan nəhəng Jiaozhou körpüsüdür. Çinli bələdçimizin sözlərinə görə, dəniz üzərindəki hissəsinin uzunluğu 26 kilometr, ümumi uzunluğu isə qollarla birlikdə 40 kilometrdən çoxdur. Bir vaxtlar avtomobillərin körfəzi dolanmaq üçün itirdiyi 40-50 dəqiqəlik məsafə indi cəmi 10-12 dəqiqəyə qət olunur. Körpüdən keçərkən dəniz, liman, gəmilər və şəhərin silueti sanki film kadrı kimi göz önündə canlanır. Tsindao yalnız dəniz üzərində deyil, onun altında da iri layihə ilə diqqət çəkir. 7 kilometrlik sualtı avtomobil tuneli dünyanın ən uzun dənizətrafı tunellərindən biridir və şəhərin nəqliyyat axınını bölərək sürətli keçidi təmin edir.

Tsindao deyəndə yerli sakinlərin ilk xatırlatdığı nüanslardan biri də dünyaca məşhur pivə festivalıdır. Hər il avqustda keçirilən bu tədbir zamanı sahil boyunca rəngarəng pavilyonlar qurulur, müxtəlif ölkələrdən pivə istehsalçıları şəhərə axışır, axşamlar isə dəniz kənarında konsertlər və fişəng şouları təşkil edilir. Şəhərin mətbəxi də dənizlə sıx bağlıdır: qızardılmış kalmar, buxarda bişirilmiş xərçəng, midyələr, yosun salatları və iri balıq şorbalı menyularda



xüsusi yer tutur. Tsindaoda “dənizə nə düşsə, sabah bazarda satılar” deyən zarafatın əsassız olmadığı hər restoran masasında görünür.

Tsindaonun turistləri cəlb edən başqa bir cəhəti isə dənizlə nəfəs alan şəhər ritmidir. Səhərlər çimərliklərdə idman edənlər, sahildə oyanan dəniz quşlarının səsi, körfəz boyunca uzanan velosiped yolları və gün batımında suyun səthinə vurulan şimal işıqları – bütün bunlar şəhərə romantik bir ahəng verir. Ən məşhur dayanacaqlardan biri “Tsingtao Beer Museum”dur. Məhz burada dünyaca tanınan “Tsingtao” pivəsinin tarixi, istehsal prosesi və ənənəvi pivə mədəniyyəti nümayiş etdirilir.

Şəhər həm də elm və təhsil baxımından inkişaf etmiş məkandır. Tsindao Universiteti, Okeanologiya İnstitutu və dəniz elmləri üzrə tədqiqat mərkəzləri Çinin su texnologiyaları və okean təbiəti ilə bağlı araşdırmalarında aparıcı yer tutur. Bu səbəbdən Tsindao həm də “Çinin dəniz laboratoriyası” adlandırılır.

## Çin texnoloji nəhənglərinin məkanı

“Hisense” və “Haier” kimi dünya brendlərinin məhz Tsindaoda yerləşməsi şəhərin iqtisadi simasını tamamilə dəyişdirib. Hər iki şirkət Çinin yüksək texnologiyalar sahəsində qlobal arenada söz sahibi olmasında xüsusi rol oynayır. Lakin xüsusən də Haier şirkətinə edilən səfərimiz unudulmaz təəssüratlar yaratdı. Bu brend artıq sadəcə məişət texnikası istehsalçısı deyil, innovasiyaların, “ağıllı ev” texnologiyalarının və sənaye 4.0 modelinin simvoluna çevrilib.

“Haier”in Tsindao Texnologiya Parkında yerləşən böyük muzeyi bizi sanki bir texnoloji zaman tunelindən keçirtdi. Muzeyin ekspozisiyası markanın 1984-cü ildə kiçik bir soyuducu istehsal zavodu kimi fəaliyyətə başlamasından tutmuş dünyanın 160-dan çox ölkəsində tanınan qlobal şirkətə çevrilməsinədək geniş tarixi göstərir. Ziyarətçilərə interaktiv stendlər vasitəsilə “Haier”in müxtəlif dövrlərdə hazırladığı məişət cihazları nümayiş etdirilir: ilk soyuducular, paltaryuyan maşınlar, qaz plitələri, daha sonra isə “ağıllı” sistemlərlə inteqrasiya olunmuş müasir cihazlar.

Muzeyin ən cəlbedici hissələrindən biri “Gələcəyin evi” bölməsi idi. Burada sensorlarla idarə olunan mətbəx sistemləri, internetə qoşulan soyuducular, səsə reaksiya verən elektrik cihazları və insanın gündəlik işlərini avtomatik planlaşdıran “ağıllı ev” modulları təqdim olunur. “Haier”in istehsal etdiyi hər cihazın yalnız məişət aləti deyil, müasir həyat tərzinin elementi olduğu nümayiş etdirilir. Şirkət yalnız məhsul satmır, həm də rahatlıq, enerji qənaəti və təhlükəsizlik üzərində qurulan bir həyat modeli təklif edir.

Muzeydə olarkən bir foto diqqətimizi xüsusilə çəkdi. Orta yaşlı çinli əlində çəkiclə soyuducuya zərbə endirirdi. Bələdçi bu hadisənin 1985-ci ildə baş verdiyini bildirdi. Onun sözlərinə görə, o zaman Çinin Tsindao Soyuducu Zavodunun direktoru təyin olunan Çjan Ruymin müəssisəni tamamilə iflic vəziyyətində qəbul etmişdi. Zavodun məhsulları keyfiyyətsiz, satışlar aşağı, müştəri şikayətləri isə çox idi. Problemin köklərinin keyfiyyətə ciddi yanaşmamaqda olduğunu anlayan Çjan Ruymin tarixə düşəcək addım atmışdı.

Məhsulların keyfiyyətini sınaqdan keçirdikdə məlum oldu ki, anbarlarda saxlanılan yüzlərlə soyuducudan bəziləri ciddi nasazdır. Bu zaman rəhbər işçilərin çoxu “təmir edərək yenidən sataq” təklifini irəli sürdü. Lakin Çjan Ruymin bu yanaşmanı kökündən rədd etdi. O, bütün işçiləri toplayaraq 76 nasaz soyuducunu meydançada hamının gözü qarşısında iri çəkiclə sındırdı. Hətta bəzi işçilər sındırmağa utanırdı, çünki həmin soyuducuların qiyməti o dövr üçün çox yüksək idi. Lakin Çjan Ruyminin bir cümləsi şirkətin dönüş nöqtəsinə çevrildi: “Məhsulun təmiri müştərinin imicini bərpa etmir. Keyfiyyətsiz məhsulu satmaq – şirkətin gələcəyini məhv etməkdir!”.

Bu hadisə “Haier”də “sıfır qüsur” fəlsəfəsinin əsasını qoydu. Bundan sonra istehsal standartları tam dəyişdirildi, işçilər məhsulun keyfiyyətinə görə şəxsi məsuliyyət daşımağa başladılar, keyfiyyət nəzarəti beynəlxalq standartlara uyğunlaşdırıldı, “Haier” qısa müddətdə Çinin ən etibarlı məişət texnikası istehsalçısına çevrildi. Çəkic hadisəsi bu gün Çinin biznes tarixində məşhur simvol hesab edilir, çinlilər qürurla deyirlər ki, bu hadisə keyfiyyətin hər şeydən üstün olduğunu nümayiş etdirən ən tanınmış menecment nümunələrindən biridir.

Sonda “Haier”in innovasiya laboratoriyasında real istehsal prosesi əyani şəkildə göstərildi. Robotlaşdırılmış istehsal xətləri, avtomatlaşdırılmış keyfiyyət nəzarəti və insan əməyinin minimum iştirakı ilə çalışan ağıllı sistemlər müasir sənayenin necə dəyişdiyini aydın göstərirdi. Muzeyi tərk edərkən hamı eyni şeyi deyirdi - Tsindao təkcə gözəl dəniz sahili və pivə şəhəri deyil, həm də Çin sənayesinin gələcəyini göstərən böyük bir texnologiya paytaxtıdır. “Haier” mühəndislərin və dizaynerlərin yaratdığı innovasiyaların adi insan həyatını necə sadələşdirdiyini nümayiş etdirərək bu səfəri unudulmaz etdi.




## Şəhərin səsi – Qingdao TV

Qingdao TV Çinin Şandun vilayətində fəaliyyət göstərən ən böyük regional media qurumlarından biri kimi şəhərin informasiya məkanında mühüm rol oynayır. Kanal müxtəlif tematik yayımlar, xəbərlər, ictimai-siyasi proqramlar, mədəniyyət, turizm, elm və texnologiya mövzularında verilişlər hazırlayır və internet üzərindən paralel yayım həyata keçirir. Müasir studiyalar, montaj otaqları, dron operatorları, rəqəmsal yayım mərkəzi və sosial media komandasının fəaliyyəti QTV-ni həm yerli, həm də beynəlxalq auditoriya üçün çevik və peşəkar platformaya çevirib.

İşgüzar atmosferdə keçən ziyarət zamanı xəbər otağı, studiyalar, operator və montaj bölmələri ilə tanış olduq. Xəbərlərin hazırlanması, reportajların montaj prosesi, süni intellektə əsaslanan avtomatik subtitr sistemləri, sosial şəbəkələr üçün paralel kontent istehsalı barədə ətraflı məlumat verildi. QTV-nin əməkdaşları həm ənənəvi televiziya yayınını, həm də rəqəmsal platformalarla inteqrasiyanı paralel şəkildə həyata keçirirlər ki, bu da onların fəaliyyətini daha çevik və müasir edir.

Səfər həm texniki imkanların yüksək səviyyədə olması, həm də kollektivin peşəkarlığı baxımından yadda qaldı. QTV-nin iş mədəniyyəti, operativlik, yaradıcı yanaşma və açıq kommunikasiya bu televiziya mərkəzini regionun nüfuzlu media platformalarından birinə çevirib. Ümumilikdə, təəssüratlar göstərdi ki, bu ziyarət yalnız tanışlıq deyil, gələcək əməkdaşlığın başlanğıcı ola biləcək mühüm addımdır.

Media sisteminin diqqətçəkən tərəflərindən biri onun beynəlxalq əməkdaşlığa açıq olmasıdır. Tsindao yayım strukturu qardaş şəhərlər və xarici media qurumları ilə əlaqələr qurur, birgə televiziya layihələri və informasiya mübadiləsi təşəbbüslərinə qoşulur. Bu, şəhərin regional təbliğat imkanlarını genişləndirir və Tsindao haqqında məlumatın qlobal auditoriyaya çıxmasını təmin edir. Bu gün Çindao televiziya sistemi ənənəvi efir mədəniyyətini elektron media ilə birləşdirən, dinamik və çoxkanallı platforma kimi fəaliyyət göstərir. O, şəhərin ictimai həyatını, iqtisadi uğurlarını və mədəni kimliyini dünyaya nümayiş etdirməkdə mühüm rol oynayır.

Ziyarətimiz həm media mərkəzinin texniki imkanları, həm də kollektivin professionallığı baxımından böyük təsir bağışladı. Direktordan başlayaraq, gənc mütəxəssislərə qədər hər kəsin əməkdaşlığa açıq olması, təşəbbüsləri dəstəkləməsi, müasir media mühitini yaxından izləməsi diqqət çəkdi. Düşünürəm ki, bu səfər, həmçinin Azərbaycan mediasının Çin tərəfi ilə daha geniş informasiya körpüsü qurması üçün real perspektivlər açır. Eyni zamanda, bu görüş göstərdi ki, kommunikasiya yalnız proqram mübadiləsi ilə məhdudlaşmır – o, mədəni əlaqələrin, şəhərlərarası dostluğun və yeni layihələrin başlanğıcı ola bilər.

## 4 May meydanı-tarixin ruhu, müasirliyin ritmi

Tsindao şəhərinin simvollarından birinə çevrilmiş 4 May Meydanı Şandun sahillərində yerləşən ən məşhur ictimai məkanlardan biridir. Sahil boyunca uzanan bu geniş meydan həm yerli sakinlərin gündəlik istirahət nöqtəsi, həm də turistlərin ən çox ziyarət etdiyi ünvan sayılır. Fəvvarələr, geniş piyada zolaqları, istirahət oturacaqları və çimərlik xəttinə açılan mənzərəli yol Meydanı şəhər həyatının canlı mərkəzinə çevirir.

Meydan öz adını Çin tarixində mühüm yer tutan 4 May Hərəkatından alıb. 1919-cu ildə Çinin müxtəlif şəhərlərində baş qaldıran bu siyasi və mədəni hərəkat milli özünüdərkin, elm və maarifçilik ideyalarının, modernləşmə çağırışlarının simvolu kimi tarixə düşüb. Həmin illərdə Tsindao əcnəbi dövlətlərin nəzarətində olduğu üçün hərəkatın ideoloji şüarlarından biri də milli suverenlik məsələsinə yönəlirdi. Məhz buna görə 4 May Meydanı Çin cəmiyyətinin dirçəliş ideyalarını xatırladan rəmzi məkan hesab olunur.

Meydanın ən tanınmış arxitektura elementi qırmızı rəngdə ucalan “Mayın küləyi” heykəlidir. Spiralvari kompozisiya dinamiklik, dəyişiklik və irəliləyiş ideyasını təcəssüm etdirir. Gün batdıqca heykəlin üzərində xüsusi işıqlandırma sistemi yanır və meydan gecə saatlarında da turistlərin diqqətini cəlb edir. Şəhərin simvolu kimi bu abidə tez-tez Tsindao haqqında reklamlarda, broşürlərdə və turist fotoşəkillərində əks olunur.

Meydanın ətrafı müasir şəhər memarlığının nümunəsi sayılan göydələnlərlə, biznes mərkəzləri və ticarət obyektləri ilə əhatə olunub. Sahilə doğru uzanan bulvar, velosiped cığırları, açıq idman sahələri və dəniz üzərində panoramalı körpü şəhərə gələn qonaqlara əlavə imkanlar yaradır. Xüsusilə yaz və yay aylarında buraya gələn turistlər dəniz kənarında yürüş edir, foto çəkir, sahil kafe və restoranlarında vaxt keçirirlər. 4 May Meydanı həm də böyük kütləvi tədbirlərin keçirildiyi məkandır. Dövlət bayramları, idman festivalları, gənclər yürüşü, musiqi proqramları və şəhər günləri burada təşkil olunur. Öz strateji mövqeyi, dəniz mənzərəsi və geniş açıq ərazisi sayəsində meydan Tsindao şəhərinin ictimai həyatında mühüm rol oynayır.

Bələdçimiz bildirdi ki, Tsindao şəhərinə gələnlər üçün 4 May Meydanını ziyarət etmək sadəcə ekskursiya deyil, həm şəhərin tarixi kimliyini, həm də müasir urbanistikasını görmək üçün ideal fürsətdir. Buradan sahil boyunca yerləşən avtomobil və piyada yoluyla Tsindao Opera Teatrına, Konqres və Sərgi Mərkəzinə, həmçinin Çingdao körpüsünün seyr nöqtələrinə keçid almaq mümkündür.

Çinli dostlarımızın sözlərinə görə, onlar üçün 4 May Meydanı, sadəcə, turistik məkan deyil. Bu meydan şəhərin yaddaşı, simvolu və gələcəyə açılan pəncərəsidir. Tarixi xatırladan rəmzi məzmunu, müasir həyatın dinamik ritmi və dəniz panoramı bu məkanı Tsindao şəhərinin ən yaddaqalan ünvanlarından birinə çevirir.

**(ardı var)**

*Səbuhi MƏMMƏDOV*
*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 242 (30936) 14 noyabr 2025-ci il, cümə

*Təbiət görüşə çağırır bizi*

# Dağlara qırov düşür...



**Son günlər düşən yağışdan, şiddətli küləkdən sonra havalar bir qədər də soyuyub. Daha insanlar Günəşin gülümsəməsinə elə də etibar eləmirlər. Çünki buludlar Günəşin qarşısına keçən kimi adam üşüyür. Səhər mehi isə artıq əvvəlkitək ruhumuza "sığal" çəkmir. Buna görə də adamlar bağlamaları açıb, isti paltarlarını geyinirlər.**

Payız yarı olub, bağda-bağçada sakitlik yaranıb. Köçəri quşların bəziləri hələ də yuvanı tərk etməyiblər. Görünür, payızın ilk həftələrinin günəşli keçməsi onlarda arxayınlıq yaradıb. Amma tez, ya gec onları qarşıda uzun yolçuluq gözləyir.

Hər səhər yataqdan qalxan kimi pəncərədən həyətə boylanıram. Bəzən dumandan uzağı görmək olmur. Bir-iki saat sonra duman çəkilib gedir. Günəş şüaları təbiəti yaxşı isitməsə də təbiət yuxuya getməzdən əvvəl çöl-çəmən yenidən yaşıl rəngə boyanır. Əkinçinin səpdiyi toxumlar artıq cücərməyə başlayır...

Xalq arasında deyilir ki, payızı xoş keçən ilin məhsulu bol olar.

Ağacların çılpaq qalmış budaqları arabir sırsıra bağlayır. Aylarla "yaşıl paltarlı" budaqları çılpaq görəndə canında bir üşütmə hiss edirsən. O budaqlar görən çovğuna, şaxtaya necə dözəcək. Çılpaqlaşmış ağaclardakı boş yuvalar yəqin ki, bahar gələnədək sahibləri üçün darıxacaqlar. Adam evindən, həyət bacasından beş-altı ay uzaq düşəndə qayıdanbaş görür ki, elə bil qoyub getdiyi ev deyil, sanki bina, əşyalar darıxdığından rəngini-ruhunu itirib. Hər yana bir həzinlik yayılıb. Bəzən daş binalar təklikdən, qəriblikdən çatlayır. İlahi, dilsiz bina səssizliyə, tənhalığa, insan hənirinin olmamasına dözmürsə, bəs tənhalar, kimsəsizlər, gözü yolda qalanlar getdikcə uzanan payız, qış gecələrinə necə dözəcək?

Gözəl şairimiz Musa Yaqub belə anlar üçün gözəl yazıb:

***Uzun gecələr gəlir***
***Tənhalar üçün ağır.***
***Yaxınlar necə uzaq,***
***Doğmalar necə fağır...***

Günəşin şəfəqləri altında buz kristalları par-par parıldayır. Xalq arasında bu mənzərəni seyr edənlər "qırov düşüb" deyirlər. Alimlər bildirirlər ki, gündüzlər su buxarı qaz halında olduğu üçün görünmür. Axşamlar hava soyuduğundan su buxarı donur və kristallar əmələ gətirir. Üzərinə qırov düşən palıd yarpağı Yeni il qabağı bəzədilən küknara bənzəyir...

Balaca arı axşamüstü çiçəyin başı üstündə dincəlirmiş. Gecə boyunca üzəri qırovla örtülüb. Amma narahat olmağa dəyməz. Çünki elə ki Günəşin ılıq telləri torpağa düşdü, qırov əriyəcək və arı da özünə gələn kimi yenə şirə axtarışına çıxacaq.

Onu da deyək ki, bu, kristallar bir yerə toplandıqca qeyri-adi şəkillər meydana çıxır. Bu şəkillər bəzən hansısa ağaca, bəzən də təbiətdəki canlılara bənzəyir. Onları seyr etdikcə ana təbiətin ən böyük rəssam olduğuna inanır və bu görüntülərə baxmaqdan doymursan…

***Səməd MƏLİKZADƏ***

## İDMAN

## Zəfərin izi ilə Qarabağa veloyürüş



**Gənclər Fondunun maliyyə dəstəyi və "Gənc Peşəkar Velosipedçilər Klubu" İctimai Birliyinin təşkilatçılığı ilə "Qarabağa veloyürüş – Zəfərin izi ilə" adlı layihə həyata keçirilib. Layihə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" çərçivəsində gənclər arasında vətənpərvərlik ruhunun gücləndirilməsi, konstitusiya dəyərlərinə sadiqliyin təbliği və Qarabağın azad olunmuş torpaqlarında milli birliyin nümayişi məqsədilə gerçəkləşdirilib.**

Azərbaycanın Milli Qəhrəmanı Mədət Quliyev və bir çox rəsmilərin iştirakı ilə baş tutan veloyürüş Ağdam rayonundan start götürüb və Xankəndi şəhəri istiqamətində davam edib. Ölkənin müxtəlif bölgələrindən toplanan 100-ə yaxın gənc peşəkar velosipedçi 44 kilometrlik marşrutu qət edərək Qarabağın simvolik məkanlarını birləşdirib. Bu məsafə 44 günlük Vətən müharibəsinin mənəvi rəmzi kimi seçilib.

Veloyürüşə Xankəndi şəhərində yekun vurulub.

## 10 ayda 13 idmançı dopinqə görə cəzalanıb



**Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) 2025-ci ilin ilk 10 ayında 13 idmançıya sanksiya tətbiq edib. Bu barədə AMADA-nın icraçı direktoru Təhminə Tağızadə "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "İdmanda hüquq və ədalət: Yeni antidopinq çərçivəsi" adlı beynəlxalq konfransın açılış mərasimində məlumat verib.**

Onun sözlərinə görə, bu müddət ərzində 17 iş yekunlaşıb, 4 nəfər müxtəlif səbəblərdən sanksiya almayıb.

## "Lənkəran" "Sərhədçi"yə qalib gəlib



**Azərbaycan Basketbol Liqasında VII tura start verilib.**

Dünən günün yeganə qarşılaşmasında "Lənkəran" komandası "Sərhədçi"ni qəbul edib. Lənkəran Olimpiya İdman Kompleksində keçirilən matç ev sahiblərinin 83:78 hesablı qələbəsi ilə başa çatıb.

B qrupunda çıxış edən meydan sahibləri 7 oyundan 10 xalla üçüncü yerdə qərarlaşıb, 9 xalı olan "Sərhədçi" isə dördüncü sıradadır. Turnir cədvəlinə 6 oyundan 12 xal toplayan "Ordu" klubu başçılıq edir.

Qeyd edək ki, tura noyabrın 16-da yekun vurulacaq.

***Qabil YUSİFOĞLU***
***XQ***

## *İslam Həmrəyliyi Oyunları*

### Üzgüçülərimiz çıxışlarını başa vurublar



**Azərbaycan milli komandası İslam Həmrəyliyi Oyunlarında çıxışını başa vurub.**

Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda keçirilən VI İslam Həmrəyliyi Oyunlarında üzgüçülük üzrə Azərbaycan milli komandası uğurlu çıxışla yadda qalıb. Yarışları 3 medalla başa vuran yığmamız bu nəticə ilə İslam Həmrəyliyi Oyunları tarixində yeni səhifə açdı.

Milli komandamızın üzvləri – Ramil Vəlizadə 200 metr kəpənək üsulu üzməkdə gümüş medal, Süleyman İsmayılzadə 1500 metr sərbəst üsula üzməkdə bürünc medal, qadınların estafet komandası 4×200 metr sərbəst üsula üzməkdə bürünc medal qazanıblar.

İslam Həmrəyliyi Oyunlarının tarixində ilk dəfədir ki, üzgüçülük üzrə milli komandamız bütün medalları azərbaycanlı idmançılar hesabına qazanır. Bu nəticə milli komandanın inkişafında mühüm mərhələ və yeni nəsil üzgüçülərimizin beynəlxalq arenada yüksəlişinin göstəricisidir.

Bundan əlavə, komandamızın üzvləri tərəfindən bir neçə şəxsi və ölkə rekordları da yenilənib.

### Stolüstü tennisçilərimiz bir mükafat da qazanıblar



**VI İslam Həmrəyliyi Oyunlarında stolüstü tennis yarışları davam edir. Seçmə komandamızın üzvləri bu gün daha bir mükafata layiq görülüblər.**

Qarışıq qoşa mübarizədə yarımfinal oyununa çıxan Adil Əhmədzadə – Mərziyyə Nurmətova tandemi türkiyəli rəqiblərinə uduzaraq fəxri kürsünün üçüncü pilləsində yer alıb. Xatırladaq ki, bundan əvvəl qadınlardan ibarət komandamız yarışın bürünc mükafatına layiq görülmüşdü.

### Voleybolçularımızın gümüşü



**Qadın voleybolçulardan ibarət Azərbaycan millisi VI İslam Həmrəyliyi Oyunlarında gümüş medal qazanıb. Faiq Qarayevin yetirmələri finalda güclü Türkiyə seçməsi ilə qarşılaşıb. Hər üç setdə rəqibinə uduzan milli komandamız gümüş medalla kifayətlənib.**

Qeyd edək ki, Azərbaycanın qadın voleybol millisi 2017-ci ildə Bakıda keçirilmiş IV İslam Həmrəyliyi Oyunlarında qızıl, 2022-ci ildə Türkiyənin Konya şəhərinin ev sahibliyi etdiyi V İslamiadada isə bürünc mükafat qazanıb.

***XQ***

## "MOSKVİÇTEXXİDMƏT" ASC səhmdarlarının nəzərinə!

"Moskviçtexxidmət"ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı 15 dekabr 2025-ci il saat 14.00-da Bakı şəhəri, Sumqayıt şosesi, 4 nömrəli ünvanda keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1.** Cəmiyyətin fəaliyyətində yaranmış problemlə bağlı vəziyyətin müzakirəsi.

**2.** Cəmiyyətin yerləşdiyi dövlət mülkiyyətində olan torpaq sahəsinin özəlləşdirilməsi və ya icarəyə götürülməsi barədə Əmlak Məsələləri Dövlət Xidmətinin müraciətinin müzakirəsi və bu barədə qərar verilməsi.

**3.** Digər məsələlər.

Ümumi yığıncağın gündəliyinə aid məsələlərlə bağlı cəmiyyətə müraciət etmək olar.

## "Camaşırxana Kombinatı" ASC səhmdarlarının nəzərinə!

"Camaşırxana Kombinatı" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı 30 dekabr 2025-ci il saat 15.00-da Bakı şəhəri, Nəsimi rayonu, Alı Mustafayev küçəsi 30/14, 26 nömrəli ünvanda keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

**1.** Cəmiyyətin 2024-cü il üçün illik hesabatının müzakirəsi və təsdiqi.
**2.** Cəmiyyətin direktorunun seçilməsi.
**3.** Cəmiyyətin müşahidə şurasının üzvlərinin və sədrinin seçilməsi.
**4.** Cəmiyyətin yeni nizamnaməsinin qəbul edilməsi və təsdiq olunması.
**5.** Cari məsələlər.

Telefon – 055-326-00-01.

Səhmdarların ümumi yığıncaqda şəxsiyyət vəsiqəsi ilə iştirakı vacibdir.

## *HAVA*

## Bəzi yerlərdə duman, arabir yağış...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi, gecə və səhər bəzi yerlərdə duman olacağı gözlənilir. Cənub-şərq küləyi gündüz şimal-qərb küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 9-12, gündüz 15-20 dərəcə isti olacaq. Atmosfer təzyiqi 765 millimetr civə sütunu, nisbi rütubət isə gecə 80-85, gündüz 70-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüzdən bəzi yerlərdə arabir yağış yağacağı, duman olacağı gözlənilir. Qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 6-10, gündüz 15-20, dağlarda gecə 3-7, gündüz 10-15 dərəcə isti olacaq.

***Q.ƏLİYEV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tanınmış jurnalist

**EMİN İBRAHİMOVUN**

faciəli surətdə həlak olmasından kədərləndiyini bildiririr və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi, general-leytenant İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi, general-leytenant İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan şəhərindən İlqar Abbasov Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi, general-leytenant İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat və kibernetika fakültəsinin əməkdaşları riyazi kibernetika kafedrasının müdiri, professor

**KAMİL MƏNSİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

***✓ Babayev Sahib Əmrəli oğlunun adına verilmiş "Azərsu"ASC-yə məxsus sayğac plombunun "CO22699" nömrəsi itdiyi üçün etibarsız sayılır.***

***✓ "Premium Garage "QSC-nin (VÖEN-1500218741) təşkilati-hüquqi formasını dəyişərək "Premium Garage" MMC-yə çevrilməsi ilə əlaqədar 350000 ədəd adi, adlı, səhminin dövriyyədən çıxarıldığını elan edir.***

**DİREKTOR – BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**T E L E F O N L A R:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75**
**Məsul katib: 493-61-02**
**Texniki şöbə: 493-59-64**
**Mühasibatlıq: 498-85-29**
**Email: xalqqazeti@gmail.com**
**info@xalqqazeti.az**
**+994 (51) 280-16-44**

**"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.**

**Ü N V A N I M I Z:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS 0282**
**TİRAJ 3481**
**SİFARİŞ 2322**
**QİYMƏTİ 60 qəpik**

**Növbətçi redaktor**
**Nurlan ABDALOV**
**Çapa imzalanmışdır 00:00**